Xalqın qəzeti!

# Xalq qəzeti

№ 22 (30991) 5 fevral 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Cənubi Qafqazda sülh modeli beynəlxalq dəyər alır

## “Zayed İnsan Qardaşlığı Mükafatı”nın təqdimolunma mərasimi

### Prezident İlham Əliyevə mükafat təqdim olunub

**Fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində “Zayed İnsan Qardaşlığı Mükafatı”nın təqdimolunma mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə Birləşmiş Ərəb Əmirliklərinin himni səsləndirildi.

“Zayed İnsan Qardaşlığı Mükafatı” ilə bağlı videoçarx nümayiş etdirildi.

Sonra Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam çıxış etdi.

Tədbirdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin, Qırğız Respublikasının Prezidenti Sadır Japarovun, Livan Respublikasının Prezidenti Cosef Aunun, Türkiyənin birinci xanımı Əminə Ərdoğanın və İordaniya Haşimilər Krallığının Kralı II Abdullahın “Zayed İnsan Qardaşlığı Mükafatı”nın laureatlarına təbrik videomüraciətləri nümayiş olundu.

**Prezident Rəcəb Tayyib Ərdoğan:**

–Hörmətli qonaqlar.

Müxtəlif ölkələrdən tədbirdə iştirak edən hörmətli dostlarım.

Sizləri ən səmimi duyğularımla, hörmətlə və sevgi ilə salamlayıram.

2026-cı il Zayed İnsan Qardaşlığı mükafatlarının başda mükafatların sahibləri olmaqla hamımız üçün xeyirli olmasını diləyirəm.

Türkiyədəki 86 milyon qardaşınızın salamlarını sizə çatdırmaqdan böyük məmnunluq duyuram.

2019-cu ildən bəri təqdim edilən mükafatların bilavasitə yaşadığımız günlərdə bütün dünyada sülhə və sabitliyə töhfə verməsini diləyirəm.

*(ardı 2-ci səhifədə)*



## Dehli qırğını dövlət siyasətinin nəticəsi idi

*Hindistan hökumətinin zikh icmasına qarşı törətdiyi qətliamlar hələ də cəzasız qalıb*



**1984-cü ilin noyabrında paytaxt Dehlidə və ətraf bölgələrdə zikh icmasına qarşı törədilmiş kütləvi zorakılıq hadisələri müasir Hindistan tarixinin ən ağır insan haqları pozuntularından biri kimi qiymətləndirilir. Beynəlxalq insan haqları təşkilatları tərəfindən “dövlət səviyyəsində təşkil olunmuş qırğın” kimi xarakterizə edilən bu hadisələr minlərlə dinc sakinin həyatına son qoymuş, on minlərlə insanı evsiz və köçkün vəziyyətinə salmışdır.**

Bakı Təşəbbüs Qrupunun (BTQ) Hindistanın iki nüfuzlu insan haqları təşkilatının 1984-cü ildə birgə hazırladığı “Who Are the Guilty?” adlı hesabat əsasında apardığı təhlil məhz bu cəzasızlıq mexanizmini və onun siyasi-hüquqi köklərini sistemli şəkildə üzə çıxarır. Vətəndaş Azadlıqları Uğrunda Xalq Birliyi (PUCL) və Demokratik Hüquqlar Uğrunda Xalq Birliyi (PUDR) tərəfindən hazırlanmış hesabat 1984-cü il oktyabrın 31-də baş vermiş siyasi hadisələrdən dərhal sonra Dehli və ətraf bölgələrdə həyata keçirilmiş sistemli zorakılığın təsadüfi olmadığını ortaya qoyur.

*(ardı 6-cı səhifədə)*

## Azərbaycanın İsrail üçün önəmi yüksəlir





Səhifə ⇨ 6

## Vokye nəyə çalışır?



Səhifə ⇨ 6

## Hindistan Ermənistanda nə axtarır?



Səhifə ⇨ 8

## Oman görüşü: Dünya İran–ABŞ danışıqlarını ümidlə izləyir



Səhifə ⇨ 8

## “Zayed İnsan Qardaşlığı Mükafatı”nın layiqli sahibi



Səhifə ⇨ 5

## Əbu-Dabi–Vaşinqton–Əbu-Dabi: sülh oxu yayından çıxıb



Səhifə ⇨ 5

## Erməni hərbçilərin qanlı cinayətləri cəzasız qalmadı



Səhifə ⇨ 7

## Nançan–Bakı dəmiryol marşrutu işə salınıb



Səhifə ⇨ 9

## Azərbaycanda kriptovalyuta bazarının durumu və gələcəyi



Səhifə ⇨ 10

## Paytaxtın yeni nəqliyyat arteriyası



Səhifə ⇨ 11

## Liviyada neft uğrunda savaş səngimir



Səhifə ⇨ 15

# “Zayed İnsan Qardaşlığı Mükafatı”nın təqdimolunma mərasimi

*(əvvəli 1-ci səhifədə)*

Builki mükafatlara layiq görülən Azərbaycan Prezidenti cənab İlham Əliyev ilə Ermənistanın Baş naziri cənab Nikol Paşinyanı ürəkdən təbrik edirəm. Davamlı sülhün bərqərar olması yolunda həm İlham Əliyev qardaşımın atdığı cəsur addımları, həm də cənab Paşinyanın ortaya qoyduğu qətiyyətli iradəni son dərəcə əhəmiyyətli hesab etdiyimi xüsusilə vurğulamaq istəyirəm.

Məqsədi, əhatə dairəsi, məzmunu və ruhu üzərində iki tərəfin də razılıq əldə etdiyi razılaşmanın qüvvəyə minməsi ilə Qafqazın gələcəyində yeni bir səhifənin açılacağına inanıram.

Türkiyə olaraq bölgəmizdə və dünyada əmin-amanlıq, sülh, rifah və sabitliyə yönələn bütün təşəbbüsləri səmimiyyətlə dəstəkləyirik. Qafqazda davamlı sülhün bərqərar olması üçün üzərimizə nə düşürsə etməyə, ədalətə əsaslanan dostluq körpülərinin qurulmasında fəal şəkildə çalışmağa, inşallah, davam edəcəyik.

Bu düşüncələrlə həm Azərbaycan Prezidenti cənab Əliyevi, həm də Ermənistanın Baş naziri cənab Paşinyanı bir daha təbrik edirəm.








2026-cı il Zayed İnsan Qardaşlığı mükafatlarının bütün insanlıq üçün xeyirli olmasını diləyir, hamınızı sevgi və ehtiramla salamlayıram.

Sağ olun, var olun, salamat qalın!

*

**Prezident Kasım-Jomart Tokayev:**

–Əlahəzrətlər, Zati-aliləri, hörmətli qonaqlar.

Mən Prezident İlham Əliyevi və Baş nazir Nikol Paşinyanı “Zayed İnsan Qardaşlığı Mükafatı” ilə təltif olunmaları münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Bu mükafat qarşıdurma məntiqi əvəzinə sülhün, kin əvəzinə məsuliyyətin, keçmiş əvəzinə gələcəyin seçilməsi baxımından müdrik rəhbərliyi qeyd edir.

Dünyanın getdikcə parçalanmış vəziyyətə düşdüyü bir vaxtda belə siyasətin müstəsna mənəvi və siyasi əhəmiyyəti var. Sülh sazişi istiqamətində Azərbaycanın və Ermənistanın əldə etdiyi irəliləyiş tarixi əhəmiyyətə malik dönüş nöqtəsidir. Bu, hətta uzunmüddətli münaqişələrin dialoq, məsuliyyət və təmkinlik vasitəsilə həll oluna biləcəyini nümayiş etdirir.

Qarşıdurma və ciddi parçalanma xətləri ilə səciyyələndirilən bir dövrdə bu təcrübə göstərir ki, barışıq zəiflik deyil, güc deməkdir. Qazaxıstan üçün Azərbaycan və Ermənistan yaxın, qardaş ölkələrdir. Biz ölkəmizə göstərilmiş etimadı, o cümlədən sülh danışıqlarının mühüm mərhələsinin Almatıda keçirilməsini yüksək qiymətləndiririk. Bu, irəli getməyin yeganə yolunun dialoq olduğu ilə bağlı birgə inamımızın təzahürüdür.

Qazaxıstan Avrasiyada və daha geniş coğrafiyada ardıcıl olaraq sülhü, etimadı və əməkdaşlığı gücləndirən təşəbbüsləri dəstəkləyir. Şeyx Zayed Mükafatı güclü mənəvi mesaj daşıyır. O, qardaşlığın təhlükəsizlik, inkişaf və insan ləyaqətinin təmin edilməsi üçün universal prinsip və praktiki təməl olduğunu bir daha təsdiqləyir. Bu mükafat Şeyx Zayed bin Sultan Al Nəhyanın dözümlülük, qarşılıqlı hörmət və dinc birgəyaşayışa əsaslanan davamlı irsini təcəssüm etdirir.

Bu mənada mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana bu dəyərləri yüksək tutduğuna görə dərin minnətdarlığımı ifadə etmək istərdim. Bu prinsiplər konkret siyasi nəticələrdə öz aydın əksini tapır. Azərbaycan ilə Ermənistan arasında sülh və əməkdaşlıq bu mirasa yeni məzmun qatır, onun regionun hüdudlarından çox uzaqda olan aktuallığını nümayiş etdirir. Bu, həmçinin beynəlxalq münasibətlərin səmərəli aləti kimi diplomatiyaya etimadı gücləndirib.

Hörmətli Prezident Əliyev, hörmətli Baş nazir Paşinyan. Sizin sülhə güclü sadiqliyiniz milyonlarla insana ümid verdi və mehriban qonşuluq əlaqələrinin, sabitliyin beynəlxalq münasibətlərin ən ali dəyərləri olması ilə bağlı dünya ictimaiyyətinə aydın siqnal göndərdi. Hər ikiniz böyük müdriklik və dərin baxış nümayiş etdirdiniz. Əminəm ki, balansa və məntiqi düşüncəyə əsaslanan diplomatiya vasitəsilə biz daha sabit və proqnozlaşdırılabilən gələcək qura bilərik.

Təşəkkür edirəm.

*

**Prezident Şavkat Mirziyoyev:**

–Birləşmiş Ərəb Əmirliklərinin möhtərəm Prezidenti Əlahəzrət Məhəmməd bin Zayed Al Nəhyan.

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev.

Ermənistan Respublikasının Baş naziri Zati-aliləri cənab Nikol Paşinyan.

Xanımlar və cənablar.

Bu gün dəyişkən dünyada məsuliyyətli liderlərə, sarsılmaz siyasi iradəyə və problemlərin dialoq vasitəsilə həllinə böyük ehtiyac duyulur. Hazırkı mürəkkəb beynəlxalq vəziyyətdə bu tərzdə qəbul edilən ibrətamiz qərarlar dövlətlər və xalqlar arasında sabitlik bünövrəsini və güclü etimad yarada bilər. Lakin sülh kimi qiyməti olmayan nemət öz-özünə yaranmır. Sülh cəsarəti, digərini dinləmək və ən çətin şəraitdə belə güzəştlər yolunu tapmaq, qəbul edilmiş qərarlar üzrə məsuliyyət daşımaq bacarığını tələb edir.

Tarix göstərir ki, uzunmüddətli və dayanıqlı artım yalnız güzəştlər, qarşılıqlı hörmət və ehtiram mühiti yolu ilə əldə oluna bilər. Şeyx Zayedin “İnsan Qardaşlığı Mükafatı”nın laureatlarını – Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevi və Ermənistan Respublikasının Baş naziri Zati-aliləri Nikol Paşinyanı səmimiyyətlə təbrik etmək mənim üçün böyük şərəfdir. Uzun sürmüş münaqişəni rasional şəkildə həll etmək və sülhə nail olmaq naminə həmin siyasi liderlərin birgə səyləri, heç şübhəsiz, bu nüfuzlu mükafata layiqdir. Əldə olunmuş razılaşma problemin həllində məsuliyyətli yanaşmanın, bütöv regionumuzda sabitliyin təmin edilməsi istiqamətində atılmış tarixi addımın bariz nümunəsidir.

Bu mənada dövlət xadimlərinə belə yüksək mükafatın verilməsi, həmçinin dünyanın mühüm regionlarından birində yaranan dostluq, həmrəylik və yeni əməkdaşlıq ruhunun aydın əməli təsdiqidir. Biz istənilən mübahisənin, münaqişənin yalnız beynəlxalq hüquq və mehriban qonşuluq əsasında siyasi və diplomatik vasitələrlə həllinin tərəfdarıyıq. Bu gün biz xalqımızın ümumi əmin-amanlığı və rifahını yalnız birlik, qarşılıqlı dəstək və tərəfdaşlıq vasitəsilə təmin edə bilərik. Böyük Şeyx Zayedin adını daşıyan bu mükafatın layiqli namizədlərə verilməsi faktı həmin əbədi həqiqəti bir daha aydın şəkildə sübuta yetirir.

Fürsətdən istifadə edərək, Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyinin beynəlxalq arenada humanist təşəbbüslərin fəal şəkildə təşviqinə, dialoqun ardıcıl şəkildə gücləndirilməsinə, Əbu-Dabinin qlobal sülh mərkəzinə çevrilməsinə verdiyi olduqca dəyərli töhfəsinə görə təşəkkürümü bildirirəm. Əminəm ki, bu cür nəcib və mərhəmətli işlər beynəlxalq ictimaiyyətin sülhün və təhlükəsizliyin təmin edilməsinə yönəlmiş ümumi səylərinə yeni təkan verəcək. Sizə möhkəm cansağlığı, səadət və şərəfli fəaliyyətinizdə böyük uğurlar arzu edirəm.

Diqqətiniz üçün minnətdaram.

*

**Baş nazir Məhəmməd Şahbaz Şərif:**

–Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri, xanımlar və cənablar.

Çox əziz qardaşım, Zati-aliləri Azərbaycan Prezidenti İlham Əliyevə nüfuzlu “Zayed İnsan Qardaşlığı Mükafatı”nın verilməsi münasibətilə ən səmimi təbriklərimi çatdırmaqdan olduqca məmnunam. Mərhum Şeyx Zayed bin Sultan Al Nəhyanın əbədi irsinə, onun sülhə, dinc birgəyaşayış ilə bağlı daim qəlbdə yaşayan baxışlarına böyük hörmətin əlaməti olaraq, bu mükafat Birləşmiş Ərəb Əmirliklərinin uzaqgörən rəhbərliyinin səylərini əks etdirir, bu ölkənin qlobal səviyyədə aparıcı diplomatiya mərkəzi olduğunu göstərir.

Xanımlar və cənablar, parçalanma və münaqişələr məngənəsində olan dünyada Prezident Əliyevin qətiyyətli və cəsarətli rəhbərlik keyfiyyətləri hər zaman görünüb, onun gələcəyə yönələn baxışları uzunmüddətli ziddiyyətləri kənara qoyaraq, Ermənistanla tarixi sülh sazişi əsasında sülhə yolun açılmasında, əmin-amanlığın gücləndirilməsində özünü büruzə vermişdir. Həmin olduqca mühüm razılaşma təxminən dörd onillik sürən münaqişəyə son qoydu və beləliklə, Zayed Mükafatının dərindən təşviq etdiyi insan qardaşlığının, həmrəyliyin, mərhəmətin, ortaq insani dəyərlərin əsl nümunəsini təcəssüm etdirir.

Xanımlar və cənablar, Pakistan ilə Azərbaycanı dərin kökləri olan qardaşlıq, qətiyyətli qarşılıqlı dəstək telləri bağlayır, xalqlarımızı çalışdıqları qlobal sülh, rifah və dayanıqlı inkişaf dəyərləri birləşdirir. Biz Prezident İlham Əliyevin müdrik və düşünülmüş rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi yüksək nailiyyətlərdən fəxr hissi duyuruq. O, Qafqazda və onun hüdudlarından kənarda sülh və sabitliyin qətiyyətli carçısı kimi tanınır. Pakistan həmin Sazişi nəinki Azərbaycan və Ermənistan, o cümlədən bütöv region üçün yeni əmin-amanlıq və dayanıqlı sülh dövrünün başlanğıcı kimi alqışladı.

Xanımlar və cənablar, mən əziz qardaşım, Prezident İlham Əliyevi bu nüfuzlu mükafatı alması münasibətilə bir daha təbrik edirəm. Ümidvaram və dua edirəm ki, uzaqgörən rəhbərinin səyləri ilə qardaş Azərbaycan xalqı uzunmüddətli sülhə, əmin-amanlığa və tərəqqiyə doğru addımlarını davam etdirsin.

Sağ olun.

*

**Prezident Sadır Japarov:**

–Hörmətli İlham Heydər oğlu Əliyev.

Hörmətli Nikol Vovayeviç Paşinyan.

Sizə 2026-cı il üzrə “Zayed İnsan Qardaşlığı Mükafatı” ilə təltif edilməyiniz münasibətilə səmimi təbriklərimi çatdırıram. Qırğız Respublikası 2025-ci il avqustun 8-də Vaşinqton şəhərində aranızda keçirilmiş görüşün nəticələrinə dair Birgə Bəyannamənin imzalanmasını xüsusi məmnuniyyət hissi ilə alqışladı. Bu, sadəcə, siyasi və diplomatik addım deyil, Cənubi Qafqazda davamlı sülhün, təhlükəsizliyin və qarşılıqlı etimadın gücləndirilməsinə xidmət edən həqiqətən də tarixi bir nailiyyətdir. Onu da xüsusi vurğulamaq istəyirəm ki, hörmətli İlham Heydər oğlu və hörmətli Nikol Vovayeviç görkəmli dövlət xadimliyinin, uzaqgörən liderliyin və siyasi məsuliyyətin ən yüksək səviyyəsini nümayiş etdirdilər. Qırğız Respublikası qəti şəkildə əmindir ki, ölkələriniz arasında münasibətlərin tam bərpası, ilk növbədə, hər iki xalqın mənafeyinə xidmət edir və davamlı sülhün güclü təməlini yaradır. Bu mənada biz sülh sazişinin ən qısa zamanda imzalanması istiqamətində Bakı və İrəvanın son vaxtlardakı səylərini tam dəstəkləyirik. Biz iki ölkə arasında qarşılıqlı etimadı gücləndirən və dayanıqlı sülh arxitekturasının yaradılmasına töhfə verən bu prosesin hərtərəfli dəstəklənməsinə hazırıq.

Qırğız Respublikası bu sahədə özünün tarixi təcrübəsinə xüsusi əhəmiyyət verir. Bu mənada onu da qeyd etmək istəyirəm ki, Qarabağda münaqişənin dayandırılması və insanların həyatının xilas edilməsi üçün 1994-cü ildə imzalanmış Bişkek Protokolu diplomatik praqmatizmin və məsuliyyətin vacib nümunəsi oldu.

Bildiyiniz kimi, Qırğız Respublikası qonşu dövlətlərlə sərhəd məsələlərini tədricən həll etdi. 2025-ci ildə Qırğızıstan, Tacikistan və Özbəkistan arasında olan sərhədin üç ölkəni birləşdirən hissəsinə dair razılaşma imzalandı. Uzun illər ərzində biz sərhəd məsələləri ilə bağlı çağırışları ardıcıl şəkildə həll etməyə çalışmışıq. Nəticədə bütün məsələlərin yalnız dostluq, mehriban qonşuluq, qarşılıqlı dəstək və qarşılıqlı etimad ruhunda həll edilməsi mümkün oldu. İnanıram ki, Azərbaycan və Ermənistan eyni şəkildə sülh münasibətlərinə nail olacaqlar və iki xalq arasında harmoniya, dostluq və firavanlıq naminə uzunmüddətli əməkdaşlığın möhkəm təməlini qoyacaqlar.

2026-cı il üzrə “Zayed İnsan Qardaşlığı Mükafatı”nın Münsiflər Komitəsinin hörmətli üzvləri, belə nəcib məqsəd naminə çalışaraq vacib missiyanın davamlı irəlilədilməsinə görə sizə dərin minnətdarlığımı bildirirəm. Sizin əhəmiyyətli fəaliyyətinizin sülhün gücləndirilməsi və qarşılıqlı anlaşmaya töhfə verməsi üçün davamlı olmasını diləyirəm. Arzu edirəm ki, fəaliyyətiniz dünya ictimaiyyətini həmrəylik, qarşılıqlı dəstək və insan ləyaqətinə hörmət kimi dəyərlər ətrafında səfərbər etsin.

*

**Prezident Cosef Aun:**

–Hörmətli qonaqlar.

Həm öz adımdan, həm də Livan xalqı adından Fələstin Rifah Təşkilatını “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Məsuliyyətli inkişaf və humanitar fəaliyyət nümunəsi olan bu qurum fərqli proqramları vasitəsilə həm Fələstində, həm də Livandakı qaçqın düşərgələrində minlərlə fələstinlinin həyat şəraitinin yaxşılaşdırılmasına inkişaf və yardım sahələrində göstərdiyi böyük səylərlə misilsiz töhfələr vermişdir. Fələstin xalqının üzləşdiyi davamlı böhranlar və çətinliklər fonunda onların öz torpaqlarına və milli kimliklərinə bağlı qalmaq əzmini və mətanətini alqışlayıram. Bir daha vurğulayıram ki, Fələstin davasını dəstəkləyən və bu yolda böyük fədakarlıqlar edən Livan Yaxın Şərq probleminin 2002-ci il Beyrut Sammitində qəbul edilmiş “Ərəb Sülh Təşəbbüsü” çərçivəsində ədalətli, hərtərəfli və qalıcı həllindən başqa alternativ görmür.

Xanımlar və cənablar, eyni zamanda, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanı və Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevi Ermənistan və Azərbaycan arasındakı sülh təşəbbüsünün eyni mükafata layiq görülməsi münasibətilə təbrik etməkdən şərəf duyuram. Bu mükafat iki ölkə arasında uzunsürən münaqişəyə son qoyan və region xalqlarının daha təhlükəsiz gələcəyi üçün yeni sabitlik səhifəsi açan tarixi sülh sazişinin yüksək qiymətləndirilməsidir. Bu nailiyyət bir daha sübut edir ki, siyasi cəsarət səmimi iradə ilə birləşdikdə münaqişəni fürsətə, sülhü isə daimi seçimə çevirmək mümkündür.

Hörmətli qonaqlar, müqəddəs Papa XIV Leonun və Əl-Əzhər Şərifin şeyxi Əhməd Əl-Tayyibin xeyir-duaları ilə fəaliyyət göstərən müstəqil Zayed Beynəlxalq Mükafatının rəhbərliyi tərəfindən qaliblərin seçilməsi beynəlxalq səviyyədə yüksək etirafın göstəricisidir. Bu, sülhə və insan ləyaqətinə xidmət edən işlərin dərin bəşəri dəyərini təsdiqləyir.

Sonda bütün qalibləri bir daha təbrik edir, insan qardaşlığının dünyamızı daha ədalətli və dinc gələcəyə aparan bir körpü olaraq qalmasını arzulayıram.

*

**Birinci xanım Əminə Ərdoğan:**

–Bu məsuliyyəti cəsarətlə öz üzərinə götürənləri mükafatlandırmaqla, bəşəriyyətin vicdanının hələ də vahid olduğunu və firavan gələcəyin yalnız qardaşlıq ruhu ilə qurula biləcəyini bütün dünyaya elan edirik.

*

**Kral II Abdullah:**

–Mənim dostlarım.

İcazə verin, bəşəriyyətimizin ümumi dəyərlərinin bərqərar olunmasına sadiqliyi təcəssüm etdirən 2026-cı il üzrə “Zayed İnsan Qardaşlığı Mükafatı”nın təqdimatı kimi mühüm tədbirin təltif olunan hörmətli şəxslərinə və iştirakçılarına İordaniya xalqının səmimi salamlarını çatdırım.

Ermənistanla Azərbaycan arasında sülh sazişinin, həmçinin həmin razılaşmanı mümkün etmiş insanların və onların göstərdiyi çox böyük səylərin tanınması və qeyd edilməsində hamınıza qoşulmaqdan böyük şərəf hissi duyuram.

Zati-aliləri, əziz dostlarım, bu cür tarixi nailiyyət münasibətilə Sizi təbrik edirəm. Cəsarətli sülh seçimini etdiyinizə görə təbrik edirəm. Bu nailiyyət Sizin inanılmaz cəsarət və rəhbərlik keyfiyyətlərinizin nəticəsidir.

Uğurunuz onilliklər boyu davam etmiş münaqişəyə baxmayaraq, sülhün üstün tutulması mümkünlüyünün nümunəsidir.

O, bütün dünyadakı, xüsusən də bölgədəki insanlara ümid verir ki, onlar gələcəkdə sülh, təhlükəsizlik və sabitlik şəraitində yaşasınlar, övladlarını böyütsünlər, işləsinlər və inkişaf etsinlər.

Zati-aliləri, bilirəm ki, biz qarşılıqlı anlaşmanı təşviq etmək və uzunmüddətli sülhə nail olmaq üçün davamlı dialoqun vacibliyinə eyni şəkildə inanırıq. Biz hamımız insan qardaşlığının, yan-yana yaşamağın gücünə və bəşəriyyətin bir hissəsi kimi bütün millətlər, mədəniyyətlər və dinlərdən olan xalqlara hörmətlə yanaşmanın qüdrətinə qəti şəkildə inanırıq.

Həmin prinsipləri fəaliyyətdə nümayiş etdirdiyinizə görə Sizə minnətdaram. Sülhün həyatımız boyu hamı üçün əlçatan olması ümidini dünyaya verdiyinizə görə Sizə təşəkkür edirəm. Sağ olun.

*

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.

*(ardı 3-cü səhifədə)*

# "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimi

*(əvvəli 2-ci səhifədə)*

## Prezident İlham Əliyevin çıxışı

–Biz əvvəlcə kimin çıxış edəcəyi barədə razılığa gəlməliyik.

Əlahəzrət, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Şeyx Məhəmməd bin Zayed Al Nəhyan, münsiflər heyətinin üzvləri, xanımlar və cənablar.

İlk növbədə, bu mükafata görə münsiflər heyətinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Birləşmiş Ərəb Əmirliklərinin banisi, mərhum Şeyx Zayedin adını daşıyan bu mükafata layiq görülmək mənim üçün böyük şərəfdir. O, elə bir böyük lider idi ki, onun uzaqgörənliyi və fəaliyyəti BƏƏ-ni dünyanın ən firavan və ən uğurlu ölkələrindən birinə çevirmişdir.

Əziz qardaşım Şeyx Məhəmməd atasının inkişaf, tərəqqi və davamlı müasirləşmə siyasətini davam etdirir. Bu gün Birləşmiş Ərəb Əmirlikləri tarixi köklərinə möhkəm bağlı qalmaqla yanaşı, gələcəyə də inamla baxan, sülh və ahəngdar şəraitdə yaşayan bir cəmiyyətin necə qurulması baxımından həqiqətən də bir çox ölkələr üçün nümunədir.

Dinlərarası dialoqun inkişafına verdikləri töhfəyə, həmçinin sivilizasiyaların bir-birinə daha da yaxınlaşması istiqamətində göstərdikləri səylərə görə Əl-Əzhərin böyük imamı, doktor Əhməd Əl-Tayyibə və Roma Papası, Zati-müqəddəsləri Leoya dərin minnətdarlığımı bildirmək istəyirəm. Mərasimə ünvanladıqları xoş müraciətlərində bir daha Azərbaycan və Ermənistan arasında sülhün əhəmiyyətini vurğulayan bütün həmkarlarıma da minnətdarlığımı bildirirəm. Bu sülh təkcə iki ölkə üçün deyil, daha geniş region üçün də böyük əhəmiyyət kəsb edir. Biz 30 ildən artıq müddətdə müharibə şəraitində olmuşuq. İndi isə artıq altı aydır ki, sülh şəraitində yaşayırıq.



Dəfələrlə qeyd etdiyim kimi, biz sülh şəraitində yaşamağı öyrənirik. Sizə deyə bilərəm ki, bu, xüsusi bir hissdir. Biz müstəqillik əldə edəndən bəri heç vaxt sülh şəraitində yaşamamışıq və indi bunu sürətlə öyrənirik. ABŞ Prezidenti Donald Trampın Vaşinqtonda ev sahibliyi etdiyi tarixi Zirvə Görüşündən sonrakı altı ay tərəfdaşlıq, əməkdaşlıq və uzunmüddətli, dayanıqlı sülhə doğru irəliləyiş ayları olmuşdur.

Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olunmasına verdiyi töhfəyə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa da minnətdarlığımı bildirmək istəyirəm. O, 2025-ci il avqustun 8-də üçtərəfli Zirvə Görüşünə ev sahibliyi etmişdir. Həmin Zirvə Görüşünün nəticəsi olaraq Ermənistan və Azərbaycan arasında sülh sazişi paraflanmış, həmçinin Birgə Bəyannamə imzalanmışdır. Prezident Tramp şahid qismində həmin sənədi də imzalamış və bununla da üç onillikdən artıq davam edən qanlı və ölümcül münaqişəyə son qoyulmuşdur.

Qeyd etdiyim kimi, bu altı ay münasibətlərimizin inkişafı baxımından çox mühüm olmuşdur. Biz təkcə Azərbaycan ərazisindən Ermənistana yük daşımalarına qoyulmuş məhdudiyyətləri aradan qaldırmadıq, eyni zamanda, Ermənistana neft məhsullarının ixracına da başladıq. Yəni bu altı ay ərzində biz əməkdaşlığa başlamışıq. Hazırda ticarət əlaqələrimizi genişləndiririk. Bu səhər ermənistanlı həmkarımla görüşdüm və gələcək addımlarımızı müzakirə etdik.

Bugünkü mükafatlandırma mərasimi və hörmətli münsiflər heyəti ilə bütün dostlarımız tərəfindən səylərimizin qiymətləndirilməsi olduqca ruhlandırıcıdır. Mən hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür. Hər iki tərəfdən güclü siyasi iradə mövcud olduğu və həmin proses dost ölkələr və beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyi halda, sülh mümkündür.

Əbu-Dabidə keçirilən bu mükafatlandırma mərasimi ilə bağlı qeyd edəcəyim son məqam odur ki, bu mərasim rəmzi məna daşıyır. Çünki Ermənistan ilə Azərbaycan arasında sonuncu danışıqlar raundu ötən ilin iyul ayında, tarixi Vaşinqton Sammitindən cəmi bir ay əvvəl məhz burada baş tutmuşdur. Əziz qardaşımız Şeyx Məhəmmədin dəstəyi ilə sülhün bərqərar olunması üçün son razılığa burada gəldik və həmin razılıq daha sonra Vaşinqtonda rəsmiləşdirilmişdir.

Bugünkü simvolizm havada hiss olunur. Bizi bu nüfuzlu mükafata layiq görənlərə, həmçinin sülhün əldə olunmasında əməyi keçən bütün şəxslərə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm.

Çox sağ olun.

*

Sonra çıxış edən Ermənistanın Baş naziri **Nikol Paşinyan** vaxtilə belə bir nüfuzlu mükafatın Azərbaycan və Ermənistan liderlərinə veriləcəyini təsəvvür belə etməyin mümkün olmadığını xüsusi vurğuladı. O qeyd etdi ki, bu mükafatın verilməsi Ermənistanla Azərbaycan arasında münaqişənin artıq geridə qaldığını bir daha təsdiqləyir.

Ermənistanın Baş naziri bu mükafatı ölkələrimizə beynəlxalq ictimaiyyətin dəstək aktı kimi qiymətləndirdiyini bildirdi. O, çox nüfuzlu şəxslərdən ibarət münsiflər heyətinin bu qərarının regionda sülhün güclənməsinə daha da təkan verəcəyini qeyd etdi. Həmçinin xalqlarımız arasında əmin-amanlığın təmin olunması və etimada əsaslanması üçün səylərin davam etdiriləcəyini vurğuladı.

Baş nazir Nikol Paşinyan bir daha ABŞ Prezidenti Donald Trampa sülh sazişinin əldə olunmasına töhfə verdiyinə və bu istiqamətdə səylərini əsirgəmədiyinə görə xüsusi təşəkkürünü bildirdi. O, həmçinin mükafata görə BƏƏ-nin Prezidentinə də xüsusi minnətdarlığını ifadə etdi və bu mühüm tədbirin iştirakçılarına təşəkkürünü çatdırdı.

*

Daha sonra "Zayed İnsan Qardaşlığı Mükafatı"nın digər laureatları - əfqanıstanlı qadın hüquqları fəalı və tədqiqatçısı Zarqa Yaftalı və "Taavon" Fələstin təşkilatı adından Nabil Qaddumi çıxış etdilər.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycan Prezidenti İlham Əliyevə və digər laureatlara "Zayed İnsan Qardaşlığı Mükafatı"nı təqdim etdi.

Sonda birgə foto çəkdirildi.

*

Qeyd edək ki, Roma Papası XIV Leo və Əl-Əzhər Şərifin böyük imamı, Müsəlman Ağsaqqalları Şurasının sədri, professor Əhməd Əl-Tayyib "Zayed İnsan Qardaşlığı Mükafatı"nın laureatlarına təbrik məktubları ünvanlayıblar.

**Roma Papası XIV Leonun** məktubunda deyilir:

"Əziz qardaş və bacılar.

Böyük sevinclə və ümid dolu bir qəlblə Papa Fransisk və Böyük İmam Əhməd Əl-Tayyib tərəfindən İnsan Qardaşlığı haqqında Sənədin imzalanmasının 7-ci ildönümü və İnsan Qardaşlığı üzrə Dünya Günü münasibətilə Sizə ilk dəfə müraciət edirəm. Bu gün siz insanlığımız üçün ən dəyərli və ümumbəşəri olanı - qardaşlığımızı, Uca Tanrının surətində yaradılmış hər bir insanı birləşdirən o sarsılmaz bağı qeyd edirsiniz.

Bu gün qardaşlığa olan ehtiyac uzaq ideal deyil, təxirəsalınmaz bir zərurətdir. Biz hazırda saysız-hesabsız qardaş və bacılarımızın zorakılığın, müharibənin dəhşətlərindən əziyyət çəkdiyini görməzdən gələ bilmərik. Xatırlamalıyıq ki, "hər bir müharibənin ilk qurbanı insan ailəsinin qardaşlığa olan içdən gələn çağırışıdır" (Papa Fransisk, Fratelli Tutti ensiklik məktubu, 3 oktyabr 2020-ci il, §26). Birlikdə sülh qurmaq arzusu tez-tez "köhnəlmiş utopiya" kimi rədd edildiyi bir vaxtda (eyni mənbə, s.30) biz qətiyyətlə bəyan etməliyik ki, insan qardaşlığı bütün münaqişələrdən, fərqliliklərdən və gərginliklərdən güclü, yaşanabilən bir reallıqdır. Bu, hörmət, paylaşma və şəfqət prinsiplərinə sadiq qalaraq hər gün reallaşdırılması vacib olan potensialdır.

Bu mənada, mən Zayed Mükafatı Komitəsinin üzvlərinə ünvanladığım son müraciətimdə də vurğuladığım kimi, "sözlər kifayət deyil" (11 dekabr 2025). Ən dərin inanclarımız daimi olaraq real və əməli səylərlə inkişaf etdirilməlidir. Həqiqətən də "fikirlər və nəzəriyyələr səviyyəsində qalmaq, onları müntəzəm və praktik xeyriyyə fəaliyyətləri ilə ifadə etməyə nail olmamaq ən dəyərli ümidlərimiz və arzularımızın belə zəifləməsinə və solmasına səbəb olacaq" (Apostol Sərəncamı Dilexi Te, 4 oktyabr 2025, 119). Qardaş və bacılar kimi biz hamımız periferiyada qalmamalı, daha böyük mənəvi aidiyyət duyğusu ilə bir-birimizə yaxınlaşmalıyıq (müq. Fratelli Tutti, 95).

Biz bu gün "Zayed İnsan Qardaşlığı Mükafatı" vasitəsilə həmin dəyərləri "insan mehribanlığı və xeyriyyəçiliyin səmimi nümunələrinə" çevirənlərə ehtiramımızı izhar edirik ("Zayed İnsan Qardaşlığı Mükafatı" Komitəsinin üzvlərinə müraciət. 2026, 11 dekabr 2025). Bizim mükafatçılarımız - Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Zati-aliləri cənab Nikol Paşinyan və xanım Zarqa Yaftali çox vaxt körpülər inşa etmək əvəzinə sədd çəkənlər dünyasında ümid saçanlardır. Onlar etinasızlığın asan yolunu deyil, həmrəyliyin çətin yolunu seçməklə hətta ən dərin köklü bölünmələrin belə konkret fəaliyyət nəticəsində aradan qaldırıla biləcəyini nümayiş etdirdilər. Onların fəaliyyəti sübut edir ki, qardaşlığın işığı qardaş qırğınının qaranlığı üzərində zəfər çala bilər.

Nəhayət, mən bu təşəbbüsə göstərdiyi davamlı dəstəyə görə Birləşmiş Ərəb Əmirlikləri Prezidenti Zati-aliləri Şeyx Məhəmməd bin Zayed Al Nəhyana minnətdarlığımı bildirir, həmçinin Zayed Komitəsinə onun baxışı və əxlaqi mövqeyinə görə təşəkkür edirəm. Gəlin, birlikdə işləməyə davam edək ki, qardaşlıq sevgisinin dinamizmi hər kəs üçün vahid yol olsun və "digərləri" sayılanlar artıq yad və ya təhlükə kimi deyil, bir qardaş və ya bacı kimi qəbul edilsin.

Uca Tanrının xeyir-duası hər birinizin və bütün bəşəriyyətin üzərində olsun".

*

Əl-Əzhər Şərifin böyük imamı **Əhməd Əl-Tayyib** isə məktubunda yazır:

"Mərhəmətli və rəhmli Allahın adı ilə.

Həmd olsun Allaha. Rəbbimiz Allahın rəsulu Məhəmməd və onun ailəsinə, məsləkdaşlarına və onun bütün davamçılarına sülh və xeyir-dua olsun.

Əziz qardaşlar və bacılar.

Allahın salamı, rəhmi və bərəkəti üzərinizə olsun!

Dəyərlərin məsuliyyətə, ümidin isə reallığa qovuşduğu bu münasibətlə Beynəlxalq İnsan Qardaşlığı Gününün bu gün qeyd edilməsində Sizlərə qoşulmaqdan böyük sevinc hissi duyuram. Bu gün Birləşmiş Millətlər Təşkilatı tərəfindən insan qardaşlığının illik əsasla qeyd edilməsi günü kimi seçilib və 2026-cı il üzrə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın laureatlarının təltifi üçün fürsətdir. Bu gün həmin mükafat rəmzi tanınma məfhumunun hüdudlarını aşaraq, mənəvi istinadgaha çevrilərək, bütün xəliqəyə xatırladır ki, bəşəriyyət nə qədər də təlatümlərlə ağırlaşsa və ya mürəkkəb anlar onun gözü qarşısında qalxsa belə qəlblərin səmimi, məramların həqiqi, iradənin birləşdiyi təqdirdə özünün mənəvi imanı ilə rabitədə qalmağa qadirdir.

Yeddi il öncə bəşəriyyət Birləşmiş Ərəb Əmirliklərində həlledici və tarixi ana şahid oldu. O anlarda mən rəhmətlik qardaşım, Zati-müqəddəsləri Papa Fransiskə bu zəmanədə dünyanın durumu ilə bağlı dərin narahatlığımı bildirərək, yeni nəsillər üçün daha yaxşı gələcək naminə səmimi ümidlərimi bölüşdüm. Elə bir an yaranmışdır ki, zəmanə sanki süst görünən halda, Katolik Kilsə Rəhbəri və Əl-Əzhərin böyük imamı Əbu-Dabidə "İnsan Qardaşlığı Sənədi"nin imzalanmasına şahidlik ediblər. Bu sənəd hər yerdə insan şüuruna bir çağırış və aydın ismarış idi ki, dinlər özünün həqiqi mahiyyətində heç zaman münaqişə və ya qan tökülmə səbəbi olmayıb. Əksinə, dinlər şəfqət cövhəri, qovuşma körpüsü, insan ləyaqətinin qoruyucusu olub və bundan sonra da olacaqdır.

İnsan qardaşlığı nə mərasim münasibətilə söylənilən şüar, nə də ki, məclisvari toplantılarda oxunan moizədir. Əksinə, o, mənəvi öhdəliyin əbədi mübarizidir, sivilizasiya qarşısında məsuliyyətdir. Şüurlu seçim məhz dağıntılar əvəzinə tikib-yaratmağın məntiqinə, cəhalət və yer üzündən silinmə əvəzinə həyat və yaşam mədəniyyətinə əsaslanır. Münaqişələrin artdığı, yaraların dərinləşdiyi, ədavət və təcrid etmək səslərinin daha da ucaldığı bir dünyada ləyaqətlə, ehtiramla və şərəflə sınaqlardan keçmək üçün insan qardaşlığı vücudi zərurətə, insan həyatının təməl şərtinə çevrilir.

Bu gün sülhə can atan bütün tərəflərlə bir yerdə mən bu mükafata layiq görülmüş Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında tarixi sülh sazişini yüksək dəyərləndirir, onu məmnunluqla qəbul edirəm. Bu münasibətlə mən Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevi və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanı təbrik edir, onlara deyirəm: Siz isbat etdiniz ki, insan dialoqu və səmimi məramlarla münaqişənin uzun səhifələrini bağlamaq, yanaşı yaşamaq üçün yeni üfüqləri açmaq, dünyanın bu cür nümunələrə böyük ehtiyacı olduğu zaman sülh quruculuğu üçün ilhamlandırıcı nümunə göstərmək mümkündür.

Mən, həmçinin qadınların səlahiyyətləndirilməsinin hər hansı qrupun tələbi deyil, cəmiyyətlərin inkişafı və gələcəyinin qorunması üçün həqiqi təməl sütun kimi öz qətiyyəti hesabına qadınların təhsili naminə Əfqanıstanda çalışmış hörmətli bacımız Zərgə Yəftəliyə təbriklərimi çatdırıram.

Eyni zamanda, mən Fələstində hər il bir milyondan artıq insanın həyatına yardım əlini uzadan "Taavon" Fələstin təşkilatına göstərdiyi məxsusi humanitar və inkişaf səylərinə görə təbriklərimi, sonsuz hörmət və ehtiramımı izhar edirəm. Həmin təşkilat məsuliyyətli humanitar fəaliyyətdə özünü doğrultmuş nümunədir və elə bir qurumdur ki, nəinki ağrı-acıları dayandırmağa çalışır, o cümlədən ləyaqəti qoruyur, müqaviməti saxlayır, insanlara öz torpağında möhkəm dayanmasına imdad verir və nəhayət, onların yaşadığı ağır şəraitə, mürəkkəb çətinliklərə baxmayaraq, həyata və ümidə qəti şəkildə inamını qoruyub saxlayır. Bu münasibətlə xeyirxahlıq və dinclik sevdasını yaşayan hər kəsə çağırış edirəm ki, əliyalın Fələstin xalqına, xüsusən də, hələ də üzləşdikləri ağır şəraitdə olan Qəzza insanlarına dəstək verin.

Bu gün burada - Əbu-Dabinin Təsisçilər Memorialında eyni mərasim çərçivəsində həmin üç nümunənin bir araya gəlməsi bütün dünyaya mənalı ismarışdır: insan qardaşlığı nə coğrafi, nə də ki, tarixi hüdud tanıyır, dardüşüncəli hesablamalara sığmır və irqindən, dinindən, yaxud dərisinin rəngindən asılı olmayaraq, tək və vahid insan məxluquna köklənir.






Böyük insani mahiyyət daşıyan bu münasibətlə mən sülhün yalnız əxlaqi dəyərlərlə qorunub saxlanılmasını, onun yalnız müdriklik, dözümlülük və dinc yanaşı yaşamağa əsaslanmasını bir daha vurğulayaraq, insan qardaşlığı prinsiplərinə qəlbən inamı olan, səmimi himayəsi və qəti dəstəyi ilə seçilən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana dərin təşəkkürümü bildirməkdən məmnunam. Mən, həmçinin dünya xalqlarına ümid ismarışı gətirən, həmin ali insan dəyərlərini təcəssüm etdirən şəxsləri seçməkdə vaxtını və əməyini sərf etmiş "Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinə səmimi minnətdarlığımı bildirirəm. Mən bu mükafatı insan şüuruna aid qlobal platformaya çevirmiş, səmimi səylərini göstərmiş və yorulmadan çalışmış, mükafat üzərində işləmiş heyəti və xüsusən də Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı ayrıca qeyd etmək istəyirəm.

Yekunda bu gün verdiyimiz ismarış təntənəli mərasimdən yararlanmaq deyil, bütöv bəşəriyyətə səmimi çağırışdır: hamının aydın gördüyü dünyadakı durum haqqında yenidən düşünmək, insanların özünəməxsusluğunu qoruyaraq, bir araya gələrək, ümumi yolda insan qardaşlığı qurmaq, dünyada gələcəyi zorla deyil, anlaşma ilə yaratmaq, sabahı ədavətlə deyil, şəfqət və mərhəmətlə qarşılamaq, yanında olan insan məxluqunu mövcudluqda rəqib deyil, düzgünlük naminə ömür yoldaşı kimi görmək zəruridir.

Diqqətinizə görə təşəkkür edirəm, Allah-təaladan sizlərə sülh, mərhəmət və xeyir-dua diləyirəm".

# Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın Baş naziri ilə görüşüb





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşüb.**

Tərəflər ABŞ Prezidenti Donald Trampın ev sahibliyi və şahidliyi ilə baş tutan Vaşinqton Sülh Sammitinin nəticələrinin həyata keçirilməsi istiqamətində əldə olunan irəliləyişi alqışlayıblar. Onlar Ermənistan və Azərbaycan arasında normallaşma prosesinin ikitərəfli əsasda irəlilədilməsində müsbət dinamikanın qorunub saxlanmasının vacibliyini vurğulayıblar.

Tərəflər hər iki cəmiyyətin sülhün faydalarına real həyatda şahid olduqlarını qeyd ediblər. Onlar ikitərəfli ticarətin başlamasından və Azərbaycandan Ermənistana neft məhsullarının ixracının davam etməsindən, həmçinin üçüncü ölkələrdən Ermənistana taxıl və digər malların Azərbaycan ərazisindən tranzitinin həyata keçirilməsindən məmnun olduqlarını bildiriblər. Tərəflər ikitərəfli ticarət və iqtisadi əməkdaşlığı genişləndirmək üçün imkanları araşdırmağı davam etmək barədə razılığa gəliblər.

Onlar, həmçinin vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərini alqışlayıb və etimad quruculuğu tədbirlərinin genişləndirilməsinin zəruriliyi barədə razılığa gəliblər.

Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan TRIPP və digər bağlantı layihələrinin həyata keçirilməsini müzakirə ediblər.

Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri iki ölkə arasında sülhün və sabitliyin daha da möhkəmləndirilməsi istiqamətində səyləri davam etdirməyə hazır olduqlarını bir daha təsdiqləyib, ikitərəfli normallaşma prosesinə dəstək məqsədilə təmasları davam etdirmək barədə razılığa gəliblər.

***AZƏRTAC***

## Hikmət Hacıyev "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimindən paylaşım edib




**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə fevralın 4-də "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimindən paylaşım edib. Bu barədə onun "X" hesabındakı paylaşımında qeyd olunub:**

"Azərbaycan və Ermənistan arasında tarix yazılır! Sülh qazanır!!!"

Qeyd edək ki, Əbu-Dabidə fevralın 4-də "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimi keçirilir, Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edir.

## Dövlət İmtahan Mərkəzində mükafatlandırma



**Fevralın 4-də Dövlət İmtahan Mərkəzinin imtahanlarında fəaliyyəti yüksək qiymətləndirilən imtahan rəhbərləri və zal nəzarətçilərinin mükafatlandırılmasına həsr olunan tədbir keçirilib.**

Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə DİM-in fəaliyyətində ictimai iştirakçılıq prinsiplərinin tətbiqinin vacibliyini vurğulayıb və müxtəlif qurumların, elm-təhsil müəssisələrinin nümayəndələrinin bu prosesdə fəal iştirakının əhəmiyyəti barədə danışıb. O, imtahanların təşkili və idarə olunmasında imtahan rəhbərləri və zal nəzarətçilərinin rolundan, gördükləri işin məsuliyyətindən, imtahanlarda daha bacarıqlı şəxslərin seçilməsində onların xidmətlərindən bəhs edib.

DİM-in təşkilati-metodik təminat, təlimlər və regional bölmələrlə iş şöbəsinin müdiri Adıgözəl Həbibov imtahanların idarə edilməsində keyfiyyət göstəricilərinin artırılması məqsədilə hər il imtahanlara cəlb edilmiş məsul şəxslərin, eləcə də zal nəzarətçisi və imtahan rəhbərlərinin fəaliyyətinin yekun qiymətləndirilməsinin aparılması ilə bağlı məlumat verib.

Şöbə müdiri diqqətə çatdırıb ki, 2025-ci ildə keçirilən imtahanlara cəlb edilməsi nəzərdə tutulan nəzarətçilər bazası 15 min 476 nəfərdən ibarət olub. Onlardan 4600 nəfər zal nəzarətçisi sertifikatı almış şəxslərdir (ümumi bazanın 29,7 faizi). Ötən il respublika üzrə imtahanlara 14 min 120 nəzarətçi 56 min 110 dəfə cəlb edilib. Hər bir nəzarətçi ortalama olaraq 4 dəfə imtahana cəlb edilib. Ötən il imtahanlarda iştirak etmiş nəzarətçilərin bütün fəaliyyəti nəzərə alınmaqla, 89,2 faizin fəaliyyəti əla, 5,8 faizin yaxşı, 1,9 faizin kafi, 0,5 faizin isə qeyri-kafi qiymətləndirilib.

Qeyd edək ki, araşdırmanın nəticələrinə əsasən, nümunəvi fəaliyyətinə görə 2399 nəzarətçiyə təşəkkür elan edilib, o cümlədən 30 zal nəzarətçisi, 8 imtahan rəhbəri fəxri fərmanla təltif edilib. Görüşün sonunda müəllimlərə hədiyyə olaraq DİM-in nəşrlərindən ibarət kitablar və fəxri fərmanlar təqdim olunub.

***XQ***

## Azərbaycan–İrlandiya parlament əməkdaşlığı

**Fevralın 4-də Milli Məclisin İrlandiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu üzvlərinin İrlandiya parlamentinin Azərbaycanla dostluq qrupunun üzvləri ilə onlayn görüşü olub.**




İrlandiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Erkin Qədirli qanunverici orqanlar arasında münasibətlərin genişləndirilməsində parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rolundan bəhs edib.

İrlandiya–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Toni Makkormak İrlandiya ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişlənməsinə təkan verəcəyinə inamını bildirib.

Görüşdə digər çıxış edənlər də parlamentlərarası əlaqələrin perspektivləri, müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsi və qarşılıqlı maraq doğuran məsələlər barədə fikirlərini açıqlayıblar.

***XQ***

## Qərbi Azərbaycan İcmasının yeni hədəfləri

**Qərbi Azərbaycan İcması İdarə Heyətinin növbəti iclası keçirilib.**



İclasda icmanın 2025-ci il üzrə fəaliyyəti qiymətləndirilib, struktur və kadr məsələlərinə baxılıb, həmçinin 2026-cı il üçün Tədbirlər Planı müzakirə edilərək təsdiqlənib.

İcmanın İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli 2025-ci il dekabrın 20-də keçirilmiş Ümumi Yığıncağın yekunları barədə ətraflı məlumat verib. O bildirib ki, qəbul edilən qərarlar icmanın fəaliyyətinin institusional əsaslarının möhkəmləndirilməsinə və qarşıdakı mərhələdə işlərin daha sistemli qurulmasına xidmət edir.

İclasda İdarə Heyətinin və şuraların tərkibində aparılan dəyişikliklər müzakirə olunub. Qeyd edilib ki, bir şəxsin, eyni zamanda, iki idarəedici qurumda təmsil olunmaması prinsipi əsas götürülərək müəyyən yenilənmələr aparılıb və nəticədə İdarə Heyətinin tərkibində ümumilikdə 8 dəyişiklik edilib. İdarə Heyətinin yeni üzvləri iclas iştirakçılarına təqdim olunub.

Daha sonra Qərbi Azərbaycan İcması Şuralarının tərkibi təsdiqlənib. Bildirilib ki, Ziyalılar Şurasında 144, Ağsaqqallar Şurasında 97, Qadınlar Şurasında 126, Gənclər Şurasında isə 141 nəfər üzv təmsil olunur. Şuraların formalaşdırılmasında regional balans və təmsilçilik əsas meyar kimi götürülüb.

Gündəliyin növbəti məsələsi kimi Qərbi Azərbaycan İcmasının 2026-cı il üçün Tədbirlər Planı müzakirəyə çıxarılıb. Plan çərçivəsində rayon icmaları ilə işin gücləndirilməsi, maarifləndirmə tədbirlərinin genişləndirilməsi, elmi-tədqiqat və nəşr fəaliyyətinin artırılması, arxiv materiallarının toplanması və beynəlxalq müstəvidə Qərbi Azərbaycan həqiqətlərinin təbliği əsas prioritetlər kimi müəyyənləşdirilib.

Sonda gündəlikdə duran bütün məsələlər üzrə qərarlar qəbul olunub.

***XQ***

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub.**



Məhkəmənin mətbuat xidmətindən verilən məlumata görə, iclasda Konstitusiyanın 130-cu maddəsinin IV hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Cinayət-Prosessual Məcəlləsinin 74.3-cü və 522.6-cı maddələrinin şərh edilməsinə dair Baş Prokurorluğun sorğusuna baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun fevralın 24-nə təyin olunmuş iclasında baxılacaq.

***XQ***

# “Zayed İnsan Qardaşlığı Mükafatı”nın layiqli sahibi

## *Azərbaycan Prezidenti İlham Əliyevin humanist missiyasının beynəlxalq təntənəsi*

**Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində şahidi olduğumuz mərasim real siyasətin və diplomatik iradənin təntənəsidir. Cari ilin 4 fevral tarixi qlobal diplomatiya salnaməsinə qızıl hərflərlə yazılır. Çünki məhz bu tarixdə “Zayed İnsan Qardaşlığı Mükafatı”nın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim edilməsi və həmin ali mükafatın məhz Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan tərəfindən şəxsən verilməsi hadisənin siyasi çəkisini qat-qat artırır. İki dövlət liderinin səmimi görüşü, əl sıxması və ali mükafatın təqdimatı zamanı nümayiş etdirilən qarşılıqlı ehtiram regionda formalaşan yeni strateji reallıqların vizual sübutudur.**



Azərbaycan Prezidenti İlham Əliyevin bu ali mükafata layiq görülməsi təsadüfi hadisə deyil, əksinə, illərdir aparılan səbirli, strateji və qətiyyətli siyasətin məntiqi yekunudur. Dünyanın müxtəlif qaynar nöqtələrində davam edən qanlı toqquşmalar fonunda Azərbaycan ilə Ermənistan arasında “Sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş”in paraflanması sivilizasiyalararası dialoqun mümkünlüyünü nümayiş etdirən yeganə parlaq nümunədir.

Müasir beynəlxalq münasibətlər sistemində sülh anlayışı çox vaxt nisbi xarakter daşıyır, lakin Cənubi Qafqaz nümunəsində əldə olunan nəticə mütləq kateqoriyadır. Onilliklər ərzində Qərb diplomatları, ATƏT-in Minsk Qrupunun həmsədrləri və çoxsaylı beynəlxalq vasitəçilər münaqişənin həllini dondurulmuş vəziyyətdə saxlamağa çalışırdılar. Lakin rəsmi Bakı nümayiş etdirdi ki, ədalətli sülh yalnız beynəlxalq hüququn norma və prinsiplərinin tam bərpası, ərazi bütövlüyünün təmini, suverenliyin toxunulmazlığı şəraitində mümkündür. 2026-cı ilin fevralında Əbu-Dabidə keçirilən təntənəli mərasimdə Azərbaycan liderinə təqdim edilən “Zayed İnsan Qardaşlığı Mükafatı” məhz həmin paradiqmanın qələbəsidir. Münsiflər heyətinin qərarı göstərir ki, dünya ictimaiyyəti artıq real nəticələrə qiymət verir. Prezident İlham Əliyevin diplomatik məharəti sayəsində region xarici müdaxilələrdən təmizlənərək birbaşa dialoq müstəvisinə keçdi.

Mükafatın fəlsəfəsi ilə Azərbaycanın sülh gündəliyi arasında üzvi bağlılıq mövcuddur. Şeyx Zayed bin Sultan Əl Nəhyanın irsinə əsaslanan mükafat humanizm, dözümlülük və həmrəylik dəyərlərini təşviq edir. Qafqazda onilliklər boyu kök salmış düşmənçilik toxumlarını təmizləmək, revanşizm meyllərini neytrallaşdırmaq və gələcək nəsillərə təmiz səhifə ötürmək missiyası bu dəyərlərlə üst-üstə düşür. Azərbaycan Prezidenti qalib tərəf olmasına rəğmən, məğlub tərəfə sülh əlini uzadaraq bölgənin inkişafı naminə kommunikasiyaların açılmasını, iqtisadi reinteqrasiyanı təklif etdi. Bu addım klassik “qalib-məğlub” dixotomiyasından imtina edərək “hamı qazanır” prinsipinə keçidi təmin etdi. Münsiflər heyətinin seçimi də humanist yanaşmaya verilən qiymətdir.

Məsələnin digər tərəfi mükafatın verilmə meyarlarıdır. “Zayed İnsan Qardaşlığı Mükafatı” 2019-cu ildə Roma Papası Fransisk və Əl-Əzhərin Baş İmamı Əhməd Əl-Tayyib tərəfindən imzalanmış “İnsan Qardaşlığı Sənədi”nə istinad edir. Azərbaycanın çoxmillətli və çoxkonfessiyalı quruluşu, tolerantlıq ənənələri, multikulturalizm siyasəti sənədin ruhuna tam uyğundur. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təkcə hərbi qələbə qazanmadı, həm də dini və etnik dözümlülük mərkəzi kimi qlobal mövqeyini möhkəmləndirdi. Münaqişənin dini zəmində təqdim edilməsinə cəhd edən dairələrin planları iflasa uğradıldı.

Müstəqil beynəlxalq münsiflər heyətinin tərkibi və onların seçimi də xüsusi təqdirə layiqdir. Onlar siyasi konyunkturadan kənar, obyektiv reallığa əsaslanaraq qərar veriblər. Seçim prosesində heç şübhə yoxdur ki, Azərbaycanın Cənubi Qafqazda yaratdığı təhlükəsizlik arxitekturası əsas rol oynayıb. Sülh müqaviləsinin paraflanması uzun və çətin danışıqlar marafonunun finiş xəttidir. Həmin marafonda Azərbaycanın nümayiş etdirdiyi prinsipiallıq, milli maraqlara sadiqlik və diplomatik çeviklik ekspertlər tərəfindən yüksək qiymətləndirilir. Artıq regionda “boz zonalar”, qanunsuz silahlı birləşmələr və separatizm yuvaları yoxdur. Mövcud reallıq sülhün dayanıqlı olacağına zəmanət verir. Yarımçıq həll variantları gələcək toqquşmalara zəmin yarada bilərdi, lakin Azərbaycan Prezidenti məsələni kökündən həll edərək, gələcək riskləri minimuma endirdi.

Əbu-Dabi hadisəsi lokal xarakter daşımır. Bu, qlobal miqyasda presedent yaradan hadisədir. Dünyanın başqa yerlərində davam edən münaqişələr üçün model rolunu oynaya bilər. Əgər Qafqaz kimi mürəkkəb regionda etnik və dini ziddiyyətlərin dərin olduğu məkanda sülh əldə edilirsə, deməli, mümkünsüz heç nə yoxdur. Sadəcə, siyasi iradə, güclü liderlik və ədalətli yanaşma lazımdır. İlham Əliyev bütün dünyaya sübut etdi ki, güc və diplomatiya vəhdət təşkil etdikdə nəticə qaçılmazdır. Mükafatın təqdimatı məhz bu reallığın beynəlxalq etirafıdır. Sülh müqaviləsi paraflanıb, mükafat verilib, indi isə quruculuq və inkişaf zamanıdır. Azərbaycan buna hazırdır və bütün dünyaya öz gücünü, humanistliyini bir daha nümayiş etdirir. Əldə olunan uğur hamımızındır, bütün regionundur, bütün tərəqqipərvər bəşəriyyətindir.

Fevralın 4-də Əbu-Dabidə baş tutan mərasim həm də simvolik məna daşıyır. Birləşmiş Ərəb Əmirlikləri dünyada sülh və tolerantlıq mərkəzi kimi tanınır. Azərbaycan da eyni dəyərləri paylaşır. İki ölkə arasındakı strateji tərəfdaşlıq münasibətləri bu mükafatla daha da dərinləşir. Təqdimat mərasimində iştirak edən dünya liderləri, nüfuzlu din xadimləri və ictimaiyyət nümayəndələri Azərbaycanın uğurunu alqışlayırlar. Tarix sübut edir ki, dağıtmaq asandır, qurmaq isə çətin. Prezident İlham Əliyev ən çətin olanı seçdi və uğur qazandı.

Beynəlxalq ekspertlər, politoloqlar və diplomatlar Əbu-Dabi Bəyannaməsini və paraflanan Sazişi XXI əsrin ən uğurlu sülhməramlı əməliyyatlarından biri hesab edirlər. Çünki burada sülh tərəflərin qarşılıqlı razılığı və milli maraqların uzlaşdırılması üzərində qurulub. Məhz buna görə də “Zayed İnsan Qardaşlığı Mükafatı” komitəsi tərəddüd etmədən bu tarixi qərarı verdi. Bu gün Azərbaycanın dövlət bayrağı Əbu-Dabidə dalğalanarkən, hər bir azərbaycanlı qürur hissi keçirir. Çünki verilən mükafat həm də şəhidlərin qanı, qazilərin canı və xalqın birliyi hesabına qazanılıb. Proseslər göstərir ki, Azərbaycan regionun lideri olaraq gündəliyi müəyyən edir və qaydaları diktə edir.

Onu da qeyd etmək vacibdir ki, İlham Əliyev “Zayed İnsan Qardaşlığı Mükafatı”na təkcə Azərbaycan və Ermənistan arasında sülhün əldə olunmasına görə deyil, eləcə də bölgədə və dünyada sülhə, insan qardaşlığına və qlobal sabitliyə verdiyi misilsiz töhfələrə görə layiq görülüb. Bu mükafat dövlətimizin başçısına beynəlxalq ictimaiyyət tərəfindən verilən ən yüksək qiymət və ehtiramın bariz nümunəsi sayılmalıdır.

Şübhəsiz ki, Prezident İlham Əliyevə ən böyük və əvəzolunmaz mükafat Azərbaycan xalqı özü verib. Bu, etimad və sevgi mükafatıdır. O, Xilaskar, Qalib Sərkərdə və Müzəffər Ali Baş Komandan kimi iki əsrdən bəri xalqımızın qarşısında duran ən çətin və ağrılı məsələnin həllinə nail oldu. İndi tam qətiyyətlə deyə bilərik ki, İlham Əliyev dövlətimizi uğurla gələcəyə doğru aparan, ən yüksək zirvələri fəth etməyə qadir Liderdir.

2026-cı il 4 fevral tarixi Cənubi Qafqazın tarixində ağ səhifənin açıldığı gün kimi də xatırlanacaq. Prezident İlham Əliyevin qazandığı “Zayed İnsan Qardaşlığı Mükafatı” Azərbaycan xalqının qələbəsinin, müdrikliyinin və sülhsevərliyinin beynəlxalq səviyyədə təsdiqidir. Mövcud saziş regionu parçalanma təhlükəsindən xilas edərək vahid və təhlükəsiz gələcəyə aparır. Artıq dünya ölkəmizi qlobal sülhə töhfə verən, regionda sabitliyin qarantı olan qüdrətli dövlət kimi tanıyır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Əbu-Dabi–Vaşinqton–Əbu-Dabi: sülh oxu yayından çıxıb

## *Azərbaycan və Ermənistan arasında barış gündəliyinə sadiqlik*

**Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü regionda davam edən normallaşma prosesinin mühüm mərhələsidir.**



*

İlk növbədə onu bildirək ki, Azərbaycan və Ermənistan liderlərinin növbəti təmasının Əbu-Dabidə gerçəkləşməsi və ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə ötən il avqustun 8-də keçirilmiş Vaşinqton Sülh Sammitinin nəticələrinə istinad bir neçə mühüm məqamın göstəricisidir.

Birincisi, sülh prosesi artıq yalnız regional deyil, qlobal güc mərkəzlərinin nəzarətində və dəstəyində irəliləyir. Eyni zamanda, Vaşinqtonda imzalanmış Birgə Bəyannamənin xatırladılması Bakı–İrəvan normallaşmasının baza prinsipinin möhkəmlənməsi deməkdir ki, bu, mövcud istiqamətdəki fundamental yanaşmadan xəbər verir. İkincisi, BƏƏ kimi neytral və iqtisadi baxımdan güclü platformanın seçilməsi sülh prosesinə biznes və investisiya yönümlü çalar qazandırır. Bu məqam barış gündəliyinin artıq praktik fayda üzərində qurulduğunu söyləməyə əsas verir.

Yada salaq ki, Azərbaycan və Ermənistan liderləri, o cümlədən, hər iki ölkənin nümayəndə heyətləri ötən il iyulun 10-da da Əbu-Dabidə bir araya gəlmişdilər. Həmin görüş regionda sülh gündəliyinin irəliləməsi və normallaşma prosesinin dəstəklənməsi üçün mühüm addım hesab olunmuşdu. Görüş zamanı tərəflər birbaşa dialoq apararaq, sərhədlərin delimitasiyası, sülh sazişi və digər aktual məsələlər barədə müzakirələr aparmışdılar. Deməli, Əbu-Dabi Bakı–İrəvan gündəliyi baxımından ciddi və strukturlaşmış formatdır. Elə bir format ki, son dərəcə vacib olan və sülhün paraflanmasının gerçəkləşdiyi Vaşinqton görüşü üçün, bir növ, qapı açdı. Deməli, barışın Əbu-Dabi–Vaşinqton–Əbu-Dabi oxunun olduğunu söyləyə bilərik.

*

Bəli, ikinci Əbu-Dabi görüşü zamanı tərəflər ABŞ Prezidentinin ev sahibliyi və şahidliyi ilə reallaşmış Vaşinqton təmasının Birgə Bəyannamədə əksini tapmış nəticələrinin icrası istiqamətində əldə olunan irəliləyişi müsbət dəyərləndiriblər. Bu fakt bir daha göstərir ki, Azərbaycan və Ermənistan arasında sülh prosesi bəyanatlar mərhələsindən çıxaraq, konkret icra və praktik nəticələr dövrünə qədəm qoyub.

Ölkə rəhbərlərinin normallaşmanın məhz ikitərəfli əsasda irəlilədilməsinin vacibliyini vurğulamaları isə Azərbaycanın ardıcıl və prinsipial mövqeyinin beynəlxalq müstəvidə qəbul olunduğunu təsdiqləyir. Yada salaq ki, Bakı–İrəvan danışıqlarında vasitəçilərsiz hərəkət formulunu irəli sürən məhz ölkəmiz, konkret olaraq, Prezident İlham Əliyev olmuşdu. Belə bir formul üçüncü tərəflərin siyasi manipulyasiya imkanlarının azaldır, təcrübədən məlum olan çoxtərəfli formatlar, faktiki olaraq, kənarda qalır. Bu trayektoriyada başlıca məqam Ermənistanın məsuliyyəti birbaşa üzərinə götürməsidir. Deməli, hazırkı mərhələni, eyni zamanda, məsuliyyətli dövr kimi də xarakterizə etmək mümkündür.

Mövcud məqam üzərində bir qədər geniş dayanaraq deyək ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın postmünaqişə dövründə irəli sürdüyü əsas yanaşma, yəni regionda sülhün xarici müdaxilələr olmadan, birbaşa dialoq və qarşılıqlı məsuliyyət əsasında təmin edilməsi günümüzün reallığıdır. Ötən müddət göstərdi ki, bu yanaşma həm prosesi sürətləndirir, həm də əldə edilən razılaşmaların dayanıqlılığını artırır. Sürətlənmənin və dayanıqlığın isə nəticələri var. Tərəflərin bildirdikləri başlıca məqam da budur.

*

Nəzərə alaq ki, görüş zamanı iqtisadi əməkdaşlıq məsələlərinin xüsusi vurğulanması diqqət çəkdi. Həqiqətən, Azərbaycan və Ermənistan arasında ticarətin başlanması, Azərbaycandan Ermənistana neft məhsullarının ixracının davamlılığı, eləcə də üçüncü ölkələrdən Ermənistana taxıl və digər malların ölkəmizin ərazisindən tranzitinin həyata keçirilməsi sülhün real və gündəlik faydalarını nümayiş etdirir. Deməli, həm də sülh prosesi abstrakt siyasi anlayışdan çıxaraq, iqtisadi maraqlar üzərində möhkəmlənir.

Onu da nəzərə alaq ki, məhz iqtisadi mexanizmlər sülhün geri dönməzliyini təmin edən əsas amillərdən biridir. Regionun başlıca nəqliyyat və enerji qovşağı olan Azərbaycan isə bu mərhələdə də aparıcı rolunu qoruyur, Ermənistana gəldikdə, ölkə regional iqtisadi sistemə inteqrasiya imkanlarını məhz Bakı ilə əməkdaşlıq sayəsində əldə edir.

*

Azərbaycan və Ermənistan liderlərinin Əbu-Dabi görüşü xüsusunda vurğulanmalı növbəti məqam tərəflərin vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərini alqışlamaları və etimad quruculuğu tədbirlərinin genişləndirilməsi barədə razılığa gəlmələridir. Bu, sülh prosesinin sosial-humanitar ölçülərinin də əsas götürüldüyünün sübutudur. Axı istər Azərbaycan, istərsə də Ermənistan cəmiyyətində iki müharibənin doğurduğu oturuşmuş etimadsızlıq mühiti var və bu mühitin aradan qaldırılması vacibdir. Ona görə vacibdir ki, sülh mühiti yalnız iqtisadi məsələlərdən asılı olmasın, onun ideoloji aspektləri hər iki ölkə cəmiyyəti üçün anlaşılan olsun.

Ayrıca onu da vurğulayaq ki, sülh prosesinin təkcə hökumətlər səviyyəsində deyil, ictimai psixologiya səviyyəsində də qavranması vacibdir. Xüsusilə Ermənistan cəmiyyətinin uzun illər ərzində formalaşdırılmış revanşist stereotiplərdən çıxarılması şərtdir. Azərbaycan bu mərhələyə də öz şərtləri və güvənli mövqeyi ilə daxil olur və bu mərhələ yekun sülh müqaviləsinin sosial dayaqlarını formalaşdırmaq üçün vacibdir.

*

Qeyd edək ki, sülhün yaşadığımız Cənubi Qafqaz coğrafiyasının pesrpektivi baxımından faydaları da önəmlidir. Görünür, buna görə də Azərbaycan və Ermənistan liderlərinin görüşündə TRIPP və digər bağlantı layihələrinə də məhz mövcud prizmadan yanaşıldı və bildirildi ki, sözügedən layihələr regionun gələcək inkişaf konturlarını daha aydın şəkildə ortaya qoyur. Aydındır ki, TRİPP Azərbaycanı Cənubi Qafqazın əsas logistika və tranzit mərkəzi kimi möhkəmləndirməklə yanaşı, bütövlükdə region ölkələri üçün yeni iqtisadi imkanlar yaradır. Gələcək də elə bunun üzərindədir.

Bəli, TRIPP və digər bağlantı layihələrinin müzakirəsi onu göstərir ki, hazırda söhbət yalnız bir dəhlizdən deyil, regional logistika və enerji şəbəkəsindən gedir. Mövcud düzəndə Azərbaycan regionun əsas tranzit və enerji qovşağı rolunu möhkəmləndirir. Ermənistan isə sistemə inteqrasiya olunan tərəf kimi daxil olur ki, bu balansın Bakı üçün strateji üstünlük olduğunu ayrıca vurğulamağa ehtiyac yoxdur.

*

Sonda ümumiləşdirmə apararaq deyək ki, Əbu-Dabi görüşü regionda sülhün əsas təşəbbüskarı və təminatçısı olan Azərbaycanın mövqeyini gücləndirir. Bir daha sübut olunur ki, Prezident İlham Əliyevin yeritdiyi uzaqgörən və praqmatik siyasət nəticəsində ölkəmiz Cənubi Qafqazda yeni siyasi-iqtisadi reallığı formalaşdırmaqda israrlıdır. O reallıq ki, mərkəzində sabitlik, əməkdaşlıq və qarşılıqlı fayda prinsipləri dayanır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycanın İsrail üçün önəmi yüksəlir

## *Prezident İlham Əliyevin bu ölkəyə səfərə dəvət olunması mükəmməl diplomatiyanın göstəricisidir*




**Azərbaycan–İsrail münasibətləri uzun illərdir ki, səssiz, lakin strateji dərinliyi olan tərəfdaşlıq modeli kimi formalaşıb. Tərəflər arasında əməkdaşlıq praqmatik maraqlar, qarşılıqlı fayda və dəyişən qlobal nizamın diktə etdiyi yeni təhlükəsizlik və texnoloji çağırışlar çevrəsində inkişaf edir. İsrailin Baş naziri Benyamin Netanyahunun Prezident İlham Əliyevi Yerusəlimə dəvət etməsi də məhz bu gerçəyin məntiqi nəticəsi kimi dəyərləndirilməlidir.**

Müasir beynəlxalq münasibətlər sistemində yüksək səviyyəli dövlət səfərləri artıq funksional siyasi alətə çevrilib. Qlobal güc balansının sürətlə dəyişdiyi, normativ qaydaların zəiflədiyi və qeyri-müəyyənliyin artdığı bir mühitdə bu cür səfərlər dövlətlərin mövqelərinin dəqiqləşdirilməsi, yeni alyans modellərinin sınaqdan keçirilməsi və strateji niyyətlərin dolayı yolla ötürülməsi vasitəsi kimi çıxış edir. Prezident İlham Əliyevin İsrailə dəvət olunması formalaşmaqda olan yeni geosiyasi konfiqurasiyada Azərbaycanın yerinə dair verilən mesaj kimi oxunmalıdır.

Yaxın Şərq uzun müddət nisbətən sabit təhlükəsizlik doktrinaları üzərində mövcud olmuşdu. Lakin son illərdə regionda baş verən silahlı münaqişələr, dövlət olmayan aktorların güclənməsi və böyük güclərin ziddiyyətli müdaxilələri bu arxitekturanı faktiki olaraq parçalayaraq onu fraqmentar təhlükəsizlik mühitinə çevirib. İsrail üçün bu şəraitdə əsas çağırış strateji tənhalıq riskidir. Təl-Əviv üçün dəyərli olan tərəfdaşlar proqnozlaşdırıla bilən, rasional və uzunmüddətli davranış modeli nümayiş etdirən dövlətlərdir. Azərbaycan məhz bu keyfiyyətlərinə görə İsrailin strateji baxışında fərqlənir.

Azərbaycan–İsrail münasibətlərinin geosiyasi analizində İran faktorunu nəzərə almamaq mümkün deyil. Lakin bu münasibətləri yalnız anti-İran oxu kimi təqdim etmək həm analitik sadələşdirmə, həm də reallığın təhrifidir. Azərbaycan İranla birbaşa konfrontasiya xətti yürütməyən, öz suveren maraqlarını güzəştsiz qoruyan aktordur. Belə balanslı mövqe İsrail üçün xüsusilə əhəmiyyətlidir. Azərbaycan, İranla coğrafi yaxınlığa baxmayaraq, gərginliyi eskalasiya etməyən, lakin təhlükəsizlik risklərini də nəzərdən qaçırmayan bir model təqdim edir. Prezident Əliyevin mümkün səfəri İsrailə bu mesajı verir: Bakı regional balansın pozulmasında deyil, onun idarə olunmasında maraqlıdır. Bunlar İsrailin təhlükəsizlik strategiyasında dolayı balans mexanizmi kimi dəyərləndirilə bilər.

*

Ənənəvi hərbi və enerji faktorları ilə yanaşı, XXI əsrin geosiyasətində texnologiya və xüsusilə süni intellekt əsas güc determinantlarından birinə çevrilib. İsrail bu sahədə qlobal liderlərdən biridir, lakin texnoloji üstünlük artıq təkbaşına saxlanıla bilən resurs deyil. Bu üstünlüyün qorunması üçün uyğun tərəfdaşlarla şəbəkələşmə zəruridir.

Azərbaycanın mövcud geosiyasi konfiqurasiyadakı rolu ikili, lakin bir-birini tamamlayan xarakter daşıyır. Bakı bir tərəfdən regionda sabitlik yaradan, riskləri idarə etməyi bacaran və proqnozlaşdırıla bilən siyasi aktor kimi çıxış edir. Digər tərəfdən isə Azərbaycan texnoloji modernləşməni taktiki inkişaf xətti kimi deyil, milli strategiyanın əsas prioritetlərindən biri səviyyəsinə yüksəldən inkişaf edən dövlətdir. Məhz bu iki istiqamətin sintezi İsrail üçün cəlbedici əməkdaşlıq mühiti formalaşdırır və Prezident İlham Əliyevin mümkün səfərini texnoloji diplomatiyanın məntiqi davamına çevirir.

Azərbaycanın İsrail üçün xüsusi əhəmiyyət kəsb etməsinin əsas səbəblərindən biri də onun siyasi modelinin unikallığıdır. Ölkə müsəlman əhalisi olan, lakin idarəetməsini dünyəvi prinsiplər üzərində quran, Qərblə əməkdaşlığını Şərqlə qarşıdurma üzərindən formalaşdırmayan və regional proseslərdə emosional reaksiyalar əvəzinə institusional davranış nümayiş etdirən dövlətdir. Belə bir yanaşma Azərbaycanı ideoloji qütbləşmənin dərinləşdiyi bir regionda istisna aktora çevirir və onu İsrail üçün uzunmüddətli strateji sabitlik elementi kimi önə çıxarır.

Mövcud geosiyasi konfiqurasiyada Prezident İlham Əliyevin səfəri İsrail üçün iki əsas strateji nəticə yaradır. Birincisi, bu səfər İsrailin regional siyasətinə balans və rasional tərəfdaşlıq elementi əlavə edərək onun beynəlxalq legitimliyini gücləndirir. İkincisi isə İsrailin münasibətlərini "blok qarşıdurması" yox, "strateji müxtəliflik" üzərində qurduğunu nümayiş etdirir.

*

Fevralın 3-də imzalanmış süni intellekt üzrə əməkdaşlıq memorandumu Azərbaycan–İsrail münasibətlərində strateji dönüş nöqtəsidir. Çünki süni intellekt bu gün birbaşa geosiyasi güc alətinə çevrilib. Alqoritmik üstünlük və hesablama gücü XXI əsrin əsas "güc" komponentləri kimi çıxış edir. Ənənəvi təhlükəsizlik doktrinaları əsasən mövcud təhdidlərə cavab üzərində qurulurdu. Süni intellekt isə təhlükəsizlik anlayışını proaktiv mərhələyə keçirir: risklərin əvvəlcədən modelləşdirilməsi, sosial və iqtisadi proseslərin proqnozlaşdırılması, kritik infrastrukturun real vaxt rejimində qorunması kimi imkanlar yaradır. İsrail bu sahədə qabaqcıl təcrübəyə malikdir və bu təcrübənin Azərbaycanla bölüşülməsi münasibətləri hərbi əməkdaşlıq səviyyəsindən çıxararaq strateji planlama mərhələsinə daşıyır. Memorandumun Azərbaycan üçün əsas strateji dəyəri texnoloji suverenliyin möhkəmləndirilməsidir. Azərbaycan uzun müddət qlobal iqtisadiyyatda enerji ixracatçısı kimi tanınıb. Lakin dəyişən dünya nizamında bu statusun təkbaşına dayanıqlı olmadığı aydın görünür. Texnologiya sahəsində idxalçı mövqedən innovasiya tərəfdaşına keçid Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının əsas sütunlarından biridir.

*

Azərbaycan–İsrail münasibətlərinin davamlı və ziddiyyətsiz inkişafının arxasında dayanan əsas amil Prezident İlham Əliyevin xarici siyasət fəlsəfəsidir. Bu siyasət milli maraqların rasional idarə olunması alətidir. Məhz bu yanaşma Bakının müxtəlif geosiyasi mərkəzlərlə eyni vaxtda işləməsinə, ziddiyyətli regional mühitdə manevr imkanlarını qorumasına şərait yaradır.

Prezident Əliyevin diplomatiyası "seçmək məcburiyyəti" üzərində deyil, paralel balans üzərində qurulub. Azərbaycan İsraillə təhlükəsizlik və texnologiya sahəsində dərin əməkdaşlıq etdiyi halda, bu xətti nə İslam dünyasına qarşı yönəldir, nə də onu sivilizasion qarşıdurmanın tərkib hissəsinə çevirir.



Əksinə, Bakı İsraillə münasibətlərini dini və ideoloji müstəvidən çıxararaq dünyəvi dövlət maraqları çərçivəsində saxlayır. Balanslı xətt xüsusilə Fələstin məsələsində özünü aydın göstərir. Azərbaycan İsraillə tərəfdaşlığını genişləndirdiyi bir vaxtda belə, beynəlxalq hüquqa əsaslanan mövqeyindən geri çəkilmir və mövcud normativ çərçivəni açıq şəkildə dəstəkləyir.

Prezident İlham Əliyevin diplomatiyasının mühüm xüsusiyyətlərindən biri də onun regionda vasitəçi və sabitləşdirici rol oynamaq potensialıdır. Bakı nə radikal mövqelərin, nə də blok qarşıdurmalarının daşıyıcısı kimi çıxış edir. İsrail kimi təhlükəsizlik baxımından həssas dövlət üçün belə bir tərəfdaşlıq modeli xüsusi əhəmiyyət daşıyır.

Bu kontekstdə Prezident İlham Əliyevin Yerusəlimə dəvəti Azərbaycanın formalaşdırdığı dünyəvi, praqmatik və balanslı diplomatiya modelinə verilən beynəlxalq qiymət kimi dəyərləndirilməlidir. Eyni zamanda, bu, Azərbaycanın dəyişən beynəlxalq sistemdə öz xarici siyasət muxtariyyətini qoruyaraq təsir dairəsini genişləndirə bildiyini təsdiqləyən siyasi siqnaldır. Müasir beynəlxalq münasibətlərdə etimad emosional yaxınlıqdan çox, davranışın ardıcıllığı ilə ölçülür. Azərbaycan rəhbərliyinin uzun illər ərzində nümayiş etdirdiyi balanslı xarici siyasət İsrail üçün Bakı ilə əməkdaşlığın taktiki deyil, strateji səviyyədə mümkün olduğunu sübut edib.

Eyni zamanda, bu dəvət İsrailin Azərbaycanla münasibətlərini hər hansı üçüncü tərəfə qarşı yönəltmədiyini nümayiş etdirən mühüm regional balans mesajıdır. İsrail bu çağırışla Bakı ilə tərəfdaşlığın sabitləşdirici mexanizm üzərində qurulduğunu göstərir. Bununla yanaşı, çağırış Azərbaycan–İsrail münasibətlərində yeni mərhələnin anonsu rolunu oynayır. Prezident İlham Əliyevin İsrailə səfərinin baş tutub-tutmamasından asılı olmayaraq, əsas proses artıq gerçəkləşib. Azərbaycan–İsrail münasibətləri simvolik yaxınlıq mərhələsini geridə qoyaraq strukturlaşmış strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Son olaraq qeyd edək ki, Azərbaycanın xarici siyasət təcrübəsi göstərir ki, balanslı, tərəfsiz və dünyəvi diplomatiya mürəkkəbləşən beynəlxalq sistemdə ən dayanıqlı strategiyalardan biridir. İsrailin dəvəti bu modelin beynəlxalq səviyyədə qəbul olunduğunu və Azərbaycanın qlobal miqyasda etibarlı tərəfdaş kimi dəyərləndirildiyini təsdiqləyən siyasi siqnaldır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Vokye nəyə çalışır?

## *Yaxud üfunətli ermənipərəstlik haqqında bir neçə söz*

**Xaricdə müəyyən qüvvələr var ki, bütün üsul və vasitələrlə Azərbaycan–Ermənistan sülh prosesini pozmağa çalışırlar. Söhbət Fransadakı qüvvələrdən gedir. Onlara hər sahədə təsadüf edilir. Ölkə parlamentində isə sayları daha çoxdur. Amma özü və "təşəbbüs"ü barədə söz açacağımız şəxs deputat deyil.**

Deməli, Fransada Loran Vokye adlı biri var. O Vokye ki, ölkənin Auvergne–Ron–Alp regionunun rəhbəridir. Azərbaycan ictimaiyyəti də Loranı məhz bu vəzifədəki "canfəşanlığına" görə tanıyır. Bəli, cənab Vokyenin ermənipərəst damarı yenə tutub və o, Bakıda məhkəməsi davam edən Qarabağdakı keçmiş separatçı rejimin rəhbərlərinin dərhal azadlığa buraxılmasından danışıb. Daha dəqiq desək, Vokye məsələyə dair qətnamə hazırlayıb. O, ümid edir ki, Fransa parlamentinin Fransa-Ermənistan Dostluq Qrupu qətnamə layihəsi ətrafında müzakirə aparacaq, həmçinin, yekunda sənəd parlamentin özü tərəfindən qəbul ediləcək. Mövzumuz bu barədədir. Amma əvvəlcə çox yaxın keçmişə üz tutaq.

*

Yada salaq ki, L.Vokye 2023-cü ilin martında İrəvanda səfərdə olarkən sərsəm açıqlaması ilə yadda qalmış, həmin vaxt mövcud olan separatçı rejimin qondarma "xarici işlər naziri" Sergey Kazaryanla görüşü zamanı ucuz populizmə güc verərək demişdi ki, guya Qarabağ münaqişəsi iki ölkə arasında mübahisə deyil, bütöv bir xalqın və sivilizasiyanın məhvinə yönəlmiş məqsədli cəhddir: "Bunun həm Fransada, həm də Avropada eşidilməsi vacibdir. Mən qəti şəkildə bəyan edirəm: bu, sərhəd problemləri olan iki ölkə arasında mübahisə deyil. Bu, bütün beynəlxalq konvensiyalarla qorunan insan hüquqlarının pozulmasıdır".

Sən demə, Azərbaycanın niyyəti bir xalqı, onun sivilizasiyasını məhv etmək imiş və bunun qarşısını almaq bəşəri dəyərləri qorumaqdır. Vokye, eyni zamanda, Fransadakı erməni təşkilatları ilə birlikdə separatçı rejimin bayrağı altında Qarabağa humanitar konvoy göndərəcəyini açıqlamış və öz aləmində Azərbaycanı şantaj etməyə cəhd göstərmişdi. "Konvoy Laçın dəhlizinə yaxınlaşacaq və biz azərbaycanlılardan onun keçməsinə icazə vermələrini tələb edəcəyik. Ya konvoy keçəcək və biz ümid üçün kiçik bir qapı açacağıq, ya da keçməyəcək və bu, Avropa təşkilatlarını cəlb etməklə insan hüquqlarının pozulması məsələsini yenidən qaldırmaq üçün bizə əsas verəcək", - deyən Vokye fikirlərini Ermənistan və havadarları tərəfindən qaldırılmış Laçın dəhlizinin blokadası vay-şivəni kontekstində bildirmişdi.

Qeyd edək ki, Vokyenin bu açıqlaması rəsmi Bakının sərt etirazına səbəb olmuş, Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə onu ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə qarşı fəaliyyət aparmaqda qınamışdı. Məlumdur ki, 10 yük maşını İrəvandan Laçın dəhlizinə doğru yola çıxsa da, Azərbaycan tərəfi onların Qarabağa daxil olmasına izacə verməmişdi. Nəticədə Loranın pafoslu siyasi oyunbazlığı puça çıxmışdı. O da məlumdur ki, Fransanın bir neçə şəhəri və regionundan göndərilmiş humanitar yardımla yükləndiyi iddia edilən yük avtomobilləri, əslində, boş olub.

*

Göründüyü kimi, Vokye köhnə şakərindədir. Onun Qarabağdakı keçmiş separatçı rejimin rəhbərlərinin dərhal azad edilməsinə çağırış yüklü qətnamə layihəsi də başıboşluqdur. Başıboşluğu isə bəzən cibin dolu olması yaradır. Loran da eyni durumdadır. Yəni, ölkədəki erməni lobbi və diaspor təşkilatları onun cibini elə doldurub ki, son dərəcə mənasız işə girişib. Elə bir işə ki, təməlində sərsəmlik var. Əlbəttə, sərsəmləmək Loran üçün çətinlik törətmir. Necə deyərlər, islanmışın yağışdan qoruxusu yoxdur.

Deməli, Vokye Bakıda separatçıların müttəhim kürsüsünə çıxarılmalarının ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin ABŞ Prezidentinin şahidliyi ilə imzaladıqları Birgə Bəyannamənin icrasını zəiflədəcəyini vurğulayıb, ardınca isə xatırlatdığı sənəddə "məhbusların" taleyinə toxunulmadığını dilə gətirib. Loranın məntiqsizliyi və baxışlarındakı təzad budur. Necə ola bilər ki, Birgə Bəyannamədə nəzərdə tutulmayan məqam sənədin icrasını zəiflətsin? Buna cavab yoxdur. Amma Vokyenin sərsəmləməsində başqa detallar var.

L.Vokyenin qətnamə adlandırdığı kağız parçasında Fransanın Cənubi Qafqazda sülh səylərini dəstəkləməli olduğu və Ermənistanla əlaqələrin möhkəmləndirilməsinin vacibliyi bildirilib, eyni zamanda, vurğulanıb ki,



Paris Qarabağın "öz doğma torpaqlarından zorla qovulmuş" erməni əhalisinə dəstəyini təsdiqləməli, xalqların öz müqəddəratını təyin etmə hüququna hörmətlə yanaşmalı, beynəlxalq ictimaiyyət Azərbaycandan həmin ermənilərin təhlükəsiz şəkildə geri qayıtmaq hüququnun təminatı naminə mümkün olan bütün tədbirləri görməyi tələb etməlidir. Loranın fikrincə, ilk növbədə, Fransa Milli Assambleyası ölkənin hökumətindən tələb etməlidir ki, rəsmi Bakı qarşısında "həbsdə saxlanılan erməni məhbusların" dərhal buraxılması məsələsini qaldırsın. Məşhur Azərbaycan filmi "Bəxt üzüyü"ndə deyildiyi kimi, qoymayın, üstümüzə Rasim, indiki halda Vokye gəlir.

Əvvəldə bildirdik ki, xaricdə müəyyən qüvvələr bütün vasitələrlə Azərbaycan-Ermənistan sülh prosesinə xələl gətirməyə çalışırlar. Sonda yenidən bu məsələyə qayıdaq. Əminliklə deyə bilərik ki, L.Vokye də anti-sülh mövqeyi ilə seçilən qüvvələrin düşərgəsində yer alan miskin və rəzil varlıqdır. Belə varlıqlar ölkəmizin Bakıdakı 4 erməni əsilli şəxsi Ermənistana təhvil verdiyini gördülər. Onlar onu da yaxşı bilirlər ki, humanist jestlər barış mühiti yaratmaq baxımından ciddi əhəmiyyətə malikdir. Ona görə də özlərinin ənənəvi qətnamə məntiqlərini işə salırlar. Düşünürlər ki, bu məntiq Azərbaycan rəhbərliyində qıcıq doğuracaq və nəticədə ölkəmiz eyni addımı təkrarlamayacaq. Beləliklə, həm barış mühiti zərər görəcək, həm də "Bakıda saxlanılan erməni məhbuslar" avantürası ömrünü uzadacaq. Yeri gəlmişkən, ikinci məqam da əsasdır.

Tam əminliklə onu da deyə bilərik ki, məhbus kimi qələmə verdiyi şəxslərin taleyi Vokyeni qətiyyən maraqlandırmır. Onun çalışdığı haqqında söz açdığımız avantüranın iflasa uğramamasıdır. Adam Fransadakı erməni lobbi və diaspor təşkilatlarından aldığı rüşvətin kəsilməsindən qorxur. Yəni, Vokyenin qətnamə layihəsi də məhz bu qorxunun bariz təzahürüdür. Başqa heç nə.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Dehli qırğını dövlət siyasətinin nəticəsi idi

**(əvvəli 1-ci səhifədə)**

Bəs oktyabrın 31-də nə baş vermişdi? Həmin tarixdə Hindistanın o zamankı Baş naziri İndira Qandi Dehlinin Safdarjunq küçəsində yerləşən baş nazirlik binasında İngiltərədən onunla müsahibə götürməyə gələn jurnalisti qarşılamağa hazırlaşırdı. Həmin gün Baş nazirin cangüdənləri Satvant və Beant Zikhlər silahlarını Qandiyə tərəf çevirərək ona atəş açdılar. Nəticədə, Qandi 33 güllə yarası alaraq yerindəcə həyatını itirdi. Bu hadisə yerli hindlilərlə zikhlər arasında toqquşmanın yaranması üçün əlverişli zəmin yaratdı.

Sənədlər göstərir ki, hadisənin bu səviyyəyə çatmasında Hindistan hökumətinin birbaşa rolu olmuşdu. Sui-qəsddən əvvəl hökumət zikhlərin sıx yaşadığı bölgələrdə əhali ilə digər vətəndaşlara nisbətən qeyri-bərabər davranır və onların dini məbədlərinə qarşı hörmətsizlik edirdi. İndira Qandinin öldürülməsindən sonra Hindistan hökuməti zikhlərə qarşı amansız təqib və hücumlara başladı. Bu faktları sübut edən ən tutarlı göstərici isə sui-qəsddən sonra öldürülən Baş nazirin oğlunun açıqlamaları oldu: "Qüdrətli bir ağac yıxıldıqdan sonra onun ətrafında yerin titrəməsi təbiidir".

Zorakılığın pik həddi 1–3 noyabr 1984-cü il tarixlərini əhatə etmişdi. Şahid ifadələrinə əsasən, təkcə Dehlidə 1000, ümumilikdə isə 2700-dən artıq zikh həyatını itirdi. Trilokpuri və Manqolpuri kimi rayonlarda yüzlərlə ölüm hadisəsi qeydə alındı. Polis və yerli administrasiya orqanlarının ya passiv qalması, ya da bəzi hallarda hücumlara göz yumması dövlətin qoruyucu funksiyasının tam iflasa uğradığını göstərirdi. Qətliamların nəticələri yalnız fiziki itkilərlə məhdudlaşmadı.



Rəsmi məlumatlara görə, yardım düşərgələrində 20 min nəfər qeydiyyata alınsa da, faktiki olaraq 50 mindən artıq insan evsiz qalmışdı. Minlərlə ailə başçısını itirdi, yüzlərlə uşaq yetim qaldı. Sağ qalmış şəxslər arasında psixoloji travmalar geniş yayıldı. Onların bir çoxu təhlükəsizlik səbəbindən öz yaşayış yerlərinə qayıtmaqdan imtina etdi.

Hesabatda xüsusilə vurğulanır ki, 20–50 yaş arasında olan zikh kişiləri məqsədli şəkildə evlərindən çıxarılaraq son dərəcə qəddar üsullarla – döyülmə, bıçaqlanma, linç və diri-diri yandırılma yolu ilə qətlə yetirilib. Eyni zamanda, qurudvaraların (zikhlərin dini məbədləri), məktəblərin, yaşayış evlərinin yandırılması, genişmiqyaslı qarət və cinsi zorakılıq faktları divantutmanın təkcə fiziki deyil, mədəni və mənəvi məhvetmə xarakteri daşıdığını sübut edir. Sənəd hadisələrin sistemli xarakterini nəzərə alaraq müstəqil məhkəmə araşdırmasının aparılmasını və məsul şəxslərin cəzalandırılmasını tələb etsə də, bu çağırışların heç bir nəticəsi olmayıb. Sonralar Mişra (1985) və Nanavati (2005) komissiyalarının yaradılması formal hüquqi addımlar kimi qiymətləndirilsə də, əsas siyasi və inzibati fiqurların məsuliyyətdən kənarda qalması cəzasızlıq mühitinin davam etdiyini göstərir.

Ötən ay Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Bakıda keçirilmiş beynəlxalq konfransda dünyanın müxtəlif ölkələrindən zikh icmasının nümayəndələrinin Hindistan hökumətinə ünvanladığı çağırışlar bu məsələnin hələ də aktual olduğunu göstərir. Qətliamların tanınması, tarixi ədalətin bərpası və təqiblərin dayandırılması tələbi təkcə bir icmanın deyil, beynəlxalq insan haqları sisteminin legitimliyi məsələsidir.

1984-cü il zikh qətliamları Hindistanda dövlət zorakılığı, siyasi məsuliyyət və hüquqi cəzasızlıq probleminin simvoluna çevrilib. Yüksək ranqlı məmurların və siyasi fiqurların cəzalandırılmaması, bu hadisələrin hələ də həll olunmamış struktur problemlərin bir əlaməti olduğunu göstərir. Hadisələrə hüquqi qiymətin verilməsi yalnız zikh icması üçün deyil, regionda hüququn aliliyinin və dövlətlərin beynəlxalq öhdəliklərinə sadiqliyinin təmin olunması baxımından fundamental əhəmiyyət daşıyır.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Züriyyə QARAYEVA,**
**politoloq**

Bakı Təşəbbüs Qrupunun Hindistanda 1984-cü ilin noyabrında zikhlərə qarşı törədilmiş kütləvi zorakılıqlarla bağlı "Who Are the Guilty?" hesabatına əsaslanan təhlili bir daha göstərir ki, bu hadisələr yalnız spontan iğtişaşlar deyil, siyasi və institusional məsuliyyət daşıyan ağır insan haqları pozuntuları idi. Hesabatda vurğulanan əsas məqam ondan ibarətdir ki, minlərlə mülki şəxsin həyatına son qoyulmasına baxmayaraq, həmin dövrdə qərarvermə mövqeyində olan yüksək rütbəli məmurlar və siyasi fiqurlar faktiki olaraq cəzasız qalıblar. Bu cəzasızlıq isə təkcə keçmişlə bağlı problem deyil, həm də hüququn selektiv tətbiqinin uzunmüddətli nəticələrini ortaya qoyan ciddi presedentdir.

Bu kontekstdə Bakı Təşəbbüs Qrupunun yanaşması diqqəti daha geniş məsələyə yönəldir: insan haqları yalnız bəyanatlar və illik hesabatlarla qorunmur, real siyasi iradə və hüquqi mexanizmlər olmadıqda ədalət anlayışı formal xarakter daşıyır. Zikhlərə qarşı törədilmiş zorakılıqlara görə heç kimin məsuliyyət daşımaması onu göstərir ki, dövlət daxilində toxunulmazlıq mexanizmi formalaşdıqda, bu, gələcəkdə oxşar cinayətlərin təkrarlanması üçün münbit zəmin yaradır. Bu baxımdan sözügedən hesabat və ona əsaslanan təhlil təkcə Hindistan üçün deyil, qlobal miqyasda insan haqlarının qorunması sahəsində ikili standartlar probleminin bariz nümunəsi kimi dəyərləndirilə bilər.

# Erməni hərbçilərin qanlı cinayətləri cəzasız qalmadı

## *Bakı müharibə canilərini ədalət mühakiməsinə çəkib*



**Ədalətin aparıcı sütunları onda laxlamağa başlayır ki, təqsirkar cəzasız qalır, günahsıza isə cəza verilir. İnsanlığa qarşı cinayət törədənlərin məsuliyyətdən yayınmasına isə qətiyyən yol vermək olmaz. Hələ də işğala məruz qalan ölkə ilə işğalçı arasında bərabərlik işarəsi qoymağa çalışanlar var. Onlar qəbul etmək istəmirlər ki, Azərbaycan özünün ərazi bütövlüyünü, suverenliyini tam bərpa etməklə, həm də xalqımıza qarşı insanlıq əleyhinə və müharibə cinayətləri törətməkdə ittiham olunan şəxsləri hakim qarşısına çıxarmaqla ədalətin bərpasına nail olub.**

Azərbaycan Prezidenti İlham Əliyev hələ 44 günlük Vətən müharibəsindən əvvəl Xocalı soyqırımını, digər cinayətləri törədən şəxslərin mütləq şəkildə Femidanın mühakiməsinə cəlb olunacağını, əlləri dinc soydaşlarımızın qanına bulaşmış hər kəsin layiqli cəzasını alacağını, qocaların, körpələrin, günahsız qurbanların qanının yerdə qalmayacağını demişdi. Dövlətimizin başçısı, xalqının mərd oğlu, hər zaman olduğu kimi, sözünə əməl etdi. Bu gün müharibə caniləri üzərində Bakı Hərbi Məhkəməsində davam edən prosesə bütün dünya şahidlik edir.

"Mənfur düşmən qanlı soyqırımı törətmişdir, xocalılıları öz doğma torpağından didərgin salmışdır. Üstəgəl Xocalının tarixi adını dəyişdirməyə çalışırdı və azərbaycanlıların evlərinə separatçıları, düşmənləri yerləşdirmişdi, o cümlədən xarici ölkələrdən. Görün, xalqımıza qarşı nə qədər böyük və çirkin cinayət törədilmişdir və yenə də deyirəm, dünya buna biganə qalmışdır. Ermənistan və onun havadarları hesab edirdilər ki, onları heç kim cəzalandırmayacaq. Onlar səhv etmişdilər, bu gün də səhv edirlər. Yeni yiyə axtarışında olan, onun-bunun qucağına sığınan Ermənistan bilməlidir ki, yeganə yol Azərbaycanın bütün şərtlərini qəbul etmək və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməkdir. Ermənistan hakimiyyəti və erməni separatçıları baş verənləri – həm ikinci Qarabağ müharibəsini, həm də Qarabağ bölgəsində antiterror tədbirlərini unutmamalıdır". Bu sözləri İlham Əliyev 2024-cü il fevralın 26-da Xocalıda Soyqırımı Memorialının təməlatdı mərasimində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə deyib.

*

Bakıda keçirilən məhkəmə prosesi ilə bağlı xaricdən güclü siyasi təzyiqlərin təşkil olunmasına baxmayaraq, bu, Azərbaycan Prezidentinin qəti və ədalətli mövqeyinə heç bir təsir göstərə bilmədi. Təkzibolunmaz sübutları görmək, cinayətlərin canlı şahidlərinin ifadələrini eşitmək istəməyən, əksinə, müharibə canilərinə qahmar çıxan Qərbin ermənipərəst psevdo insan hüquqları təşkilatlarının Bakıya siyasi təsir göstərmək üçün verdikləri qərəzli açıqlama və bəyanatların heç bir faydası olmadı. Çünki insanlıq əleyhinə və müharibə cinayətləri törətmiş şəxslərin ədalət mühakiməsinə cəlb edilməsinin özü ədalətin təntənəsi deməkdir. Bu, eyni zamanda, münaqişələrin və müharibələrin ədalətli həlli üçün ən məqbul modeldir. Tarixi təcrübə göstərir ki, bəzi münaqişə və müharibələr bitsə də, çoxsaylı dinc insanların qətlində əli olan cinayətkarlar məsuliyyətdən kənarda qalmağı bacarıblar. Əslində, bu hal müharibə və münaqişələrin natamam həlli, başa çatmaması deməkdir. Biz belə bir nümunəni İsrailin təcrübəsində görmüşük. Bu ölkənin xüsusi xidmət orqanı – MOSSAD milyonlarla yəhudinin qətlində əli olan faşist rejiminin canilərini müharibədən xeyli sonra dünyanın müxtəlif ölkələrində axtarıb taparaq cəzalandırdı, ədalətin təntənəsinə nail oldu. Amma o da məlumdur ki, faşist cəlladlarının heç də hamısı məsuliyyətə cəlb edilmədi, onlar layiq olduqları cəzadan canlarını qurtarmağı bacardılar. Ötən əsrin 90-cı illərində keçmiş Yuqoslaviyada etnik münaqişələr bitdikdən sonra hərbi cinayətkarların bəziləri Femida qarşısına çıxarıldılar. Onu da qeyd etməliyik ki, cinayətkarların cəzasız qalmamasında beynəlxalq birliyin ümumi səyləri həlledici rol oynadı.

Bakı proseseində isə beynəlxalq institutların, eləcə də ictimai dəstəyinə ehtiyac olmadı. Çünki Azərbaycan torpağında cinayət törətmiş ermənilərin, separatçı ünsürlərin əməllərinin canlı şahidləri, onları üzdən tanıyan soydaşlarımız kifayər qədərdir. Bunu məhkəmə prosesini izləyən yerli və xarici insan hüquqları mütəxəssisləri də gördülər. Ortaya qoyulan faktlar, həmçinin rəsmi İrəvanın Azərbaycan xalqına qarşı törədilmiş qanlı cinayətlərdə rol oynadığı və buna görə Ermənistan dövlətinin məsuliyyət daşıdığı da öz təsdiqini tapmış oldu. Şəffaf şəkildə keçirilən məhkəmədə fakt və dəlillər, zərərçəkmişlərin ürəkparçalayan ifadələri, təqsirləndirilən şəxslərin etirafları ilə işğal faktına və bu dövrdə törədilən cinayətlərə görə Ermənistan Respublikası Silahlı Qüvvələrinin hüquqi məsuliyyət daşıdığı üzə çıxarıldı. Məhkəmə prosesində Azərbaycana qarşı hərbi cinayətlərdə təqsirləndirilən şəxslərdən biri – L.Mnatsaknayan etiraf etdi ki, Xankəndidəki tarixə gömülmüş qondarma rejimin ordusu müstəqil qüvvə deyildi: "Həmin silahlılar Ermənistan ordusunun hərbi birləşməsi idi. Qondarma rejimdə yuxarı vəzifələrə təyinat İrəvanda təsdiqlənirdi, onların təminatı Ermənistan ordusunun daxilində təşkil edilirdi".

### *Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Dünyanın müxtəlif regionlarında separatçılığa qarşı olduqca ağır cəzalar tətbiq edilib. Buna misal olaraq Şimali İrlandiyada, İspaniyanın Kataloniya vilayətində baş verən hadisələri göstərə bilərik. Məhkəmələrin qərarları ilə uzunmüddətli azadlıqdan məhrumetməyə məhkum edilən həmin separatçıların bir qismi indiyədək həbsxanalarda cəzalarını çəkirlər. Bəs eyni cinayətlə üzləşmiş Azərbaycana nə təklif olunur? Deməli, biz erməni separatçıların cinayət tərkibli hərəkətlərinə hüquqi qiymət verməyək, onları azadlığa buraxaq? Bakıda məhkəməsi gedən təqsirləndirən şəxslərin hər birinin cinayət əməli faktlarla, şahidlərin ifadələri ilə sübuta yetirilir. Məhz onların rəhbərlik etdikləri hərbi qruplaşmalar 44 günlük müharibədə döyüş zonasından uzaqdakı Gəncəni, Bərdəni, Mingəçeviri qadağan olunmuş başlıqlı raketlərlə vurublar. Nəticədə, yüzlərlə dinc vətəndaşımız həlak olub, yaralanıb. Buna necə göz yuma bilərik? Xocalıda, Bağanis Ayrımda, Başlıbeldə törətdikləri qətliamları unutmaq mümkündürmü? Bunun müqabilində Fransa, Niderland, Norveç kimi Avropa ölkələri, bəzi insan hüquqları təşkilatları Azərbaycandan nəyi umurlar? Cinayətkar cəzasını çəkməlidir!

Azərbaycan həmin hərbi canilər üzərində şəffaf və ədalətli məhkəmə dinləmələri təşkil edib. Beynəlxalq normalara uyğun şəkildə onların hamısının hüquqlarını müdafiə edənlər var. Biz qəddar və qaniçən xalq deyilik. Bütün hərəkətlərimiz beynəlxalq hüquqda göstərilən qaydalara uyğundur. Təbii ki, cinayəti sübuta yetirilənlər haqqında məhkəmə ədalətli hökm çıxaracaq. Hər kəs əməlinə görə cavab verməlidir. Azərbaycanın bu prinsipi gözlədiyi nə Avropanın bir sıra ölkələri, nə də beynəlxalq təşkilatlar tərəfindən şübhə altına alınmamalıdır. Əgər separatçıların tərəfini saxlayan ölkə və qurumlara Azərbaycanı yenə nədəsə günahlanmdırmaq üçün bəhanə lazımdırsa, bu, başqa məsələdir. Biz artıq buna öyrəşmişik və hər zaman layqli cavablarını da vermişik. "Qoca qitə" özünün daxili problemlərinin həlli ilə məşğul olsun. Avropanın çox ciddi problemləri var. Post-müharibə dövrünə qədəm qoymuş Cənubi Qafqazda isə sülh, əməkdaşlıq mühiti yaranıb, Azərbaycan Ermənistanla münasibətlərin normallşaması prosesinə start verib. Qərəzli, gurultulu və boş bəyanatlar verməkdənsə, qətnamələr qəbul etməkdənsə, buna diqqət yetirsinlər.

*

Bu gün biz tarixi ədalətin bərpa olunmasından yaza və danışa bilirik. Azərbaycan əzəli torpaqlarını işğaldan azad etməklə yanaşı, qaçıb gizlənməyə çalışan separatçıların başçılarını da saxlayaraq məsuliyyətə cəlb edir. Bunlardan birinin – keçmiş qondarma rejimin "dövlət naziri" vəzifəsində çalışmış Ruben Vardanyanın hərbi maşında, mələfələrin altında Ermənistana keçmək istəyərkən saxlanılması ən ibrətamiz nümunədir. Amma Azərbaycan dövlətinin mövqeyi qətidir. Torpağımızda qeyri-qanuni fəaliyyət göstərən separatşçı rejimlə əlaqəsi olan yerli və gəlmə hayların hamısı mütləq cəzalarını almalı, ədalətin təntənəsi təkcə ermənilərə deyil, onlara "daydayılıq" edənlərə də görk olmalıdır. On illər boyu Azərbaycana qarşı terror, cinayət əməlləri törədən, terrorizmi maliyyələşdirən, sərhədlərimiz daxilində qondarma dövlət yaratmaq istəyən, qanunsuz silahlı birləşmələrə dəstək verən hüquqi və fiziki şəxslərin hamısı məsuliyyətə cəlb olunacaq.

Gec də olsa haqq-ədalət öz yerini tapır. Dünənə qədər bizə yuxarıdan aşağı baxan separatçı ünsürlər Azərbaycan qanunları və beynəlxalq konvensiyalar çərçivəsində mütləq cəzalarını alacaqlar. Bu işə heç kəs əngəl ola bilməz.

***İmran BƏDİRXANLI***
***XQ***

# İsveçrəli deputat İrəvanı sülh yolundan döndərmək istəyir

**İsveçrə Milli Şurasının üzvü, açıq şəkildə anti-Azərbaycan mövqeyi ilə seçilən, ölkəmizin əleyhinə çıxışlar edən Erix Vontobel İrəvana səfər edib və burada mətbuat konfransı keçirib.**

Vontobel bildirib ki, 2024-cü ilin oktyabrında o, Qarabağdan "zorla köçürülmüş" (?) şəxslərlə görüşüb və onlara 3 əsas sual ünvanlayıb: 2023-cü ilin sentyabrında nə baş verib? Hazırda nə istəyirsiniz? Bu məqsədə necə nail olmaq olar? Guya, onların "aydın təklifi" bundan ibarət olub: beynəlxalq müşahidə altında Azərbaycanla hansısa qondarma qurum arasında dəyirmi masa formatında danışıqların keçirilməsi. Vontobel görüş zamanı belə bir vəd verdiyini deyib: "Mən İsveçrəyə qayıdacağam və nəsə etməyə çalışacağam. Onun sözlərinə görə, bundan sonra – 2024-cü ilin oktyabrında – İsveçrə Xarici İşlər Nazirliyinə "Qarabağ üçün sülh forumu: ermənilərin qayıdışına dəstək" adlı petisiya təqdim edib və bu təşəbbüs komissiya üzvlərinin əksəriyyəti tərəfindən dəstəklənib.

"Beynəlxalq Xristian Həmrəyliyi" təşkilatının rəhbəri Con Eybner də iddia edib ki, insan hüquqları məsələsi heç vaxt "bağlana bilməz". Onun sözlərinə görə, əgər bu gün, Qarabağ əhalisinin hüquqları pozulursa (?), sabah eyni hal sizin hüquqlarınızla da bağlı baş verə bilər və bunun guya, bir dövlət tərəfindən həyata keçirilməsi mümkündür.

*

Nominal olaraq konfederativ, əslində, 26 muxtar bölgədən – kantonlardan və yarımkantonlardan ibarət federal respublika olan İsveçrədə qanunverici hakimiyyəti iki palatalı Federal Məclis həyata keçirir. Federal Məclis Milli Şuradan və Kantonlar Şurasından ibarətdir və qanunvericilik prosesində hər iki palata bərabər səlahiyyətlərə malikdir. Milli Şurada 200 deputat təmsil olunur və onlar proporsional nümayəndəlik sistemi əsasında əhali tərəfindən dörd il müddətinə seçilirlər. Tez-tez İrəvana səfərlər edən və orada bizim ünvanımıza hədyanlar yağdıran Erix Vontobel də Milli Şuranın 200 üzvündən biridir.

Onun səsləndirdiyi fikirlərə gəldikdə isə qeyd etmək lazımdır ki, bu yanaşma ilk növbədə İsveçrə–Azərbaycan münasibətlərinin ruhuna ziddir. Vontebel bu cür fikirlər səsləndirməklə iki ölkənin əlaqələrinə xələl gətirir. Bu cür bəyanatlar xarici siyasətdə əbədi neytrallığı başlıca prinsip seçmiş rəsmi Bernin balanslı xətti ilə də uzlaşmır. Yeri gəlmişkən, qeyd edək ki, 1815-ci ildə keçirilən Vyana Konqresində Rusiya və digər Avropa dövlətləri İsveçrənin əbədi neytrallığının tanınması və təmin olunması, habelə onun ərazi toxunulmazlığı barədə razılığa gəliblər. Bu qərar həmin il Parisdə müvafiq aktın imzalanması ilə beynəlxalq-hüquqi müstəvidə təsbit olunub.

Əlbəttə, Vontobelin şəxsi mövqeyi İsveçrə parlamentinin ümumi iradəsi kimi təqdim oluna bilməz. Onun populist və birtərəfli yanaşmaları regionda sülh və etimad mühitinin formalaşmasına deyil, gərginliyin dərinləşməsinə xidmət edir. Üstəlik, reallıqdan uzaq iddialarla çıxış etmək beynəlxalq hüququn əsas prinsiplərinə hörmətsizlik anlamına gəlir. Amma erməni diasporunun, necə deyərlər, pul kisəsindən asılı olan belələri üçün hətta öz ölkələrinin maraqları da arxa plandadır. Bu cür fiqurlar obyektiv mövqe nümayiş etdirmək əvəzinə sifarişli ritorikaya üstünlük verirlər. Nəticədə şəxsi ambisiyalar və maliyyə maraqları beynəlxalq hüquq və ədalət prinsiplərindən daha önə çəkilir. Belə yanaşma nə sülhə xidmət edir, nə də real dialoq imkanlarını genişləndirir.

İsveçrəli parlamentarinin səsləndirdiyi fikirlər bir daha göstərir ki, o, regiondakı proseslərə nə obyektiv, nə də beynəlxalq hüquqa uyğun yanaşır. 2024-cü ilin oktyabrında onun, guya, Qarabağdan "zorla köçürülmüş" şəxslərlə görüşməsi və bu görüşü siyasi kampaniyasının əsas arqumentinə çevirməsi açıq şəkildə birtərəfli mövqedən xəbər verir. Daha maraqlısı odur ki, Vontobel hadisələrin səbəblərini, 30 il ərzində Azərbaycanın üzləşdiyi işğal, etnik təmizləmə və humanitar fəlakətləri görmək istəmir. Onun "üç əsas sual" ətrafında qurduğu yanaşma da mahiyyət etibarilə manipulyativdir. Çünki sualların özü əvvəlcədən siyasi nəticə çıxarmağa hesablanıb. Guya, qarşı tərəfin "aydın təklifi"nin beynəlxalq müşahidə altında Azərbaycanla hansısa "Artsax"



arasında dəyirmi masa danışıqları olması isə reallıqdan uzaqdır. Belə bir separatçı rejimin varlığına 2023-cü ilin payızında son qoyulub və bu cür ifadələrin işlədilməsi separatçılığın dolayısı ilə legitimləşdirilməsi cəhdidir. Vontobelin "İsveçrəyə qayıdıb nəsə etməyə çalışacağı" ilə bağlı vədi isə sonradan İsveçrə Xarici İşlər Nazirliyinə təqdim etdiyi petisiya ilə davam etdirilib. "Qarabağ üçün sülh forumu: ermənilərin qayıdışına dəstək" adlandırılan bu sənədin mahiyyəti diqqətlə incələndikdə onun sülhə yox, siyasi təzyiq mexanizminə xidmət etdiyi aydın görünür. Çünki burada Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və daxili işi olan məsələlər tamamilə kənarda saxlanılır. Ən təhlükəli məqam isə ondan ibarətdir ki, Vontobel kimi siyasətçilər reallığı təhrif edən tezislərlə regionda yenidən gərginlik yaratmağa çalışırlar. Halbuki dayanıqlı sülh yalnız beynəlxalq hüquqa hörmət, qarşılıqlı etimad və faktların təhrif olunmadan qəbul edilməsi əsasında mümkündür. Azərbaycanın atdığı addımlar məhz bu prinsiplərə söykənir və bunu görməzdən gəlmək nə sülhə, nə də ədalətə xidmət edir.

"Beynəlxalq Xristian Həmrəyliyi" təşkilatının rəhbəri Con Eybnerin səsləndirdiyi fikirlər də reallıqdan çox emosional və siyasi yönümlü yanaşmanı xatırladır. Onun "insan hüquqları heç vaxt bağlana bilməz" tezisi ümumi və cəlbedici səslənsə də, konkret Qarabağ kontekstində bu ifadə birtərəfli yanaşma üzərində qurulub. Çünki Eybner çıxışında illərlə işğal altında qalmış ərazilərdə azərbaycanlıların pozulmuş hüquqlarını, didərgin düşmüş yüz minlərlə insanın taleyini tamamilə görməzdən gəlir. "Bu gün Qarabağ əhalisinin hüquqları pozulursa" kimi iddialar isə sual doğurur. Hansı hüquqlardan söhbət gedir və bu hüquqlar hansı beynəlxalq sənədlə, hansı status əsasında müəyyənləşdirilib? Azərbaycanın öz suveren ərazisində həyata keçirdiyi tədbirləri "dövlət tərəfindən hüquq pozuntusu" kimi təqdim etmək açıq-aşkar təhrifdir və faktlara əsaslanmır.

Eybnerin "sabah eyni hal sizin hüquqlarınızla da bağlı baş verə bilər" tipli fikirləri isə qorxu yaratmağa hesablanmış ritorikadır. Bu cür müqayisələr nə hüquqi, nə də siyasi baxımdan əsaslıdır. İnsan hüquqları anlayışını siyasi alətə çevirmək onu müdafiə etmir, əksinə, bu anlayışın özünə zərər vurur. Əgər məqsəd doğrudan da hüquqların qorunmasıdırsa, yanaşma selektiv yox, universal olmalıdır.

Onu da bildirək ki, Ermənistan hakimiyyətinin ölkə ərazisində bu tip tədbirlərin keçirilməsinə imkan verməsi heç də yaxşı hal deyil. Çünki bu, sülhə xidmət etmir və gərginliyi diri saxlayır. Bu günə qədər İrəvanda separatçıların "nümayəndəliyinin" ləğvi məsələsi də həll edilməyib. Separatçı qurumun "nümayəndəlik" adı altında fəaliyyət göstərməsi açıq hüquq pozuntusudur. Bu, Ermənistanın öz öhdəliklərinə sadiq olmadığını göstərir. Belə addımlar revanşist dairələrə əlavə stimul verir. Bundan əlavə parlamentdə separatçı simvolların nümayişinə göz yumulur. Qanunverici orqanda bu cür simvolların nümayişi siyasi mesaj xarakteri daşıyır. Həmçinin, Birinci Qarabağ müharibəsi dövründə erməni silahlıları tərəfindən qətlə yetirilmiş azərbaycanlılara aid kütləvi məzarlıqların yerləri və mina xəritələri təqdim edilmir. Bu məlumatların gizlədilməsi humanitar hüquqa ziddir. Minatəmizləmə prosesinin ləngiməsi yeni qurbanlara səbəb olur. Bu, insan həyatına qarşı açıq laqeydlikdir.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan cəmiyyətinin "özünütəftiş"i



## III MƏQALƏ

### Media "savaş"ları və həssas mövzular

Bütün dünya üzrə insanların beyni və qəlbi uğrunda sərt mübarizənin getdiyinə şübhə yoxdur. KİV hazırda qlobal siyasəti və ya geosiyasəti korrektə edə biləcək informasiya bazasına və təsir mexanizmlərinə malikdir. Son nümunələrdən biri indi hər kəsin dilində olan "Epşteyn" olayıdır.

İnsanlar üçün sərvət, texnologiya, iqtisadi və maliyyə gücü sahibi, uğurlu iş qurmaq nümunəsi obrazında olan bir neçə məşhur adam haqqında zamanca çox qısa müddətdə media elə məlumatları meydana çıxardı ki, həmin "nümunəvi və uğurlu adamlar" haqqında fikirlər sürətlə neqativə doğru dəyişməyə başladı.

Bu, bir nümunə, ideal vətəndaş obrazı, mənəvi-əxlaqi dəyərlərə sahib olmaqla məşhur olmaq imkanları boşluğudur. Bütün dünya insanlarına təsir edə biləcək özəlliyi isə, ümumiyyətlə, "müasir dövrdə mənəviyyatlı, əxlaqlı, xeyirxah, fəzilətli olmağa dəyərmi?" kimi, çox təhlükəli suallarını yaratması ilə bağlıdır. Ümumiyyətlə, insanın öz mənəviyyatı, əxlaqı və mədəniyyətinə şübhəsinin oyanması olduqca təhlükəli tendensiyadır. Çünki bu zaman özlüyündə insanın həyata baxışı, inamı, mədəni olmağa əminliyi sarsıdıcı zərbə alır. Onun müxtəlif ölkələrdə və cəmiyyətlərdə təzahür forması da fərqli ola bilir.

Qlobal mühitdən gələn bu kimi antiəxlaqi, antimənəvi, antimədəni dalğalar başqa fəsadlarla yanaşı, antimilli ovqat formalaşdıra bilər. Fəqət bu cür mövqenin yaranması üçün hədəf seçilən topluma kənardan düşünülmüş və sistemli təsirlər də ola bilər. Cəmiyyətin müasir təkamül özəlliyi ilə tarixi-ənənəvi aparıcı faktorlar arasında yaradılan bu "qırıqlıq" cəmiyyət miqyasında total qeyri-müəyyənlik mühiti formalaşdıra bilər. Bunun fonunda toplumu müxtəlif yanlış istiqamətlərə "sürükləmək şansı"nın artmasını gözləyənlər vardır.

### 3 nəticə

Buradan ən azı üç mühüm nəticə çıxarmaq olar.

Birincisi, Azərbaycan Prezidentinin bu mövzuda öncəki məqalədə vurğuladığımız fundamental tezislərinin həyata keçməsi dövlətçilik və milli mövcudluq baxımından əhəmiyyətlidir. Yalnız onların məzmun və məqsəd işığında cəmiyyətin milli ləyaqəti saxlamaqla davamlı inkişafına (və tərəqqisinə) nail olmaq mümkündür.

İlk baxışdan bu tezis ümumi və mücərrəd fikir təsiri bağışlaya bilər. Lakin onun daxilində "özünütəftiş"in "özünüyenidənyaratmağa" aparan doğru yol vardır. Bu proses pilləlidir və onlar üzərində qəzet formatının imkan verdiyi çərçivədə dayanaq.

Hər şeydən öncə, Azərbaycan Prezidenti cəmiyyətin təməllərinin milli-ənənəvi faktorlar üzərində yeni tarixi şərtlərə uyğunlaşmasını təklif edir. Onun konkret parametrlərini də göstərir – ailə, məktəb və mədəni-mənəvi-əxlaqi varislik. Ailə və məktəb məhz mədəni-mənəvi-əxlaqi varisliyin kənardan çox güclü pozucu təsirlərin (informasiya, təbliğat, təşviqat xarakterli) olduğu şəraitdə belə səmərəli milli mövqenin formalaşmasını təmin etməlidir. Bu məqamda müasir dövr üçün çox güclü təsir vasitəsi sayılan media faktoru ön plana çıxır.

Yuxarıda vurğuladığımız ümumdünya miqyasında geosiyasi və siyasi situasiyanı ciddi dəyişə bilən informasiya "təxribatı" ilə yanaşı, transmilli şirkətlərin, xüsusi xidmət orqanlarının, müxtəlif marginal sosial kəsimlərin, separatçı-terrorçu xislətli dairələrin, özünü "dünya vətəndaşı" sayan xülyaçıların və sadəcə başqalarının uğurlarını özünün bədbəxtçiliyinin əsas səbəbi sayanların KİV-lərdə "öz təsiretmə payları"nın olmasını legitimlik səviyyəsində görməyə çalışmaları böyük fəsadlar verə bilir. Bütün bunların milli səviyyədə mənfi təsirə çevrilməməsinin qarşısını heç bir hakimiyyət direktivi və ya cəzası ala bilməz. Bunu üçün özünü dərk edən, milli mənsubluğunu söz və özünü göstərmək üçün təmtəraq vasitəsi kimi deyil, məsuliyyət və milli ləyaqətin başlıca faktoru olaraq görə bilən insanların formalaşması gərəkdir. Onun reallaşması mexanizmi kimi dövlət başçısının ailə-məktəb tərbiyəsinin vətənsevərlik və dövlətçilik sahələrində vəhdətdə olması təklifi və səsləni̇şi vacib məqamdır! Onu təşkil etmək mütləq lazımdır!

İkincisi, Azərbaycan KİV-i antimilli və antidövlətçi dairələrin pozucu fəaliyyətlərinin neytrallaşdırılması istiqamətində "özünütəftiş" etməlidir. Bu aspektdə fəaliyyətə dəvət və səsləniş dövlət başçısının media nümayəndələri ilə tez-tez canlı fikir mübadiləsində olması, Şuşa qlobal forumlarının təşkili və orada aktual məsələlərin müzakirəsinin təşkili, Azərbaycan Prezidentinin müxtəlif tədbirlərdə çıxışı zamanı konkret tezisləri irəli sürməsi və strateji xarakterli sənədlərdə milli, mənəvi, əxlaqi, ləyaqətli azərbaycanlı tərbiyəsi, vətənsevər gənclərin yetişdirilməsi kimi məsələlərə ayrıca yer verməsi çox əhəmiyyətlidir.

Üçüncüsü, "özünütəftiş"ə Türk dünyası konteksində baxmaq bir zərurətə çevrilmişdir. Bunun başlıca səbəbi soykök eyniliyi ilə yanaşı, müasir qlobal geosiyasi situasiyanın başlıca tələbləri ilə bağlıdır. İndi nəzəriyyəçilər və siyasi liderlər əmindirlər ki, çağdaş dövrdə ayrıca bir dövlətdən çox, dövlətlər qrupu rol oynayır. Bizim ailəmizin türk ailəsi olması avtomatik olaraq TDT-nin inkişafının çox müxtəlif istiqamətlərdə ön plana çıxarır.

Beləliklə, bütün bunların fonunda bir sıra KİV-də vurğulanan məqamların əksini təbliğ etməyə çalışanların hələ də mövcud olması çox təəccüb doğurur. Bir neçə nümunəyə baxaq.

### Bəzi nümunələr

Bütövlükdə türk dövlətlərinin əlaqələrinin həqiqi mənada inkişafında maraqlı olan media orqanı ayrı-ayrı türk ölkələrindən əsaslı müsbət cəhəti ifadə edən informasiyalar verməli, onları müsbət mənada təşviq etməlidir. Müxtəlif mövzularda yazılan analitik məqalələrdə türk dövlətlərinin şansları və uğurları obyektiv qiymətləndirilməlidir. Ancaq Türkiyə və Azərbaycan KİV-də bəziləri necə hərəkət edirlər?

Məsələn, Azərbaycanın hər hansı dövlətlə münasibətlərini antitürkiyə addımı kimi təqdim etməyə çalışırlar. Bu hal əsasən Türkiyə KİV-də özünü göstərir. Azərbaycanda isə bir sıra KİV orqanı vardır ki, Türkiyəni geosiyasətdə düşmənlərin təqdim etdikləri kontekstdə sivil dünya üçün təhlükə, onların fəaliyyətinə mane olan, sülh və barışa qarşı çıxan güc olaraq göstərməyə çalışırlar. Bu zaman sətiraltı həmin düşmən dairələrin müsbət təbliği və təşviqinə cəhd duyulur.

Digər istiqamət kimi hər hansı türk cəmiyyətində kütlə tərəfindən mənfi qarşılanan "faktlar"ın "obyektivliklə" verilməsi üsulundan ibarətdir. Burada insanların adi həyat tərzlərindən tutmuş, müxtəlif neqativ davranışların təbliğini görmək olar. Xüsusilə, ailə qurmaq fəlsəfəsi və məqsədlərini təhrif olunmuş, "qara ləkə" kimi təqdim etmək cəhdləri təkrar-təkrar verilir. Bu zaman daima türk cəmiyyətləri sivilliyə qarşı olan toplum kimi təqdim edilir.

Həmin sırada tarixin müxtəlif dönəmləri təhrif etmək, böyük şəxsiyyətlərin yalan əsasında obrazını yaratmaq, xalqın əsrlərdir əməl etdiyi mənəvi-əxlaqi kodları lağa qoymaq və s. kimi antimilli davranışları görə bilirik. Son zamanlar hətta Nizamiyə, Nəsimiyə, Füzuliyə cəfəng xülyalarla dil uzadanlar – saxta və qərəzli təftişçilər peyda olublar. Cənubi Azərbaycan ədəbiyyatını kimin təmsil etməsi ilə bağlı məsələ meydana çıxandan və onu həll edəndən sonra bu kimi saxta təftişçilik halları çoxalmışdır. Nizamini, Nəsimini, Füzulini dini məzhəb qabığına sıxışdırmaq xülyasına düşənlərin nə dərəcədə, qəzəbli, qərəzli və zavallı olduqları hiss edilir.

Bir başqaları Azərbaycan xalqının bütün milli-mənəvi dəyərlərini unudaraq insanların şəxsi həyatı haqqında böyük günah sayıla biləcək informasiyalar yaymağa çalışırlar və bu saxta ittihamları milli məsələ kimi təqdim etməyə cəhdlər göstərirlər.

Beynəlxalq arenada Azərbaycanın uğurlarını sətiraltı antitürkiyə xarakterli olay kimi "izah etməyə" cəhdlər göstərirlər və əksinə, Ankaranın hər hansı uğurunun arxasında antiazərbaycan məqamını "arqumentlərlə" axtarırlar.

Qlobal təşkilatlar qlobal ÜDM-də Türkiyənin ciddi rolunu rəqəmlərlə göstərirlər, məsələn, ABŞ-ın qlobal ÜDM-də göstəricisi 9 faizdən bir qədər çoxdursa, qardaş dövlətin dünya ÜDM-də payı 2,2 faizi təşkil edir. Yəni bu kateqoriyada olan 5-6 dövlətdən biri Türkiyədir. Türkiyənin və bizim bir sıra KİV orqanı isə az qala Türk iqtisadiyyatının tam çökdüyündən bəhs edir, onun çox mənfi təbliğatını aparmağa çalışırlar.

Bütün bunlara necə reaksiya verməliyik?

### Arqumentsizləşdirmə

Əlbəttə, Azərbacyan sivil milli dövlət kimi bütün bu olaylara laqeyd qala bilməz. Cəmiyyət olaraq da əks tədbirlərini görməlidir. Arqumentsizləşdirmə bunun üçün səmərəli ola bilər. Yəni qarşı tərəfin cəfəng pozucu fəaliyyətini cəmiyyətin inkişafında ciddi uğurlar əldə etməklə neytarllaşdırmaq olar. Bu prosesin bir tərəfi hakimiyyətin uğurlu fəaliyyətinə bağlıdırsa, digər aspekti ziyalıların, sənət adamlarının, media təmsilçilərinin fəallığı ilə əlaqəlidir. Hakimiyyət cəmiyyətdə sosial ədaləti daha yüksək səviyyədə təmin etməyə üstünlük verməlidir.

Ziyalılar əsaslı tarixi faktlarla Azərbaycan kimliyinin obyektiv obrazını yaratmaqda daha böyük addımlar atmalıdırlar. Bu baxımdan azərbaycançılıq əsasında azərbaycanşünaslığın inkişafı zərurəti bir daha aydın görünür.

KİV isə bütövlükdə türk dövlətləri cəmiyyətinin müsbət cəhətlərini daha çox təbliğ etməlidir. Bu, hər bir türk dövlətinə aid mütləq şərtdir. Yəni yalnız rəsmi orqanların qadağaları və məhdudlaşdırıcı addımlarına ümid etmək böyük səhvdir.

Onu vurğulayaq ki, türk dövlət başçıları son dərəcə fəal, təşəbbüskar və birlik məsələsində səmimidirlər. Xüsusilə, Azərbaycan Prezidentinin töhfələri ölçüyəgəlməzdir! İlham Əliyev bu istiqamətdə həm konseptual, həm də praktiki addımlar aspektlərində şəksiz liderdir! Azərbaycan Prezidenti qədər cəmiyyətlə qarşılıqlı təmaslar quran ikinci türk lider yoxdur. Bununla Azərbaycan Prezidenti qarşı tərəfi arqumentsizləşdirmənin çox gözəl və uğurlu nümunəsini göstərir.

Müxtəlif qurumlar, informasiya vasitələri, təşkilatlar və vətəndaşlar daha fəal milli mövqe tutmalıdır. Hazırda dövlət başçısının müxtəlif mənfi hallara qarşı atdığı qətiyyətli addımların fonunda məsələyə ictimaiyyət tərəfindən dəstəyin artırılması çox vacib iş kimi görünür.

Bir məqamı da vurğulamaq gərəkdir. Müasir qloballaşma şəraitində ayrıca bir müstəqil ölkənin çox sayda faktorları nəzərə alması şübhəsizdir. Cəmiyyətin idarə olunması və toplumun "özünütəftişi" kimi məsələlərdə də müxtəlif maneələrin qarşıya çıxması qaçılmazdır. Ona görə də ideal idarədən və ya ideal özünütəftişdən danışmaq mümkünsüzdür. Burada əsas olanı cəmiyyətlə iqtidarın birliyi və toplumun müstəqil olmaq üçün ciddi fədakarlığa hazırlığından ibarətdir. Cəmiyyət bu anlamda qətiyyətli və möhkəm iradəlidirsə, heç bir əngəl onun yolunu kəsə bilməz.

Həmin mənada "özünütəftiş" özünü bütövləşdirmənin əsas funksiyalarından biri kimi təsdiqini tapa bilər. Cəmiyyət "özünütəftişi" elə bir daxili tələbat prosesinə çevirə bilər ki, həm yüksək funksionallığını saxlasın, həm də toplumun kimliyi, identikliyi və strateji məqsədləri ilə dövlətin kimliyi, identikliyi və strateji məqsədləri tam uyğunluğu təmin olunsun. "Özünütəftiş" bu anlamda cəmiyyətlə hakimiyyətin daim uzlaşma prosesi, müstəqillik kimliyini qorumaq mexanizmlərindən biri kimi aktuallıq mövqeyini saxlaya bilər.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Hindistan Ermənistanda nə axtarır?

**Hindistanın Müdafiə Qərargahının rəisi, general Anil Çauhan İrəvana səfər etdi və Ermənistanın müdafiə naziri Suren Papikyan ilə görüşdü. Bu, Hindistanın ali hərbi rəhbərliyini təmsil edən bir şəxsin Ermənistana ilk səfəridir və görüş təkcə rəsmi diplomatik çərçivədə qalmayıb. Tərəflər təhlükəsizlik, hərbi-texniki əməkdaşlıq və uzunmüddətli tərəfdaşlığın inkişafını müzakirə ediblər. Görüş zamanı hər iki tərəf əməkdaşlığı dərinləşdirmək və tədarük olunan sistemlərin real istismarını təmin etməkdə maraqlı olduqlarını bildiriblər.**



Bu səfərə qədər Hindistan və Ermənistan arasında bir sıra hərbi müqavilələr imzalanıb. Son iki ildə bu sahədə ümumi dəyəri 1,5 milyard dolları ötən müqavilələr həyata keçirilib və silahların bir hissəsi artıq Ermənistana çatdırılıb. Perspektivdə bu rəqəmin 2 milyard dollara qədər yüksəlməsi gözlənilir.

Tədarüklər yalnız silah satışı ilə məhdudlaşmır. Müqavilələr çərçivəsində birgə təlimlər, şəxsi heyətin hazırlanması, texnikanın istismarı, hərbi obyektlərin yoxlanılması və müdafiə sənayesi sahəsində mümkün kooperasiya məsələləri də nəzərdə tutulub. Bu, səfərin, sadəcə, formal xarakter daşımadığını və konkret razılaşmaların icrasına yönəldiyini göstərir.

Beləliklə, Rusiyadan gözlədiyi hərbi dəstəyi və müasir silahları ala bilməyən İrəvan üçün Hindistan faktiki olaraq alternativ "təhlükəsizlik dayağı"na çevrilib. Lakin Ermənistan bu seçimlə öz milli təhlükəsizliyini real döyüş şəraitində geniş sınaqdan keçməmiş silah sistemlərinə bağlamış olur. Hindistan üçün isə Ermənistan sırf kommersiya tərəfdaşı deyil, həm də silahlarının təbliği üçün imkandır. Məsələn, Yeni Dehli bu ölkəni silahlandırmaqla bir neçə strateji hədəfi eyni vaxtda reallaşdırmağa çalışır: hərbi sənayesini qlobal bazara çıxarmaq, Türkiyə və Pakistanın regiondakı təsirini balanslaşdırmaq və öz silahlarını real münaqişə zonasına yaxın mühitdə "vitrin" kimi təqdim etmək.

Bu əməkdaşlıqda zəif nöqtələr də var. Bu, ilk növbədə, logistika məsələsidir. Dənizə çıxışı olmayan və qonşuları ilə gərgin münasibətlər yaşayan Ermənistan Hindistan silahlarının çatdırılmasında tam şəkildə İran marşrutundan asılı vəziyyətdədir. Bu "təchizat dəhlizi" beynəlxalq sanksiyalar, regional gərginliklər və Tehranın xarici siyasətindəki mümkün dəyişikliklər fonunda son dərəcə həssasdır. Məhz bu riskləri azaltmaq məqsədilə tərəflər artıq bəzi komponentlərin Ermənistan ərazisində istehsalı, birgə müəssisələrin yaradılması və texniki xidmət mərkəzlərinin qurulması imkanlarını müzakirə edirlər. Ermənistan da bunda maraqlıdı görünür. Silahların təyyarə ilə daşınması əlavə xərc yaradır.

General Çauxanın İrəvana səfəri göstərdi ki, Hindistan Cənubi Qafqazda müvəqqəti oyunçu olmaq niyyətində deyil və Ermənistanın təhlükəsizlik arxitekturasında yaranmış boşluqları doldurmağa çalışır. Bu proses dərinləşdikcə regionda hərbi-siyasi balans daha mürəkkəb və çoxqatlı xarakter alır.

Bu fonda Azərbaycan regionun əsas güc mərkəzi kimi mövqeyini daha da möhkəmləndirib. 2020-ci il Vətən müharibəsindən sonra ölkənin hərbi potensialı və diplomatik nüfuzu əhəmiyyətli dərəcədə artıb. Ölkəmiz regional nəqliyyat infrastrukturunun əsas qovşağına çevrilib və strateji mövqeyini gücləndirib. Bakı regionda sülhün, təhlükəsizliyin və iqtisadi inteqrasiyanın tərəfdarıdır.

Hindistanın Ermənistana silah tədarükü isə bu müsbət dinamika ilə ziddiyyət təşkil edir və regionda qeyri-sabitlik risklərini artırır. Xüsusilə Narendra Modi hakimiyyəti dövründə Hindistanın Azərbaycana münasibətində müşahidə olunan soyuqluq Bakı–İslamabad strateji tərəfdaşlığı ilə əlaqələndirilir. Halbuki Azərbaycan Kəşmir münaqişəsinin tərəfi deyil və hər zaman qarşılıqlı faydalı əməkdaşlıq xəttini əsas götürüb.

Şübhəsiz ki, Azərbaycan da bu çağırışlara qarşı həm hərbi, həm də strateji müstəvidə kompleks cavab tədbirləri həyata keçirir. Bakının yanaşması "keyfiyyət üstünlüyü" və "çoxşaxəli arsenal" prinsipinə əsaslanır. Ermənistanın Hindistandan aldığı sistemlərə qarşı Azərbaycan ordusu real döyüşlərdə sınaqdan keçmiş, daha geniş imkanlara malik silahlarla təchiz olunub. İsrail və Türkiyə texnologiyalarına əsaslanan HHM, PUA və raket sistemləri Azərbaycanın hava və zərbə üstünlüyünü qoruyur. Pakistanla hərbi-texniki əməkdaşlıq çərçivəsində əldə edilən müasir qırıcılar isə bu üstünlüyü daha da möhkəmləndirir.

Bununla bağlı **politoloq Yeganə Hacıyeva** XQ-yə bildirdi ki, General Anil Çauhanın Ermənistana rəsmi səfəri ilə bağlı məlumatların məhdudluğuna baxmayaraq, bu, sırf protokol qaydası kimi qiymətləndirilə bilməz: "Son illər Ermənistanın Hindistandan intensiv şəkildə silah və hərbi texnika alması fonunda bu səfər hərbi-texniki əməkdaşlığın dərinləşdirilməsi ilə bağlıdır. Faktlar göstərir



ki, 2022–2024-cü illər ərzində Ermənistan Hindistan müdafiə sənayesinin istehsal etdiyi silahların təxminən 43 faizini satın alıb. Bu, Ermənistanı Hindistan üçün strateji əhəmiyyətli ixrac bazarına çevirib. Xüsusi diqqət çəkən məqam ondan ibarətdir ki, Ermənistana tədarük edilən "Akash" HHM sistemləri, ATAGS haubitsaları və MArG 155 özüyeriyən artilleriya qurğularının bir hissəsi real döyüş şəraitində sınaqdan keçirilməyib. Bu isə iki qənaət yaradır. Birincisi, Ermənistan öz təhlükəsizliyini hələ tam təsdiqlənməmiş texnologiyalara bağlayır. İkincisi, Hindistan faktiki olaraq Ermənistandan yeni silah sistemləri üçün sınaq poliqonu kimi istifadə edir.

Hindistan üçün bu əməkdaşlıq aydındır: Dehli müdafiə ixracını artırır, məhsullarını real istismar şəraitində nümayiş etdirir və geosiyasi baxımdan Türkiyə–Azərbaycan–Pakistan xəttinə qarşı dolayısı balans elementi formalaşdırır. Ermənistan isə bu strategiyada alıcıdan daha çox "vitrin" rolunu oynayır.

Regional təhlükəsizlik prizmasından yanaşdıqda Ermənistanın silahlanması Cənubi Qafqazda etimad mühitini gücləndirmir, əksinə, bu proses hərbi risklərin artmasına zəmin yaradır. Xüsusilə də Ermənistanın qonşularından heç birinin ona qarşı açıq hərbi təhdid irəli sürmədiyi bir şəraitdə".

Beləliklə, Ermənistan–Hindistan hərbi-texniki əməkdaşlığı İrəvan üçün alternativ mənbə kimi təqdim olunsa da, onun real dəyəri və təhlükəsizlik effekti açıq sual olaraq qalır. Sınaqdan keçməmiş silah sistemlərinə güvənmək və regionda həssas balansı dəyişmək Ermənistanın uzunmüddətli strateji maraqlarına uyğun olmaya bilər. Azərbaycanın artan hərbi gücü, iqtisadi layihələri və strateji mövqeyi bu ambisiyaları balanslaşdırmaq potensialına malikdir. Cənubi Qafqazda uzunmüddətli sabitlik və təhlükəsizliyin təmin olunması üçün Azərbaycanın maraqları nəzərə alınmadan atılan istənilən addım yeni geosiyasi risklər doğura bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Oman görüşü: Dünya İran–ABŞ danışıqlarını ümidlə izləyir

**İran mümkün yeni hərbi zərbələr riskinin artdığı bir şəraitdə ABŞ ilə nüvə danışıqlarını bərpa etməyə ilkin razılıq verib. Bu, ötən ilin yayında Tramp administrasiyası tərəfindən İranın üç nüvə obyektinə endirilən zərbələrdən sonra tərəflər arasında dialoqa yönəlmiş ilk ciddi addım kimi qiymətləndirilir. Məlumata görə, Tehran danışıqlara əsasən növbəti hərbi eskalasiyadan yayınmaq məqsədilə razılıq verib.**

Məsələ ilə tanış olan mənbələrin CNN-ə bildirdiyinə görə, danışıqların Oman ərazisində keçirilməsi planlaşdırılır. Ağ Ev daha əvvəl açıqlamışdı ki, İranın görüşün məkanı və formatı ilə bağlı irəli sürdüyü dəyişiklik tələblərinə baxmayaraq, ABŞ tərəfi diplomatik prosesi davam etdirmək niyyətindədir. Bununla yanaşı, Vaşinqton diplomatik səylərin nəticə verməyəcəyi təqdirdə hərbi variantın gündəmdə qalacağını da açıq şəkildə bəyan edir.

İlkin olaraq ABŞ-ın xüsusi elçisi Stiv Vitkoffun və Prezident Donald Trampın kürəkəni Cared Kuşnerin İranın xarici işlər naziri Abbas Araqçi ilə İstanbulda görüşü nəzərdə tutulurdu. Lakin Tehran danışıqların başqa məkana keçirilməsi, regional iştirakçıların kənarda saxlanılması və gündəliyin yalnız nüvə proqramı ilə məhdudlaşdırılması tələblərini irəli sürdükdən sonra bu plan dəyişdirilib. Sonradan ABŞ tərəfi görüşün Omana köçürülməsi təklifini qəbul edib.

İran Prezidenti Məsud Pezeşkian bildirib ki, Tehran danışıqların tərəfdarıdır, lakin bunun üçün müəyyən şərtlərin təmin olunmasını vacib sayır. Onun sözlərinə görə, müzakirələr təhdidlərdən və əsassız gözləntilərdən uzaq, qarşılıqlı hörmət və bərabərhüquqlu prinsiplər əsasında aparılmalıdır. Pezeşkian həmçinin qeyd edib ki, danışıqlara bölgədəki dost dövlətlərin təşəbbüsü ilə razılıq verilib və proses İranın milli maraqları çərçivəsində aparılacaq. Bununla belə, İranda yekun qərarların ali lider Ayətullah Əli Xameneinin səlahiyyətində olduğu vurğulanır. Xamenei son çıxışında ABŞ-ı xəbərdar edərək İrana qarşı istənilən



hərbi zərbənin regionda genişmiqyaslı münaqişəyə səbəb ola biləcəyini bildirib.

Diplomatik gərginliyin fonunda regional aktorlar münaqişənin qarşısını almaq üçün fəallıq göstərməyə başlayıblar. Qətər, Türkiyə və Misir vasitəçilik səylərində ön plana çıxır. Türkiyə ABŞ və İran arasında birbaşa danışıqlara ev sahibliyi etməyi təklif edib. Bununla yanaşı, Misir, Oman, Pakistan, Qətər, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) diplomatik kanallar vasitəsilə prosesə cəlb olunması müzakirə edilir. BƏƏ regionun yeni ABŞ – İran müharibəsinə hazır olmadığını bildirərək diplomatik həllin vacibliyini vurğulayıb. ABŞ Prezidenti Donald Tramp isə açıqlamalarında İran tərəfinin danışıqlara ciddi yanaşdığını qeyd edib.

Xatırladaq ki, 2025-ci ilin aprel və may aylarında ABŞ və İran arasında bir neçə dolayı danışıqlar raundu keçirilmişdi. Hazırkı razılaşma danışıqların yenidən bərpası üçün yeni cəhd kimi qiymətləndirilir. Axios və Reuters agentliklərinin məlumatına görə, ABŞ – İran nüvə danışıqlarının fevralın 6-da Omanda keçirilməsi gözlənilir. ABŞ administrasiyası İranın görüşün Türkiyədən Omana keçirilməsi və gündəliyin yalnız nüvə məsələləri ilə məhdudlaşdırılması tələblərini qəbul edib. Regional ölkələrin prosesdə iştirakı isə hələlik müzakirə mərhələsindədir.

Ağ Evin mətbuat katibi Kerolin Livitt bildirib ki, ABŞ-ın xüsusi elçisi Stiv Vitkoff bu həftə İran tərəfi ilə danışıqlara hazırlaşır və proses hələ də plan üzrə davam edir. O, eyni zamanda, vurğulayıb ki, Prezident Trampın İranla bağlı masada müxtəlif variantları mövcuddur və hərbi güc tətbiqi də istisna edilmir.

***S.ELAY***
***XQ***

# Azərbaycanın strateji valyuta ehtiyatları 85 milyard dolları ötüb

**Dünən Azərbaycan Respublikası Mərkəzi Bankında faiz dəhlizinin parametrlərinə dair qəbul edilmiş qərarının açıqlanmasına həsr olunmuş mətbuat konfransı keçirilib.**



Mərkəzi Bankın sədri Taleh Kazımov bildirib ki, 2026-cı ildə Azərbaycanda iqtisadi artımın 2,4 faiz, qeyri-neft-qaz sektoru üzrə isə 4 faiz olacağı proqnozlaşdırılır. Onun sözlərinə görə, 2027-ci ildə ölkədə ÜDM-in 2,9 faiz, qeyri-neft-qaz sektoru üzrə isə 4,3 faiz təşkil edəcəyi gözlənilir. Bu isə illik əsasda 19,8-20 faiz artım deməkdir.

Qeyd olunub ki, ötən il Azərbaycanın ümumi strateji valyuta ehtiyatları 14 milyard dollar artaraq 85,1 milyard dollara çatıb. Bunun da 11,5 milyard dolları Mərkəzi Bankın payına düşür.

T.Kazımov bildirib ki, 2025-ci ildə Azərbaycanın xarici ticarət tərəfdaşlarındakı inflyasiya ölkədə qeydə alınmış inflyasiyaya 2,91 faiz bəndi artırıcı təsir edib. Bundan başqa, il ərzində kənd təsərrüfatı istehsalçılarının qiymət indeksinin inflyasiyaya 2,69 faiz artırıcı təsiri qeydə alınıb. Yeri gəlmişkən, Mərkəzi Bankın yenilənmiş proqnozlarına əsasən, illik inflyasiyanın 2026-cı ildə 5,5 faiz, 2027-ci ildə isə 4 faiz təşkil edəcəyi gözlənilir.

Azərbaycan hökumətinin və siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində ölkəmizin, demək olar ki, qlobal iqtisadi müharibədən kənarda qaldığını vurğulayan T. Kazımov deyib: “Biz birbaşa təsir görmürük. Amma dolayısı təsir–həmin müharibədə iştirak edən ölkələrdə inflyasiyanın artımının bizim idxal edəcəyimiz malların qiymətlərinə təsiri ola bilər. Azərbaycan Mərkəzi Bankı olaraq bu məsələləri daim diqqət mərkəzində saxlayırıq. Təkcə bizim deyil, bütün ölkələrin mərkəzi banklarının bu tip inflyasiya ilə mübarizə aparmaq üçün alətləri çoxdur. Amma yenə də düşünürük ki, qlobal ticarətdə olan proseslər bizim ticarət tərəfdaşlarımızda inflyasiyanın artımına təsir edəcək”.

Diqqətə çatdırılıb ki, hazırda Azərbaycanda uçot dərəcəsinin manatla yerləşdirilən depozit və manatla verilən kredit faizlərinə təsiri getdikcə daha çox hiss olunur. Rəhbərlik etdiyi qurumun bu təsiri qiymətləndirdiyini bildirən T.Kazımov əlavə edib ki, 2024-cü ildə Mərkəzi Bankın yeni monetar siyasət çərçivəsinin son mərhələsi başlanandan bəri uçot dərəcəsi siyasət aləti kimi tətbiq edilir. “Məsələn, son 6 ayda uçot dərəcəmizi aşağı salmışıq. Bunun nəticəsində fiziki şəxslərin manatla müddətli yeni depozitləri üzrə orta faiz 0,11 faiz bənd azalaraq 9,5 faizə, hüquqi şəxslərin müddətli yeni depozitləri üzrə orta faiz isə 0,78 faiz bəndi azalaraq 5,87 faizə düşüb”.

Mətbuat konfransında, həmçinin cari ilin əməliyyatlar balansı ilə bağlı məlumat verilib. Bildirilib ki, bu istiqamətdə proqnoz orta müddət üçün müsbətdir. Belə ki, 2026-cı ildə cari ilin əməliyyatlar balansı profisitinin 2,8-3 milyard dollar səviyyəsində olacağı proqnozlaşdırılır. Gələn il isə əməliyyatlar balansı profisitinin 2,7–2,8 milyard dollar təşkil edəcəyi gözlənilir.

Ötən il valyuta bazarında təklifin tələbi üstələdiyini diqqətə çatdıran Mərkəzi Bank sədrinin sözlərinə görə, orta hesabla bir hərracda təklif 70 milyon dollar olduğu halda, tələb 54 milyon dollar olub. Qeyd olunub ki, yanvar ayında əhalinin dollar alışında son 3-4 ilin ən aşağı nəticəsi qeydə alınıb ki, bu da 18 milyon dollar təşkil edib. T. Kazımov onu da bildirib ki, il ərzində hətta Azərbaycan Dövlət Neft Fondu dövlət büdcəsi qarşısında öhdəliyinin bir hissəsini dollarla yerinə yetirib: “Həmin məbləği manata, avroya, funt sterlinqə də çevirə bilərsiniz. Biz buna “yastıq altındakı vəsait” deyə bilərik. Əsas məqsədimiz odur ki, o pullar real sektora gəlsin, ölkə iqtisadiyyatına yönəlsin”. Xatırladaq ki, ötən il Azərbaycandakı mübadilə şöbələrində nağd xarici valyutanın alışı satışını 423 milyon ABŞ dolları üstələyib. Yeni monetar siyasətin nəticəsi olaraq ötən il unikal əmanətçilərin sayı 2024-cü illə müqayisədə 81,3 faiz artıb. Belə ki, 2024-cü ilin sonunda ölkə üzrə unikal əmanətçilərin sayı 106 min nəfər təşkil etdiyi halda, bu göstərici keçən ilin müvafiq dövrünə 190 mini ötüb. Bununla da, son 30 il ərzində formalaşan, təxminən, 100 minlik əmanətçi bazası cəmi 2 il ərzində iki dəfə artım nümayiş etdirib.

Maliyyə sektorunun dayanıqlılığının təmin edilməsi üçün likvidliliyin örtülməsi əmsalının tətbiq edildiyini bildirən T.Kazımovun sözlərinə görə, bu da banklara tələb gətirdi ki, daha çox müddətli depozitlərin cəlb edilməsi ilə məşğul olsunlar: “Sistem əhəmiyyətli bankların depozit faizləri 6 faiz həddində idi. Likvidliliyin örtülməsi əmsalı və faiz xərclərinə ədalətlilik prinsipi tətbiq edildikdən sonra bankların faiz xərcləri artdı. Bu islahatların nəticəsi olaraq 2024-cü ildə müddətli depozitlərin həcmi 1,8 milyard manat, ötən il isə 2,3 milyard manat artıb”.

Hazırda Azərbaycanda konkret sahə üzrə fəaliyyət göstərən banklara ehtiyac olmadığını xatırladan T.Kazımov deyib ki, ölkəmizdə aqrar sahədə bankçılıqla bağlı təcrübə olub. “Hazırda banklarımızın əksəriyyəti universaldır, mən düşünmürəm ki, bazarda sahəvi banka tələbat var. Bizim istəyimiz odur ki, banklararası rəqabət artsın. Bəlkə də gələcəkdə hansısa banklar müəyyən sahələri hədəf götürəcəklər, məsələn, ancaq ipoteka kreditləşməsi ilə məşğul olacaqlar. Amma bu gün bildiyim qədər belə banklara ehtiyac yoxdur”,– deyə o əlavə edib.

Sonda jurnalistlərin çoxsaylı sualları cavablandırılıb.

***M.YAQUBZADƏ***
***XQ***

# “Elektron Rəqabət İnformasiya Sistemi” istehlak bazarında şəffaflığı yüksəldəcək

**Rəqabət mühitinin qorunması və istehlak bazarında şəffaflığın təmin edilməsi müasir iqtisadi idarəetmənin əsas dayaqlarından biri kimi çıxış edir. Xüsusilə təbii inhisar subyektlərinin fəaliyyətinin səmərəli tənzimlənməsi, dövlət nəzarətinin rəqəmsal alətlər üzərindən gücləndirilməsi bu sahədə yeni yanaşmaların formalaşmasını zəruri edir. Məhz bu kontekstdə “Elektron Rəqabət İnformasiya Sistemi”nin yaradılması rəqabət siyasətinin institusional və texnoloji əsaslarının möhkəmləndirilməsi baxımından mühüm addım kimi qiymətləndirilir.**



Yeni sistem rəqabət münasibətlərinin monitorinqini daha çevik, məlumatların toplanması və təhlilini isə daha dəqiq mexanizmlər üzərindən həyata keçirməyə imkan yaradır. Eyni zamanda, dövlət–biznes–istehlakçı münasibətlərində açıq informasiya mühitinin formalaşdırılması, qərarların qəbulunda obyektivliyin artırılması və preventiv nəzarət mexanizmlərinin gücləndirilməsi bu təşəbbüsün əsas hədəfləri sırasında yer alır.

Bu və digər aktual məsələlərə aydınlıq gətirmək, “Elektron Rəqabət İnformasiya Sistemi”nin yaradılmasının əsas məqsədləri, üstünlükləri və gələcək perspektivləri barədə dolğun məlumat almaq üçün Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Təbii inhisarlara dövlət nəzarəti şöbəsinin müdiri Şəmsi Rzalı ilə həmsöhbət olduq.

***–“Elektron Rəqabət İnformasiya Sistemi”nin yaradılmasının əsas məqsədi nədir və bu sistem ənənəvi rəqabət nəzarəti mexanizmlərindən hansı əsas cəhətlərinə görə fərqlənir?***

–Elektron Rəqabət İnformasiya Sisteminin (ERİS) yaradılmasının hüquqi əsasları Azərbaycan Respublikası Prezidentinin 09 iyul 2024-cü il tarixli 133 nömrəli Fərmanı ilə müəyyən edilib. Fərmanda rəqabət və istehlakçıların hüquqlarının qorunması sahələrində idarəetmənin təkmilləşdirilməsi, görülən işlərin səmərəliliyinin artırılması, habelə vahid informasiya sistemi üzərindən xidmətlərin göstərilməsini təmin etmək məqsədilə ERİS-in yaradılması nəzərdə tutulub.

Rəqabət və istehlakçıların hüquqlarının müdafiəsi sahələrində istehlakçıların və bazar subyektlərinin müraciətlərinin qəbulu, emalı, onlara əlavə edilməli olan sənəd və məlumatların real vaxt rejimində digər dövlət orqanlarından sorğu əsasında əldə olunması, həmin müraciətlərə dair qərar və məlumatların elektron qaydada təqdim edilməsinin ERİS vasitəsilə həyata keçirilməsi də müvafiq Fərmanda öz əksini tapıb. Bu, qeyd olunan sahələrdə məlumatların istifadəçilər üçün əlçatanlığını təmin etməyə yönəlib.

Ölkə başçısının 26 yanvar 2026-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Elektron Rəqabət İnformasiya Sistemi haqqında Əsasnamə” ilə isə ERİS-in fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsasları müəyyən edilib. Əsasnamədə ERİS-in yaradılmasının məqsədləri, onun texniki-texnoloji infrastrukturu, altsistemləri və digər mühüm məsələlərə dair tələblər əks olunub.

Əsasnaməyə görə, ERİS müvafiq sahədə tənzimləmə və nəzarətin həyata keçirilməsi, analitik təhlil və hesabatların hazırlanması ilə bağlı proseslərin rəqəmsallaşdırılması, səmərəliliyinin artırılması, habelə xidmətlərin göstərilməsində əlçatanlığın, şəffaflığın və operativliyin təmin edilməsi məqsədilə yaradılır. ERİS-in sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi həyata keçirir.

ERİS rəqabət sahəsində effektiv tənzimlənmə və dövlət nəzarətinin səmərəli həyata keçirilməsi istiqamətində atılmış mühüm addımlardandır. Bu informasiya sistemi tənzimləyici ilə bazar subyektləri arasında sənədləşmənin optimal qaydada, kağızsız sənəd dövriyyəsi əsasında həyata keçirilməsini təmin edəcək. Müvafiq sahədə məlumatların toplanması, emalı və mübadiləsinin vahid elektron platforma üzərindən icrası subyektlər arasında operativ məlumat axınına şərait yaradacaq. Bu isə qərar qəbuletmə proseslərinin və ümumi koordinasiyanın gücləndirilməsinə imkan verəcək. Elektron mexanizmlərin tətbiqi ilə rəqabət pozuntularının aşkarlanması və təhlilində risk əsaslı yanaşmanın formalaşdırılması sürətlənəcək.

Elektron Rəqabət İnformasiya Sistemi haqqında Əsasnamədə məlumatların təhlükəsizliyi, məxfiliyi və istifadəsi ilə bağlı tələblərin müəyyən edilməsi sözügedən informasiya sisteminin etibarlılığını təmin edən əsas amillərdəndir. Bu sənəd rəqabət sahəsində dövlət nəzarətinin rəqəmsallaşdırılması və inzibati proseslərin sadələşdirilməsi baxımından da strateji əhəmiyyət daşıyır. ERİS-in analitik imkanları isə bazarların monitorinqinin daha sistemli və davamlı aparılmasına şərait yaradacaq. ERİS-in tam fəaliyyətə başlaması nəticəsində rəqabət tənzimləmələri ilə bağlı əhəmiyyətli statistik məlumatlar bazası formalaşacaq ki, bu da öz növbəsində rəqabət orqanının məlumat (data) əsaslı qərarlar qəbul etməsinə imkan yaradacaq.

***–“Elektron Rəqabət İnformasiya Sistemi” vasitəsilə hansı xidmətlər göstəriləcək və bu xidmətlərdən kimlər faydalana biləcəklər?***

–ERİS “Təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarəti”, “Təsərrüfat subyektlərinin təmərküzləşməsinə dair müraciət”, “Antidempinq”, “İstehlakçı” və “Digər müraciətlər” altsistemlərindən ibarət olacaq. Bu altsistemlər vasitəsilə üfüqi və şaquli sazişlərin, uyğunlaşdırılmış hərəkətlərin, o cümlədən kartel tipli münasibətlərin təsbit edilməsində böyük məlumat bazasının formalaşdırılması və iqtisadi təhlillərin daha sürətli həyata keçirilməsi mümkün olacaq. Eyni zamanda, istehlakçı hüquqlarının daha funksional müdafiəsi üçün analitik imkanlar genişlənəcək.

ERİS üzərindən ölkə ərazisində yaşayan bütün vətəndaşlar, hüquqi və fiziki şəxslər, xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslərin müraciətlərinin qəbulu həyata keçiriləcək. ERİS istifadəçilərdən daxil olan ərizələrin çevik qiymətləndirilməsinə, əlavə sənəd və məlumatların qısa müddət ərzində əldə edilməsinə şərait yaradacaq.

İnformasiya sistemindən istifadə nəticəsində razılıq alınmalı hərəkətlər, əsas vəsaitlərin istifadəsi, müqavilələrin rəqabət qanunvericiliyinə uyğunluğu, yeni fəaliyyət sahələrinə başlanması və investisiyaların ayrılması kimi əməliyyatlar, o cümlədən rüblük maliyyə hesabatlarının elektron qaydada izlənilməsi təmin olunacaq.

ERİS-in “İstehlakçı” altsistemi vasitəsilə istehlakçıların hüquqlarının pozulması ilə bağlı müraciətlərin və onlara əlavə edilməli olan sənədlərin qəbul edilməsi, emalı və həmin müraciətlərə dair qərarların və məlumatların elektron qaydada təqdim edilməsi də nəzərdə tutulur. Bu altsistem vasitəsilə istehlakçılar hüquqlarının pozulması ilə bağlı müraciətlərini onlayn formada təqdim edə, müraciətlərinə zəruri sənədləri elektron şəkildə əlavə edə, müraciətin icra vəziyyətini real vaxt rejimində izləyə, qəbul edilmiş qərar və məlumatları elektron formada əldə edə biləcəklər. Sistem daxil olan müraciətlərin təhlilinə, risk əsaslı nəzarət tədbirlərinin planlaşdırılmasına, hüquq pozuntularının baş verməzdən əvvəl qarşısının alınmasına, istehlakçı hüquqlarının müdafiəsinin effektiv, sistemli və proaktiv şəkildə təşkil edilməsinə imkan yaradacaq. Nəticə etibarilə, Elektron Rəqabət İnformasiya Sistemində yaradılan həllər istehlakçı-dövlət münasibətlərində operativliyi artıracaq və vətəndaşların hüquqlarının daha effektiv qorunmasına şərait yaradacaq.

***–Beynəlxalq təcrübə fonunda qiymətləndirsək, “Elektron Rəqabət İnformasiya Sistemi” Azərbaycanda rəqabət siyasətini hansı qlobal standartlara yaxınlaşdırır?***

–Son dövlərdə rəqabət siyasəti sahəsində ən əhəmiyyətli tendensiyalardan biri rəqabət orqanları ilə bazar subyektləri arasında fiziki təmasın minimumlaşdırılması, sənəd dövriyyəsinin optimallaşdırılması və data əsaslı qərarların qəbul edilməsidir. Rəqabət siyasətinin həyata keçirilməsində ən mühüm amillərdən biri də iqtisadi sübutların əldə edilməsi, emalı və həmin sübutları rəqabət qanunvericiliyi ilə sintezinə nail olmaqdır.Bu baxımdan ERİS rəqabət orqanının əldə etdiyi məlumatlarla biznes mühitini düzgün qiymətləndirmə potensialını gücləndirəcək və rəqabət tənzimləmələri ilə bağlı qərarların çevik qəbuluna öz töhfəsini verəcək.

Beynəlxalq təcrübədə rəqabət orqanlarının fəaliyyəti artıq təkcə pozuntu baş verdikdən sonra reaksiya vermək üzərində formalaşmır. Bazarda konsentrasiya səviyyələri, hökmran mövqedən sui-istifadə riskləri və qiymət davranışlarının qabaqlayıcı şəkildə təhlili beynəlxalq praktikada prioritetdir. ERİS müvafiq bazarlarda qərəzsiz və ədalətli qərarların verilməsi qabaqlayıcı (ex-ante) tənzimləmə tədbirlərinin əhatə dairəsinin genişləndirilməsinə və dinamik iqtisadi təhlil şəraitinin yaradılmasına xidmət edəcək.

ERİS bizneslə dövlət arasında münasibətlərin keyfiyyətinə də təsir göstərəcək. Sahibkarların müraciətlərinin elektron qaydada, izlənilə bilən mexanizm vasitəsilə həyata keçirilməsi inzibati maneələrin azalmasına, prosedurların sadələşdirilməsinə və dövlət xidmətlərinin keyfiyyətinin yüksəlməsinə töhfə verəcək.

***Müsahibəni qələmə aldı:***
***A.NURLAN***
***XQ***

# Nançan–Bakı dəmiryol marşrutu işə salınıb

## *Bu xətt Çindən Avropaya daşımaları 50 sutkadan 18 günə endirəcək*




**Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) Çin Xalq Respublikasını Avropa İttifaqı ölkələri ilə birləşdirən strateji əhəmiyyətə malik alternativ nəqliyyat arteriyasıdır. Geniş coğrafiyanı əhatə etməklə yanaşı, Orta Dəhliz ən qısa, səmərəli və operativ marşrutlardan biri hesab olunur. Təsadüfi deyil ki, son zamanlar Çin Xalq Respublikası Avropaya yüklərin məhz Azərbaycan ərazisi ilə göndərilməsini xeyli intensivləşdirib.**

Asiya nəhənginin bugünlərdə Orta Dəhliz üzrə işə saldığı yeni yükdaşıma marşrutu Şərqi Çinin Tszyansi əyalətinin inzibati mərkəzi Nançan şəhərini Azərbaycanın paytaxtı Bakı ilə birləşdirəcək. Bu barədə “Sinxua” agentliyi məlumat yayıb.

Agentliyin məlumatına əsasən, sözügedən marşrut üzrə ilk qatar fevralın 2-si mərmər məmulatları, pambıq parça, divar kağızı və müxtəlif sənaye mallarını Nançan beynəlxalq “quru limanı”ndan Bakı Beynəlxalq Dəniz Ticarət Limanına çatdırmaq üçün yola düşüb. Bildirilib ki, qatar Xorqos nəzarət-buraxılış məntəqəsi vasitəsilə dövlət sərhədini keçərək Xəzər dənizinə çatanadək Qazaxıstan ərazisi ilə hərəkət edəcək.

Nançan şəhərinin Dəmir Yolu Logistika Xidmətləri Mərkəzinin yaydığı məlumata görə, Orta Dəhliz vasitəsilə yükdaşıma müddəti 50 gündən 18 günə qədər azalacaq. Üstəlik, bu zaman Süveyş kanalı və Qırmızı dəniz akvatoriyasını keçmək zərurəti yaranmayacaq. Bundan əlavə, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu uzun məsafəli dəniz daşımaları ilə bağlı yüklərin zədələnməsi riskini və dəfələrlə boşaldılması nəticəsində yaranan xərcləri minimuma endirəcək. Bu da ixracatçıların logistika xərclərininin orta hesabla 15-20 faiz azalmasına imkan yaradacaq.

Nəzərdə tutulan qrafikə əsasən, Orta Dəhliz üzrə beynəlxalq multimodal yükdaşımalarının əsas qovşağı kimi fəaliyyət göstərən Bakıya məhsullar yeni marşrutla çatdırıldıqdan sonra Türkiyəyə və dünyanın bir sıra digər ölkələrinə və regionlarına daşına bilər. Ümumilikdə isə, Nançan– Bakı yeni yükdaşıma marşrutu Orta Dəhliz vasitəsilə Çin–Azərbaycan logistik əlaqələrini gücləndirən strateji addım kimi diqqət çəkir.

Yeri gəlmişkən, Çindən Orta Dəhliz vasitəsilə hərəkət edən ilin ilk yük qatarı yanvarın 1-də Sian şəhərindən yola salınıb. “Çin Enerji İnşaat Korporasiyası”na məxsus fotovoltaik modullarla yüklənmiş 45 konteynerlik qatar Horqos sərhəd-buraxılış məntəqəsindən Qazaxıstana keçərək Xəzər dənizi vasitəsilə Bakıya çatıb. Fotovoltaik modulların Bakıya operativ çatdırılması Sian şəhərinin Orta Dəhlizin quruculuğunda fəal iştirakı, eləcə də sözügedən marşrutun üzv tərəfdaşları ilə birgə xərclərin azaldılması və səmərəliliyin artırılması istiqamətində görülən ardıcıl tədbirlər sayəsində mümkün olub.

Yanvarın 19-da isə bu ölkənin şimalındakı Tiencin bələdiyyəsindən Bakı şəhərinə Xəzər dənizi üzərindən ilk yük qatarı yola salınıb. Paslanmayan polad borular və məişət texnikası da daxil olmaqla müxtəlif mallar yüklənmiş qatar Çinin şimal-qərbində yerləşən Sincan Uyğur Muxtar Bölgəsindəki Horqos sərhəd-keçid məntəqəsindən ölkə sərhədlərini aşaraq Qazaxıstan ərazisindən və Xəzər dənizindən keçməklə Bakıya çatacaq.

Tiencin Konteyner Mərkəzi Stansiyasının nümayəndəsi Yanq Cunyonq bildirib ki, 7 min kilometr məsafəni 20 günə qət edən bu marşrut ənənəvi dəniz nəqliyyatı ilə müqayisədə daşınma müddətini, təqribən, 10 gün azaldır. Azərbaycanın paytaxtının Xəzər dənizi üzərindən keçən beynəlxalq multimodal nəqliyyat dəhlizində mühüm mərkəz rolunu oynadığını vurğulayan Y.Cunyonqun sözlərinə görə, Tiencindən gətirilən yüklər Bakıya çatdıqdan sonra digər ölkə və regionlara da paylana bilər.

Xatırladaq ki, başlanğıcını Çindən götürən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ənənəvi Şimal və Cənub dəhlizlərinə alternativ kimi getdikcə aktuallığını artırır. Bu nəhəng nəqliyyat arteriyası Qazaxıstan, Özbəkistan və Türkmənistan kimi Mərkəzi Asiya ölkələrinin ərazilərini qət edərək Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Avropaya çatır. Bu marşrut, həm də Asiyanın şərq bölgələrini, o cümlədən Çini Avropa ilə birləşdirən daha uzun dəniz yollarından yan keçməklə quru yolu da təklif edir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

Hazırda həyata keçirilən yükdaşımalar Orta Dəhlizin rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artırır, onun funksional olaraq davamlı və effektiv olduğunu nümayiş etdirir. Ümumilikdə, region iqtisadiyyatının inkişafına ciddi töhfə verən sözügedən marşrut Qazaxıstan–Azərbaycan–Gürcüstan–Türkiyə üzərindən keçməklə Çinlə Avropa arasında daha qısa və sürətli yükdaşımaya imkan yaradır, eyni zamanda, Süveyş kanalından asılılığı azaldır.

Bu amil beynəlxalq logistika və ticarət şirkətləri üçün cəlbedici alternativ formalaşdırır və qlobal ticarət axınlarının şaxələndirilməsinə şərait yaradır. Qeyd etmək lazımdır ki, Orta Dəhliz üzərindən daşınan yüklərin həcmi son illərdə kəskin şəkildə artaraq 2021-ci illə müqayisədə, təxminən, beş dəfə yüksəlib. Bu artım Çinlə Avropa arasında konteyner qatarlarının sayının çoxalması, birgə logistika layihələrinin genişlənməsi və nəqliyyat infrastrukturuna yönəldilən investisiyaların artması ilə birbaşa bağlıdır.

Orta Dəhlizin inkişafı ticarət xərclərinin azalmasına da mühüm təsir göstərir. Daşıma müddətinin qısalması və tariflərin optimallaşdırılması nəticəsində logistik xərclər aşağı düşür ki, bu da beynəlxalq ticarətin daha səmərəli həyata keçirilməsinə imkan verir. Yükdaşımaların intensivləşməsi isə regionun iqtisadi fəallığını daha da artırır. Bu proses Azərbaycanın iqtisadiyyatına da müsbət təsir göstərir. Ölkənin tranzit ölkə kimi mövqeyi möhkəmlənir, liman və logistika xidmətlərindən əldə olunan gəlirlər artır, tranzit haqları yüksəlir. Eyni zamanda, liman və nəqliyyat infrastrukturu beynəlxalq yük axınları üçün daha cəlbedici olur ki, bu da regional iqtisadi artımı dəstəkləyən əsas amillərdən biridir.

Çinlə əməkdaşlıq çərçivəsində Bakı–Nançan dəmir yolu marşrutunun istifadəyə verilməsi Trans-Avrasiya nəqliyyat strategiyasının əhəmiyyətini daha da artırır. Bu marşrut Çin və Avropa arasında alternativ və sürətli nəqliyyat bağlantısı yaratmaqla yanaşı, region ölkələri arasında iqtisadi inteqrasiyanı da dərinləşdirir. Nəticə etibarilə, Orta Dəhliz qeyri-neft sektorunun inkişafı üçün yeni imkanlar formalaşdırır, Azərbaycanın regional logistika habı kimi rolunu gücləndirir və ölkənin nəqliyyat-coğrafi üstünlüklərini qlobal miqyasda daha da möhkəmləndirir.

# Azərbaycanda kriptovalyuta bazarının durumu və gələcəyi

**Kriptovalyutalar XXI əsrin maliyyə sistemində ən sürətlə yayılan texnoloji yeniliklərdən biri kimi qlobal iqtisadi düşüncələri dəyişdirməyə davam edir. Eyni zamanda, onların ortaya çıxışı cəmiyyətin müxtəlif təbəqələrində fərqli qəbul edilir. Bir tərəf kriptovalyutaları innovasiya, maliyyə azadlığı və iqtisadi müstəqillik kimi dəyərlərlə əlaqələndirir, digər tərəf isə bu fenomeni yüksək riskli spekulyasiya kimi qiymətləndirir.**



Kriptovalyuta bazarında son aylarda müşahidə olunan dəyişiklikləri Azərbaycanda da investorlar diqqətlə izləyirlər. Qlobal maliyyə siyasətində yeni tendensiyalar, xüsusən də ABŞ-da kripto aktivlərə artan loyal münasibət bazarda inamsızlığı deyil, əksinə, yeni fürsətləri önə çıxarıb. **Məhz bu çərçivədə "Crypto Consulting" MMC-nin direktoru, kripto-invest.az portalının rəhbəri və UNEC Biznes Məktəbinin müəllimi Elnur Quliyev ilə həmsöhbət olduq.**

***– Azərbaycanda kriptovalyutalara yatırım edənlərin sayında artımın əsas səbəbi nədir?***

– Kriptovalyuta bazarında son 2 il qiymətlərin artması Azərbaycanda da korporativ şirkətlərin, həvəskar investorların və adi vətəndaşların rəqəmsal aktivlərə olan marağının daha da artması ilə nəticələnib. ABŞ-da "bitcoin-ETF" fondların təsdiq edilməsi prosesləri, ABŞ Federal Ehtiyatlar Sisteminin uçot faiz dərəcəsini endirməsi, ABŞ Prezidenti Donald Tramp administrasiyasının kriptovalyutalara loyal münasibəti və digər qlobal amillər ilk kriptovalyuta olan bitkoinin 126 min dollara qədər dəyər qazanmasını təmin etdi.

Bununla bərabər, bitkoin kəskin dəyər qazanması insanları kriptovalyutalara investisiya etməyi motivasiya edib. Çünki kriptovalyutalar riskli aktiv olmasına baxmayaraq, ənənəvi maliyyə alətləri ilə müqayisədə dəfələrlə gəlirli olmağı bacarıb. Hazırda ölkəmizdə bitkoin ilə paralel ethereum, solana, ton, ripple, dogecoin və s. kimi altkoinlərə investisiya edənlər də az deyil. Lakin bu investisiya davranışları daha çox pərakəndə və qeyri-peşəkar səviyyədədir, çünki ölkədə kriptovalyuta tənzimlənməsi olmadığından institusional investorlar hələlik aktiv şəkildə daxil ola bilmirlər.

***– Bitkoinin qiymətindəki belə kəskin artımları Azərbaycan investorları üçün hansı gözləntilər yaradır?***

– Birincisi, volatillik riski ön plandadır. Bitkoin qiyməti sürətlə yüksəldiyi kimi, eyni templə enə də bilər. Bu səbəbdən, yüksək qiymət dalğalanmaları investorların qısa müddətdə ciddi itkilərlə üzləşməsinə yol aça bilər. İkincisi, emosional qərarların riski mövcuddur. Qiymət artımı fonunda çoxları "qazancı qaçırma qorxusu" (FOMO) ilə bazara tələsik daxil olur. Lakin bu zaman düzgün analiz edilməmiş qərarlar ciddi maliyyə zərərlərinə gətirib çıxara bilər. Üçüncüsü, ölkəmizdə kriptovalyutaların tənzimlənmə çərçivəsinin olmaması əlavə risk yaradır.

İnvestorlar hüquqi təminat olmadan fəaliyyət göstərdikləri üçün bazarda baş verən kiberhücum, fırıldaqçılıq və ya texniki problemlərdə vəsaitlərini qorumaq çətindir. Azərbaycan bazarında kripto savadlılığı nisbətən aşağı olduğundan emosional qərarlar daha tez-tez müşahidə olunur.

***– Bu qiymət dalğalanmaları ölkəmizdə rəsmi olaraq kriptovalyutanın tənzimlənməsinə necə təsir göstərir?***

– Bitkoin və digər kriptovalyutaların qiymətində baş verən kəskin dalğalanmalar təkcə investorların psixologiyasına deyil, həm də Azərbaycanda bu bazarın gələcək tənzimlənməsi prosesinə birbaşa təsir göstərir. Birincisi, bu dalğalanmalar hökumət və maliyyə qurumlarının diqqətini artırır. Çünki qiymət dəyişkənliyi investorların böyük risklərlə üzləşdiyini göstərir və bu da dövlətin istehlakçıların hüquqlarını qorumaq üçün addımlar atmasına stimul verir. İkincisi, qiymət enişləri və artımları fonunda ictimai maraq yüksəldikcə, bazarda qeyri-rəsmi fəaliyyətlər çoxalır. Bu isə vergi, maliyyə şəffaflığı və pul yuyulması riskləri ilə bağlı narahatlıqları gücləndirir və dövlət qurumlarını hüquqi mexanizmləri sürətləndirməyə vadar edir. Üçüncüsü, kəskin dalğalanmalar maliyyə sabitliyi ilə bağlı risklər doğurur.

Azərbaycan bank sistemi hələ kripto ilə birbaşa inteqrasiya olunmayıb, lakin investorların kütləvi itkiləri və ya qazanc əldə etməsi maliyyə axınlarına təsir göstərə bilər. Bu isə Mərkəzi Bank və Maliyyə Monitorinq Xidmətinin kriptovalyutalara nəzarət mexanizmlərini gündəmə gətirir. Nəticə etibarı ilə, bu qiymət dəyişkənliyi tənzimləyicilərə həm də müsbət siqnal verir: bazarın real potensialı var və genişlənir. Bu, hökuməti beynəlxalq təcrübəni öyrənərək daha balanslı – həm investorları qoruyan, həm də innovasiyanı boğmayan – qanunvericilik çərçivəsi üzərində işləməyə təşviq edir.

***– "m10" tətbiqinin "Binance" platformasına qoşulması Azərbaycanda kriptovalyutaların leqallaşdırılması prosesinin sürətlənməsinə gətirib çıxara bilərmi?***

– "m10" mobil tətbiqinin "Binance" ilə inteqrasiyası Azərbaycanda kriptovalyutaların leqallaşdırılması prosesinə əhəmiyyətli təsir göstərəcək. İlk növbədə, bu addım Azərbaycan Mərkəzi Bankının nəzarətində həyata keçirilən "regulatory sandbox" rejimi çərçivəsində sınaqdan keçirilib və uğurlu nəticələr göstərib. Bu isə dövlət qurumlarının kriptovalyuta bazarına münasibətdə artıq real mexanizmlər üzərində işlədiyini və şəffaf qanuni çərçivənin qurulmasına maraqlı olduğunu nümayiş etdirir. Bu qovuşmanın əsas üstünlüyü ondan ibarətdir ki, istifadəçilər artıq AZN ilə birbaşa "Binance" üzərindən əməliyyatlar apara bilirlər. Bu, həm milli valyutanın rəqəmsal maliyyə ekosisteminə inteqrasiyasını gücləndirir, həm də vətəndaşların kriptovalyutalara daha təhlükəsiz və rahat çıxışını təmin edir.




Eyni zamanda, "m10"–"Binance" əməkdaşlığı Azərbaycanda digər bank və "fintech" qurumları üçün nümunəvi model rolunu oynaya bilər. Bu, həm dövlətə, həm də bazar iştirakçılarına göstərir ki, kriptovalyuta əməliyyatlarını rəsmi, tənzimlənən və təhlükəsiz şəkildə həyata keçirmək mümkündür. Beləliklə, bu inteqrasiya yalnız texnoloji yenilik deyil, həm də kriptovalyutaların rəsmi tanınması və tənzimlənməsi prosesini sürətləndirən mühüm addım kimi qiymətləndirilə bilər. Bu model tətbiq olunsa, gələcəkdə digər banklar üçün də rəqabət formalaşacaq və rəqəmsal maliyyə xidmətlərinin spektri genişlənəcək.

***– Azərbaycanda yerli mübadilə servislərinin istifadəyə verilməsi kriptovalyuta bazarına olan inamı artıra bilərmi?***

– Azərbaycanda yerli kriptovalyuta mübadilə servislərinin istifadəyə verilməsi bazara olan inamın artmasına mühüm töhfə verə bilər. İlk növbədə, belə servislər dövlətin nəzarəti və milli qanunvericilik çərçivəsində fəaliyyət göstərəcəyi üçün istifadəçilər üçün əlavə etibarlılıq yaradacaq. Bu, vətəndaşların xarici platformalardan asılılığını azaldacaq və əməliyyatların daha şəffaf aparılmasına imkan verəcək. İkincisi, yerli mübadilə servisləri vasitəsilə kriptovalyuta əməliyyatlarını birbaşa milli valyuta – manatla aparmaq mümkün olacaq. Bu, həm konvertasiya xərclərini azaldacaq, həm də istifadəçilər üçün əməliyyat prosesini sadələşdirəcək. Üçüncüsü, yerli platformaların istifadəyə verilməsi fırıldaqçılıq risklərini azaldacaq, çünki vəsaitlərin ölkə daxilində saxlanılması və dövlətin nəzarəti bazar iştirakçılarına daha güclü hüquqi təminat verəcək.

Nəhayət, belə bir addım yeni investorların bazara qoşulmasına şərait yaradacaq və ölkədə kripto ekosisteminin genişlənməsini sürətləndirəcək. Beləliklə, yerli mübadilə servislərinin istifadəyə verilməsi Azərbaycanda kriptovalyuta bazarına inamı artırmaqla yanaşı, həm də onun rəsmi inkişafı üçün təkanverici rol oynaya bilər.

***– Kriptovalyuta sektoru üzrə savadsızlıq Azərbaycanın bazarındakı riskləri artırırmı?***

– Bəli, əsas problemlərdən biri rəqəmsal aktivlər üzrə maliyyə savadlılığının aşağı olmasıdır. Bir çox investorlar rəqəmsal valyutaların texniki prinsiplərini, bazar strukturunu və risk idarəetməsini bilmədən investisiya edir. Belə investorların böyük hissəsi hələ də kriptovalyutaları lotereya kimi qəbul edir. Bu, xüsusilə yüksək volatillik dövrlərində ciddi maliyyə itkilərinə gətirib çıxarır.

Kriptovalyuta bazarında ən böyük problem emosional alış və panik satışdır. Əgər maarifləndirmə tədbirləri, akademik təlimlər və akkreditə olunmuş konsaltinq xidmətləri genişlənsə, həm fərdi investorların, həm də ümumilikdə bazarın risk profili xeyli azalacaq. İnkişaf etmiş ölkələrdə bu sahənin böyüməsini məhz maarifləndirmə təmin edib.

***– Kriptovalyutadan gəlir əldə edənlərin vergisini hesablamaq və izləmək praktikada hansı çətinliklər yaradır?***

– Kriptovalyutadan gəlir əldə edənlərin vergisini hesablamaq və izləmək praktikada bir neçə çətinliklərlə üzləşir. Əsas səbəb əməliyyatların blokçeyn üzərində anonim və mərkəzsiz aparılmasıdır, hər əməliyyat minlərlə node tərəfindən təsdiqlənir, amma istifadəçilərin kimliyi birbaşa görünmür. Bundan əlavə, kripto-aktivlərin birjalar arasında tez-tez köçürülməsi və müxtəlif tokenlərin mövcudluğu hesablama prosesini çətinləşdirir.

Hazırda Azərbaycanda əməliyyatların izlənməsi üçün hüquqi və texnoloji mexanizm yoxdur, buna görə də vergi ödəməsi faktiki olaraq könüllülük prinsipi əsasında həyata keçirilir. Ölkəmizdə texnoloji infrastruktur formalaşdırılarsa, həm dövlət büdcəsinə əlavə vəsaitlərin daxil olması, həm də investorların daha etibarlı mühitdə fəaliyyət göstərməsi təmin edilə bilər. Effektiv nəzarət üçün lisenziyalaşdırılmış birjalar, bank nəzarəti və blockchain-analiz alətləri kimi vasitələrin tətbiqi vacibdir.

***– Kriptovalyuta əməliyyatları üçün xüsusi vergi qaydaları hazırlanmalıdırmı, yoxsa mövcud normalar kifayətdir?***

– Kriptovalyuta əməliyyatları üçün ayrıca, xüsusi vergi qaydalarının hazırlanması daha məqsədəuyğundur. Mövcud qaydalar müəyyən dərəcədə kifayət etsə də, sahəyə uyğunlaşan xüsusi tənzimləmə həm vergi intizamını artırar, həm də investorlar üçün daha etibarlı və şəffaf mühit yaradar. Ədalətli və obyektiv vergi mexanizminin tətbiqi ümumilikdə kriptovalyutalara investisiya edən fiziki şəxslərin davranışına müsbət təsir göstərəcək. Əgər mexanizmlər sərt və investor üçün əlavə yük yaradan formada həyata keçirilərsə, qısa müddətdə bəzi vətəndaşların fəaliyyətini dayandırması və ya əməliyyatlarını xarici platformalara yönəltməsi mümkündür.

Lakin beynəlxalq təcrübə göstərir ki, şəffaf hüquqi baza və balanslaşdırılmış vergi siyasəti tətbiq olunduqda, bu, əksinə, bazarı legitimləşdirir və daha çox investoru cəlb edir. Azərbaycanda da əsas məqsəd sərmayədarları cəzalandırmaq deyil, onları qanuni çərçivəyə gətirmək, həmçinin dövlət büdcəsinə əlavə vəsait təmin etməkdir. Əgər islahatlar mərhələli, ədalətli və aydın qaydalar əsasında həyata keçirilərsə, uzunmüddətli mövqedə ölkəmizdə kriptovalyuta bazarının inkişafını müşahidə edəcəyik.

***– Kriptovalyutalara marağın artdığı bir zamanda Azərbaycanda bu fəaliyyətlə gəlir əldə edənlər vergi prosesinə cəlb edilməlidirlərmi ?***

– Hazırda Azərbaycanda kriptovalyutalara maraq və istifadəçi sayı sürətlə artır. Bu sahədə gəlir əldə edənlərin vergiyə cəlb olunması Vergi Məcəlləsində nəzərdə tutulsa da, əməliyyatların izlənməsi üçün xüsusi mexanizmlər olmadığına görə proses faktiki olaraq yalnız könüllülük prinsipi əsasında mümkündür. Dünyanın heç bir ölkəsində bu sahədə tam şəffaf izləmə aləti mövcud deyil. Lakin lisenziyalaşdırılmış birjalar, bank nəzarəti və blockchain-analiz vasitələri tətbiq olunduqda əməliyyatların böyük hissəsini real şəkildə izləmək mümkündür.

Azərbaycanda da bu istiqamətdə hüquqi baza və texnoloji infrastruktur formalaşdırılarsa, həm dövlət büdcəsinə əlavə vəsaitlərin daxil olması, həm də investorların daha etibarlı mühitdə fəaliyyət göstərmələri təmin edilə bilər.

***– Vergi islahatlarının tətbiqi ölkə daxilində bu istiqamətdə yatırım edən fiziki şəxslərin azalmasına səbəb olacaqmı?***

– Vergi islahatlarının tətbiqi, təbii ki, kriptovalyutaya investisiya edən fiziki şəxslərin davranışına təsir göstərə bilər. Əgər mexanizmlər sərt və investor üçün əlavə yük yaradan formada həyata keçirilərsə, qısa müddətdə bəzi vətəndaşların fəaliyyətini dayandırması və ya əməliyyatlarını xarici platformalara yönəltməsi mümkündür. Lakin beynəlxalq təcrübə göstərir ki, şəffaf hüquqi baza və balanslaşdırılmış vergi siyasəti tətbiq olunduqda bu, əksinə, bazarı legitimləşdirir və daha çox investoru cəlb edir.

Azərbaycanda əsas məqsəd investorları cəzalandırmaq deyil, onları qanuni fəaliyyət çərçivəsinə gətirməkdir. Əgər islahatlar mərhələli, ədalətli və aydın qaydalar əsasında həyata keçirilərsə, kriptovalyuta bazarının inkişafına mənfi deyil, müsbət təsir göstərəcək. Əslində, hüquqi çərçivənin olmaması həm dövlət, həm də investor üçün əsas riskdir.

***– Azərbaycanda blokçeyn texnologiyasının dövlət səviyyəsində tətbiqi mümkündürmü?***

– Bu, artıq potensialdan çıxıb real gündəmə çevrilib. Çünki vergi inzibatçılığı, gömrük nəzarəti, daşınmaz əmlak reyestrləri və tender prosesləri kimi sahələr blokçeynin təklif etdiyi şəffaflıqdan ciddi şəkildə faydalana bilər. Dövlət qurumları rəqəmsal modernizasiya istiqamətində addımlar atdıqca kriptovalyutadan kənar blokçeyn tətbiqləri daha sürətli inteqrasiya olunacaq. Bu proses tənzimləmə bazasının formalaşması ilə paralel şəkildə baş verəcək.

***Müsahibəni qələmə aldı:***
***Nurlan ABDALOV***
***XQ***

# Uğurlar artdıqca, problemlər azalır

## *Masallının hərtərəfli inkişafı bu həqiqəti təsdiqləyir*



Ərkivan qəsəbəsi, 2 saylı körpələr evi-uşaq bağçası.



Masallı şəhəri, şəhid Araz Seyfullayev küçəsi.



Mərkəzi Xəstəxana, şəhid anasını ziyarət.

**Masallı respublikamızın cənubunda əsrarəngiz təbiətə, füsunkar gözəlliyə malik bir diyardır. Son illər rayon mərkəzinin, qəsəbə və kəndlərin siması xeyli dəyişib. Yaşıllığa bürünmüş prospekt və parklar, asfalt döşənmiş səliqəli küçələr, müasir memarlıq xüsusiyyətləri ilə seçilən binalar, çoxlu yeni sosial obyektlər Masallı şəhərinə xüsusi gözəllik verir.**

Masallı həm də dövlətçiliyə sadiq zəhmətkeş, halal, qədirbilən insanları ilə tanınır. Masallılılar xalqımızın ümummilli lideri Heydər Əliyevin ideyalarına, onun siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin inkişaf strategiyasına sadiq qalaraq qurub yaradır, müstəqil Azərbaycanın inkişafına dəyərli töhfələr verirlər.

Bu yurdun igid, qeyrətli oğulları Vətənin ən çətin, ağır günlərində ölkəmizin azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda mübarizəyə qalxaraq hünər, qəhrəmanlıq, rəşadət nümunəsi göstəriblər. Birinci Qarabağ müharibəsində Masallı rayonu 186 şəhid, Vətən müharibəsində 62, antiterror əməliyyatları zamanı 8 şəhid verib. Birinci Qarabağ savaşında Səfərəli Məmmədov, Elşad Əhədov və Elşad Hüseynov Milli Qəhrəman, 44 günlük Vətən müharibəsində İntiqam Əsgərli Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüblər.

Rayonda 256 şəhid ailəsi, 260 müharibə əlili, 1984 müharibə iştirakçısı var. Rayonda şəhid ailələri, müharibə iştirakçıları və əlillər xüsusi qayğı ilə əhatə olunub. Rayon rəhbərliyi bu qəbildən olan ailələrlə müntəzəm əlaqə saxlayır, onların qayğıları ilə maraqlanır, problemlərinin həlli istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirir.

Şəhid ailələri, müharibə əlilləri və müharibə iştirakçılarının tibbi müayinəsi, dərman preparatları ilə təminatı, məişət problemlərinin həllinə qədər rayon rəhbərliyinin diqqət mərkəzindədir. Bu barədə Masallı Rayon İcra Hakimiyyətində keçən ilin yekunlarına həsr edilmiş hesabat yığıncağında da ətraflı söhbət açılıb.

Ötən il 1 şəhid ailəsi üçün fərdi yaşayış evi tikilərək istifadəyə verilib. Hazırda daha 2 şəhid ailəsi üçün fərdi ev inşa edilir. Keçən il 1 şəhid ailəsinin evi tam təmir olunub, 3 şəhid ailəsinin evində isə təmir işləri davam etdirilir. 18 şəhid ailəsinə, 2 müharibə əlilinə və qazilərə tikinti materialları ilə kömək göstərilib. İl ərzində 55 şəhid ailəsinə mütəmadi maddi yardımlar olunub. Ümumilikdə, keçən il şəhid ailələrinə, müharibə əlillərinə və iştirakçılarına 56 min 964 manat məbləğində maddi yardım edilib.

Şəhid adlarını daşıyan küçələrə asfalt örtük çəkilərək əsaslı təmir edilib. 2025-ci ildə 17 şəhidin adının əbədiləşdirildiyi küçəyə və şəhid ailələrinin yaşadıqları küçələrə 348 min manat dəyərində 25 min kvadratmetr asfalt örtüyü çəkilib. Şəhid ailələrinin yaşadıqları küçələrə 24 min manat dəyərində qum-çınqıl tökülərək cari təmir edilib. Son 3 ildə şəhid adlarını daşıyan və şəhid ailələrinin yaşadıqları 97 küçəyə ümumi uzunluğu 37 kilometr, dəyəri 1 milyon 500 min manat olmaqla 127 min kvadratmetr asfalt örtük çəkilib.

Viləş kənd sakini, iki şəhid anası Ziba Əsgərova deyir ki, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, icra aparatının işçiləri, ictimaiyyətin nümayəndələri şəhid övladlarım İntiqam və Nurlanın anım mərasimlərində, ad günlərində şəxsən iştirak edib, ailəmizin qayğıları ilə maraqlanıb və məzarlarını ziyarət ediblər. RİH başçısı dövlət və milli bayramlarda, əlamətdar tarixi günlərdə də şəhid və müharibə əlillərinin ailələrinə baş çəkir, ehtiyacı olanlara maddi yardım göstərir.

Ölkə rəhbərinin əzmlə, yüksək işgüzarlıqla davam etdirdiyi islahatlar, dövlət proqramları Masallı rayonunun iqtisadiyyatında yeni nailiyyətlərin əldə olunmasına zəmin yaradıb. 2025-ci il rayonda uğurlu il kimi yadda qalıb. Ötən il rayonda məhsul istehsalı və göstərilən xidmətlərin həcmi 460, 8 milyon manat olub. Adambaşına düşən pul gəlirləri 2 min 21 manata, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 648,2 manata çatdırılıb.

İl ərzində rayonda 83,9 milyon manatlıq məhsul istehsal edilib. Kənd təsərrüfatı məhsullarının həcmi 2,5 faiz, əhaliyə göstərilən xidmətlərin həcmi 9,1 faiz, orta aylıq əməkhaqqı 8,4 faiz artıb. İqtisadiyyatın əsas sahələrində ümumi məhsul buraxılışı 611 milyon 782 min 500 manat təşkil edib. Bu, əvvəlki illə müqayisədə 5,4 faiz artım deməkdir. Masallı Sənaye Məhəlləsində mebel, taxta məmulatları, tikinti materialları və digər sahələr də daxil olmaqla 7 sahibkarlıq subyekti fəaliyyət göstərir.

Yola saldığımız ildə 13 min 418 hektar payızlıq, 4 min 196 hektar sahədə yazlıq bitkilər əkilib. 10 min 431 hektar taxıl sahəsindən 24 min 814 ton məhsul yığılıb. Hektardan 22,3 sentner arpa, 24,4 sentner buğda istehsal edilib. Fermerlər 922 hektar sahədə kartof əkib, orta məhsuldarlıq 17-18 ton olub. Bəzi fermerlər məhsuldarlığı 30-35 tona çatdırıblar.

Keçən il 179,3 hektar sahədə çəltik əkilib. Əkin işləri ənənəvi səpmə üsulu və müasir aqreqatla aparılıb. Çəltikçilikdə orta məhsuldarlıq 35,7 sentner təşkil edib. Bundan əlavə, rayonda 109,5 hektar çay, 392,2 hektar çiyələk və 150,7 hektar intensiv sitrus bağı vardır. Mahmudavar və Tüklə kəndlərində sahibkarlar şəxsi vəsaitləri və lizinq yolu ilə çay emal müəssisələri qurublar. Cari ildə bu müəssisələrdə çay emalına başlanılacaq. Aqrar sahənin inkişafı ilə əlaqədar 3 ümumrayon müşavirəsi keçirilib. Kənd təsərrüfatında görülmüş işlər geniş müzakirə olunub və qarşıda duran vəzifələr müəyyənləşdirilib.

Əhalinin elektrik enerjisi, təbii qaz, içməli su ilə təminatınının yaxşılaşdırılması, sosial problemlərin həllinin sürətləndirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər görülüb.

Əldə edilən uğurlar heç də arxayınçılıq yaratmır. Cari ildə masallılıları daha böyük işlər gözləyir. Sosial-iqtisadi inkişafın sürətləndirilməsi, bütün sahələrdə tərəqqi və yüksəlişin təmin olunması məsuliyyət, çeviklik, operativlik və əzmkarlıq tələb edir.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Bu il 80 neft quyusu qazılacaq



**2026-cı ildə qazılacaq 80 quyuda 500-dən artıq əməliyyatın aparılması planlaşdırılır. Bu barədə Azərbaycan Dövlət Neft Şirkətinin Hasilat əməliyyatları üzrə idarəsinin qazma işləri üzrə meneceri Fərid Umudlu Bakıda keçirilən "IADC Drilling Caspian 2026" konfrans və sərgisində bildirib.**

Qeyd olunub ki, mövcud problemlərin həlli üçün təkcə struktur dəyişiklikləri kifayət etmir, texnologiyalara da investisiya qoymaq lazımdır: "Hasilat baxımından laylarımız getdikcə daha mürəkkəbləşir və neft hasilatı hər il daha çox səy tələb edir. Bu, artıq Azərbaycanda fəaliyyət göstərən bütün operatorların üzləşdiyi milli səviyyəli çağırışdır".

F.Umudlu vurğulayıb ki, oxşar vəziyyət Xəzər regionunun digər ölkələrində, o cümlədən Türkmənistanda da müşahidə olunur. Bu səbəbdən yeni texnoloji həllərin fəal şəkildə tətbiqinə başlandığını diqqətə çatdıran menecer deyib ki, yaxın aylarda "Neft daşları" və "Günəşli" yataqlarında nasos-kompressor borularından istifadə edilməklə qazmaya başlanılması planlaşdırılır. Bu məqsədlə laylarda geonaviqasiya texnologiyalarının tətbiqi üzrə ətraflı təhlil aparılır, eyni zamanda, 90 dərəcəyədək meyilliyə malik üfüqi quyuların qazılması həyata keçirilir. Onun sözlərinə görə, artıq 15–20 belə quyu qazılıb.

***XQ***

# Paytaxtın yeni nəqliyyat arteriyası

## *Şimal dairəvi yolu Bakı – Sumqayıt magistralında tıxac problemini aradan qaldıracaq*

**Bakı–Sumqayıt magistralında hər gün səhər və axşam saatlarında müşahidə olunan uzunmüddətli tıxaclar paytaxtın ən ciddi nəqliyyat problemlərindən biri olaraq qalır. Bu istiqamətdə sürət qatarının fəaliyyət göstərməsi, avtobuslar üçün xüsusi zolaqların ayrılması, yolun müəyyən hissələrdə genişləndirilməsi kimi addımlar atılsa da, məsələnin köklü həlli hələlik mümkün olmayıb. Mövcud vəziyyət göstərir ki, tıxaclar təkcə yolun fiziki imkanları ilə deyil, bütövlükdə nəqliyyat sisteminin planlaşdırılması və idarə olunması ilə bağlıdır.**





Ekspertlərin fikrincə, Bakı–Sumqayıt nəqliyyat şəbəkəsinin və yol infrastrukturunun düzgün qurulmaması problemin əsas səbəblərindən biridir. Hətta bəzi hallarda hərəkətin təşkili ilə bağlı qüsurlar da tıxacların dərinləşməsinə səbəb olur. Məsələn, Xırdalan dairəsinin Sumqayıt, Masazır və Ceyranbatan istiqamətlərində günün müəyyən saatlarında yaranan uzun tıxacların əsas səbəbi yolun bu hissəsinin tam və optimal şəkildə genişləndirilməməsidir. Bu isə nəqliyyat axınının balansını pozur və hərəkətin sürətini kəskin şəkildə azaldır.

Bakı istiqamətində də analoji mənzərə müşahidə olunur. Xüsusilə "Şamaxinka" və "Alatava" ərazilərində yolun genişləndirilməsinə ciddi ehtiyac duyulur. Bu hissədə yol şəbəkəsinin optimallaşdırılması nəqliyyat axınının nisbətən zəifləməsinə və sıxlığın azalmasına imkan verə bilər. Maraqlı məqam ondan ibarətdir ki, sözügedən ərazinin yaxınlığından dairəvi yol keçir. Lakin bu yoldan istifadə edən avtomobillərin sayı Bakı – Sumqayıt magistralı ilə hərəkət edən nəqliyyat vasitələrinin sayı ilə müqayisədə xeyli azdır. "20 Yanvar" və "Şamaxinka" istiqamətində şəhərə daxil olmadan hərəkət etmək istəyən sürücülərin azlığı isə göstərir ki, dairəvi yolun fəaliyyət imkanları tam reallaşdırılmayıb, həm infrastruktur, həm də təşkilati problemlərin həlli diqqətdən kənar qalıb.

Ekspertlər hesab edirlər ki, Bakı – Sumqayıt yolunda tıxacların qarşısını almaq üçün təkcə yolun genişləndirilməsi deyil, həm də şəhərə girişin sistemli şəkildə tənzimlənməsi vacibdir. Çünki bu magistraldan paytaxta daxil olmaqla bərabər, şimal sərhədi istiqamətinə hərəkət edən nəqliyyat vasitələri də istifadə edir ki, bu da axının həddindən artıq artmasına gətirib çıxarır. Mütəxəssislər şəhərin girişlərində parkinq zonalarının yaradılmasını, şəxsi avtomobillə paytaxta gələn sürücülərin avtomobillərini bu ərazilərdə saxlayaraq ictimai nəqliyyata yönləndirilməsini əsas həll yollarından biri kimi qiymətləndirirlər. Bu yanaşma Avropa şəhərlərində tətbiq edilən "park et və davam et" modelinə əsaslanaraq həm nəqliyyat sıxlığını azaltmaq, həm də ekoloji yükü yüngülləşdirmək baxımından səmərəli mexanizm hesab olunur.

Nəqliyyat eksperti Ərşad Hüseynov problemin daha dərin xarakter daşıdığını bildirir. Onun fikrincə, tıxacların əsas səbəbi yolun özü deyil, magistrala qoşulan giriş və çıxış nöqtələridir. Bakı – Sumqayıt yolu istiqamətində tıxaclar əsasən avtovağzal ətrafından, "Şamaxinka" və "20 Yanvar" ərazilərindən başlayaraq uzun məsafəni əhatə edir. Bu baxımdan, təkcə yolun genişləndirilməsi ilə problemin həllinin mümkün olmadığını deyən ekspert çıxış yolunu ictimai nəqliyyatın keyfiyyət və əlçatanlıq baxımından inkişafında görür. Onun fikrincə, rahat, sürətli və inteqrasiya olunan ictimai nəqliyyat sistemi yaradılmadan paytaxtın nəqliyyat yükünü azaltmaq çətin olacaq.

Yuxarıda diqqətə çatdırılan ekspert rəylərinin hər birində müəyyən həqiqət payı var. Lakin Bakı və ətraf ərazilərdə nəqliyyat probleminin həllinə daha geniş strateji yanaşma zəruridir. Bu baxımdan, "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" xüsusi əhəmiyyət kəsb edir. Sənəddə Bakı – Sumqayıt şosesində, Xırdalan və "20 Yanvar" dairələrində nəqliyyat sıxlığının azaldılması, Xırdalan şəhəri üçün alternativ giriş-çıxış yollarının yaradılması məqsədilə M-1 və M-4 avtomobil magistrallarını Sulutəpə və Xocasən qəsəbələrindən keçməklə Yasamal rayonu ərazisində xarici dairəvi yolla birləşdirən paytaxtın strateji ikinci şimal-qərb giriş-çıxış şosesinin yaradılması planlaşdırılır. Dövlət Proqramına əsasən, bu layihənin icrası 2025 – 2030-cu illəri əhatə edir və Bakı – Sumqayıt nəqliyyat yükünün azaldılmasına mühüm töhfə verməsi gözlənilir.

Paytaxtın iki əsas yaşayış məntəqəsini – Sabunçu və Sulutəpə qəsəbələrini əhatə edəcək dairəvi yolun tikintisinin planlaşdırılması strateji baxımdan xüsusi önəm daşıyır. Dövlət Proqramında yer alan bu yolun Ziya Bünyadov prospektinə alternativ olacağı və şərq-qərb istiqamətində intensiv hərəkətin müşahidə edildiyi əsas nəqliyyat marşrutlarından birində tıxacların azalmasına təsir göstərəcəyi proqnozlaşdırılır. Layihə yük daşımalarının şəhər mərkəzindən yan keçməsinə imkan yaradacaq ki, bu da ümumi nəqliyyat sisteminin optimallaşdırılmasını və şəhər daxilində hərəkətin səmərəliyini şərtləndirəcək. Bundan əlavə, yeni yolun istifadəyə verilməsi ictimai nəqliyyat marşrutlarının genişləndirilməsinə, eləcə də mikromobil nəqliyyat vasitələri üçün müvafiq infrastrukturun formalaşdırılmasına əlavə imkanlar yaradacaq.

Dövlət Proqramında Bakı–Sumqayıt yolunda tıxac probleminin həllinə müsbət təsir göstərə biləcək digər layihələr də nəzərdə tutulub. Belə ki, Bakı dairəvi-1 avtomobil yolu ilə Ziya Bünyadov prospektini əlaqələndirən dairəvi magistralın layihələndirilməsi, tikintisi və istismara verilməsi, həmçinin Bakı – Şamaxı – Yevlax avtomobil yolunu Xırdalan şəhərinin mərkəzi ilə birləşdirən müxtəlif səviyyəli yol ötürücüsünün inşası planlaşdırılır. Bununla yanaşı, M-4 Bakı – Şamaxı – Yevlax avtomobil yolunu M-1 Bakı – Quba – Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 16-cı kilometri ("VAZ dairəsi") ilə Xırdalan şəhərinin Həsən Əliyev küçəsi vasitəsilə əlaqələndirəcək yol ötürücüsünün tikintisi də 2025 – 2030-cu illər ərzində həyata keçiriləcək layihələr sırasındadır.

Bundan başqa, Dövlət Proqramında Xırdalan şəhəri ərazisində (Nizami Gəncəvi küçəsi) M-1 Bakı – Quba avtomobil yolu ilə Masazır – Novxanı yolunu birləşdirən yeni avtomobil yolunun tikintisi, eləcə də Bilgəh – Novxanı – Xırdalan, Binəqədi –Novxanı, Mehdiabad – Baksol – Ziya Bünyadov prospekti avtomobil yollarının inşası və istismara verilməsi nəzərdə tutulur. Bütün bu layihələrin mərhələli şəkildə reallaşdırılmasının Bakı və ətraf ərazilərdə nəqliyyat axınının şaxələndirilməsinə, alternativ marşrutların formalaşmasına və nəticə etibarilə Bakı – Sumqayıt magistralında tıxacların azalmasına şərait yaradacağı gözlənilir.

Nəticə etibarilə, Bakı – Sumqayıt yolunda tıxac problemi yalnız lokal infrastruktur çatışmazlığı deyil, eyni zamanda, paytaxtın sürətli urbanizasiyası, əhali artımı, avtomobilləşmə səviyyəsinin yüksəlməsi və nəqliyyat siyasətinin kompleks xarakteri ilə bağlıdır. Bu problemin həlli üçün yol genişləndirilməsi ilə yanaşı, "ağıllı" nəqliyyat sistemlərinin tətbiqi, ictimai nəqliyyatın cəlbediciliyinin artırılması, şəhərə girişin tənzimlənməsi və regional nəqliyyat planlamasının gücləndirilməsi zəruri görünür. Dövlət Proqramında nəzərdə tutulan layihələrin vaxtında və koordinasiyalı şəkildə həyata keçirilməsi isə Bakı – Sumqayıt nəqliyyat dəhlizində uzun illərdir ki, mövcud olan tıxac probleminin mərhələli şəkildə aradan qaldırılması üçün real imkanlar yarada bilər.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Bakı–Sumqayıt magistralı paytaxtla ölkənin ikinci ən böyük şəhəri arasında əsas nəqliyyat arteriyası olmaqla yanaşı, həm də Abşeron yarımadasının sosial-iqtisadi həyatında mühüm rol oynayır. Bu yol təkcə gündəlik iş-güc axınının deyil, eyni zamanda, sənaye zonalarının, logistika mərkəzlərinin və regionlararası nəqliyyatın əsas marşrutlarından biri hesab olunur. Lakin son illər bu magistralda müşahidə olunan xroniki tıxaclar artıq yalnız nəqliyyat problemi deyil, eyni zamanda, iqtisadi və sosial risk amilinə çevrilməkdədir.

Bu yolda tıxacların əsas səbəbi təkcə yolun fiziki imkanlarının məhdudluğu deyil. Məsələ daha çox nəqliyyat sisteminin kompleks planlaşdırılmaması, alternativ marşrutların kifayət qədər inkişaf etdirilməməsi və şəhərə giriş-çıxış mexanizmlərinin balanslaşdırılmaması ilə bağlıdır.

Onu da qeyd edim ki, Bakı – Sumqayıt yolunda tıxacların yaratdığı iqtisadi itkilər çox zaman diqqətdən kənarda qalır. Halbuki beynəlxalq təcrübə göstərir ki, iri şəhərlərdə tıxaclar ÜDM-in 2-5 faizi həcmində iqtisadi itkilərə səbəb ola bilər. Azərbaycan reallığında bu göstəricini, təxmini, modelləşdirsək, deyə bilərəm ki, gündəlik minlərlə sürücü, təqribən, 30-60 dəqiqə vaxt itirir. Yanacaq sərfiyyatı artır və avtomobil amortizasiyası yüksəlir, logistika və yükdaşımada gecikmələr baş verir və əmək məhsuldarlığı azalır. Təbii ki, ekoloji yük də artır.

Hesablamalara görə, təkcə Bakı – Sumqayıt istiqamətində vaxt itkisi və əlavə yanacaq xərcləri illik on milyonlarla manatlıq iqtisadi zərərə səbəb olur. Dolayı təsirlər – biznes proseslərinin ləngiməsi, investisiya mühitinə təsir və şəhər həyatı keyfiyyətinin aşağı düşməsi isə bu məbləği daha da artırır.

Xatırladım ki, Bakı – Sumqayıt yolunda tıxac problemi təkcə nəqliyyat məsələsi deyil, bu, həm də paytaxtın urbanizasiya modelinin, iqtisadi inkişaf strategiyasının və şəhər idarəçiliyinin göstəricisidir. Bu problemin həlli üçün, ilk növbədə, kompleks yanaşma zəruridir. Belə ki, alternativ yol şəbəkəsinin genişləndirilməsi, ictimai nəqliyyatın keyfiyyət və sürət baxımından modernləşdirilməsi, şəhərə girişin tənzimlənməsi və parkinq siyasətinin dəyişdirilməsi, "ağıllı" nəqliyyat sistemlərinin tətbiqi, eləcə də şəhərsalma və nəqliyyat siyasətinin inteqrasiyası gerçəkləşdirilməlidir.

Bu baxımdan "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan layihələrin ardıcıl və koordinasiyalı şəkildə həyata keçirilməsi Bakı –Sumqayıt nəqliyyat dəhlizində tıxac probleminin mərhələli şəkildə aradan qaldırılması üçün real zəmin yarada bilər. Əks halda, yol genişləndirilməsi ilə müşayiət olunan avtomobilləşmə prosesi paytaxtın nəqliyyat yükünü daha da ağırlaşdırar və problem yeni formada yenidən ortaya çıxar.

# Azərbaycan – İsrail süni intellekt diplomatiyası

## *Birgə əməkdaşlıq qlobal texnoloji yarışda ölkəmizə uğur qazandıracaq*



**Bir vaxtlar akademik dairələrdə müzakirə olunan süni intellekt mövzusu bu gün iqtisadiyyatın, dövlət idarəçiliyinin, təhlükəsizlik sistemlərinin və sənaye sahələrinin aparıcı hərəkətverici qüvvəsinə çevrilib. Prezident İlham Əliyevin Azərbaycanın 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyasını təsdiqləməsi ölkənin inkişaf trayektoriyasında keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Bu sənəd Azərbaycanın qlobal texnoloji rəqabət mühitində mövqeyini qorumaq və gücləndirmək məqsədilə seçdiyi strateji xəttin açıq ifadəsidir.**

Mövcud reallıqlar fonunda Azərbaycan süni intellekti iqtisadi artımı sürətləndirən əsas alət, rəqəmsal dövlət quruculuğunun dayağı və regional texnoloji liderliyə aparan vasitə kimi dəyərləndirir. Beləliklə, enerji ilə süni intellekt arasındakı qarşılıqlı əlaqə prizmasından yanaşdıqda Azərbaycan yalnız texnologiya istehlakçısı deyil, eyni zamanda istehsalçı və ixracatçı mövqeyinə yüksəlmək potensialına malikdir.

Ötən gün Yerusəlimdə İsrail və Azərbaycan arasında süni intellekt üzrə anlaşma memorandumunun imzalanması ölkəmizin bu sahəyə verdiyi önəmin göstəricisidir. Müqavilə bir neçə əsas sahəni əhatə edir: superkompüter infrastrukturunun inkişafı, Aİ-nin tibb, nəqliyyat, təhsil və digər mülki sektorlarda tətbiqi, mütəxəssislərin hazırlanması və birgə elmi tədqiqatlar.

Azərbaycan isə enerji resursları, maliyyə imkanları və regional təsir gücü ilə bu tərəfdaşlığı tamamlayan tərəf rolunu oynayır. İsrailin Baş naziri Benyamin Netanyahunun "Süni intellekt bu günün alətidir" fikri bu əməkdaşlığın uzaq perspektivlərə yanaşı, məhz indiki çağırışlara da hesablandığını göstərir. Bu baxımdan süni intellekti Azərbaycan–İsrail münasibətlərinin yeni strateji sütunu kimi dəyərləndirmək mümkündür.

Xarici işlər nazirləri Ceyhun Bayramov və Gideon Saar arasında keçirilən görüşlərdə də bu xəttin prioritet olduğu açıq şəkildə vurğulanıb. Enerji, müdafiə, səhiyyə, yaşıl texnologiyalar və süni intellekt sahələrində genişlənən əməkdaşlıq Azərbaycan–İsrail münasibətlərini klassik diplomatik çərçivədən çıxararaq strateji sinerji modelinə çevirir.

Azərbaycanın süni intellekt strategiyası onu göstərir ki, ölkə qlobal texnoloji yarışa gec qoşulmur, mövcud enerji üstünlüyünü rəqəmsal gücə transformasiya etməyi hədəfləyir və süni intellekti həm iqtisadi inkişafın, həm də milli təhlükəsizliyin mühüm aləti kimi qəbul edir. Məlumdur ki, İsrail artıq real mənada rəqəmsal iqtisadiyyat qurmuş ölkələrdən biridir və bu modelin ən bariz göstəricisi innovativ, rəqəmsal məhsulların ixracıdır. Təkcə İsraildə innovasiya məhsullarının illik ixrac həcmi 50 milyard dollara çatır və bu göstərici davamlı şəkildə artır. Bu təcrübənin Azərbaycan üçün öyrənilməsi və uyğunlaşdırılması böyük əhəmiyyət daşıyır.

İsrailin təcrübəsi bu baxımdan Azərbaycan üçün olduqca uyğun modeldir. Kiçik daxili bazara malik olan İsrail məhz ixrac yönümlü innovasiya strategiyası hesabına qlobal uğur qazanıb. Azərbaycanın daxili bazarı da geniş deyil, lakin ambisiyaları böyükdür. Bu ambisiyaların reallaşması üçün süni intellekt əsaslı məhsulların yaradılması və ixracının təşviqi vacibdir.

Məhz bu kontekstdə Azərbaycan və İsrail arasında süni intellekt sahəsində əməkdaşlığa dair memorandum strateji əhəmiyyətə malikdir. Sənəd Azərbaycanın innovasiya və rəqəmsal iqtisadiyyat quruculuğunda qlobal təcrübəyə əsaslanan, gələcəyə yönəlik yanaşmasını nümayiş etdirir. Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün strategiyasında süni intellekt texnologiyalarının tətbiqi hesabına iqtisadiyyata illik 70 milyon manat həcmində əlavə dəyər gətirəcəyi xüsusi qeyd olunur.

***N.ABDALOV***
***XQ***

### *Ekspert rəyi*



**Fərid KAZIMOV**
**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi İctimai Şurasının üzvü**

Bu yanaşma onu göstərir ki, Azərbaycan artıq ənənəvi iqtisadi modeldən uzaqlaşaraq gələcəkyönümlü innovasiya əsaslı iqtisadiyyat qurmağa fokuslanır. Süni intellekt bu prosesin əsas dayaqlarından biridir. Dövlət idarəetməsində rəqəmsal həllərin tətbiqi sahəsində Azərbaycan artıq ciddi nailiyyətlər əldə edib və yaxın illərdə bu istiqamətdə qabaqcıl ölkələr sırasında yer alacağı gözlənilir. "Rəqəmsal hökumət 2.0", "user-centric" xidmətlər və MyGov platforması bunun nümunələridir.

Hazırda Azərbaycanda startap ekosistemi istənilən səviyyədə inkişaf etməyib və bu sahəyə münasibət hələ də tam formalaşmayıb. Halbuki potensial mövcuddur. İsraillə əməkdaşlıq bu potensialın reallaşdırılması, innovasiya mədəniyyətinin gücləndirilməsi və rəqəmsal ixracın sürətləndirilməsi baxımından mühüm imkanlar yaradır.

Süni intellekt dedikdə isə, müasir trendlərə uyğun olaraq Aİ-nin startaplarda iştirakı çərçivəsində də İsrail təcrübəsinə arxalanmaq olar. İsrail bu yola çıxanda özünü "startup nation" – yəni startaplar yaradan bir dövlət kimi təqdim etmişdi. Bu yanaşma təsadüfi deyildi. Ölkədə startap ekosisteminin formalaşması üçün güclü dövlət proqramları yaradıldı, xüsusi institutlar təsis olundu və startaplara sistemli dəstək mexanizmləri quruldu. Dövlət tərəfindən startaplara qrantlar ayrıldı və iki mərhələli qrant sistemi tətbiq edildi.

Bu modelə əsasən, startap ilkin mərhələdə qrant alaraq ideyasını məhsula – MVP-yə, yəni pilot versiyaya çevirir, bazarda test edir. Müəyyən edilmiş hədəflərə çatdığı halda isə ikinci mərhələdə əlavə qrant əldə edir. Bu sistem startaplara bir-iki il ərzində sabit fəaliyyət göstərmək, məhsulunu formalaşdırmaq, bazarını və müştəri seqmentlərini müəyyən etmək imkanı yaradır. Daha sonra isə onlar artıq vençur kapital fondlarına, investor mələklərinə və digər investisiya institutlarına müraciət edirlər.

Eyni zamanda, artıq süni intellekt dövrünə daxil olmuşuq. Bu gün süni intellektdən istifadə etməyən məhsullar qlobal bazarda rəqabət qabiliyyətini sürətlə itirir. Qərb ölkələrində investorlar süni intellekt komponenti olmayan layihələrə maraq göstərmir. Çünki süni intellekt məhsulların daha effektiv, daha sürətli və daha ucuz istehsalını təmin edir.

Mövcud proqnozlara görə, yaxın 5–10 il ərzində hətta cəmi 3 nəfərlik komanda ilə milyard dollarlıq dəyərə malik – "unicorn" statuslu startapların yaranması mümkündür. Bu, süni intellektin imkanlarının nə qədər geniş olduğunu açıq şəkildə göstərir. Kiçik komandalar süni intellekt əsaslı alətlərdən istifadə edərək qlobal miqyaslı məhsullar yarada biləcəklər.

Bu baxımdan İsrail süni intellektin tətbiqində də qabaqcıl ölkələrdən biridir. Təhlükəsizlik, müdafiə, kənd təsərrüfatı, sənaye və digər sahələrdə İsrailin böyük elmi-tədqiqat bazası və ciddi nailiyyətləri mövcuddur. Azərbaycan İsraillə imzalanmış əməkdaşlıq sənədləri çərçivəsində bu təcrübədən faydalanaraq öz innovasiya və süni intellekt əsaslı inkişaf modelini formalaşdıra bilər.

*I Türkoloji Qurultay*

# Türk xalqları hansı əlifbanı seçməlidir?

## *Ana dilimizin əlifba tarixindən*

**(əvvəli qəzetin 17, 23 və 29 yanvar 2026-cı il tarixli saylarında)**





Qaraçaylı İslam özündən əvvəl çıxış edənlərlə polemika aparmaq niyyətində olmadığını bildirir və heç bir əlifbanın üstünlüyünü və ya çatışmazlığını sübut etməyə çalışmadığını qeyd edir. O, vurğulayır ki, fərqli əsaslar və yeni prinsiplərlə yeni bir əlifba yaradılmalıdır. Onun təklif etdiyi latın əlifbası, daha dəqiq desək, latın yazı sistemidir.

Qaraçaylılar Şimali Qafqazın digər dağlıları kimi, bu məsələni özləri üçün həll etmişlər. Onlar bildirirlər ki, ərəb-müsəlman mədəniyyətinə aid olmağımıza baxmayaraq, Şərq mədəniyyəti ilə bağlı deyilik. Ərəb əlifbası əsrlər boyu türk xalqlarında mövcud olsa da, demək olar ki, bütün türk xalqları, o cümlədən qaraçaylılar savadsızdır. Sual olunur: Köhnə əlifbadan imtina edib yeni əlifba qəbul edəndə nə itiririk? Heç kim üçün mübahisəli deyil ki, yeni əlifba yaratmaq və onu qəbul etmək vaxtı çoxdan çatıb, xüsusilə qaraçaylılar üçün. Xalq və onun düşünən hissəsi yeni əlifbaya azadlıq əlifbası kimi baxır. Bu səbəbdən aydındır ki, bütün türk xalqları yeni əlifbaya qoşulmalıdır.

*

Əvvəlki natiqlərdən fərqli olaraq, Qaraçaylı İslam məruzəsində polemikadan kənar, lakin ideya baxımından olduqca prinsipial mövqe nümayiş etdirir. O, konkret əlifbaların texniki üstünlük və ya çatışmazlıqlarını sübut etməyə çalışmır, əksinə, müzakirəni seçim səviyyəsindən əlifba fəlsəfəsi səviyyəsinə qaldırır. Bu yanaşma onu sadəcə praktik maarifçi kimi deyil, ideoloji mövqedən yanaşan layihə müəllifi kimi təqdim edir. Onun əsas tezisi mövcud əlifbalardan hər hansı birinin seçilməsi deyil, tamamilə yeni prinsiplərlə qurulmuş yazı sisteminin yaradılmasıdır. Bu baxımdan, latın əlifbası qrafik formasına görə universal yazı sistemi, mədəniyyəti simvolizə edən forma kimi təqdim olunur və əlifba anlayışı dar texniki çərçivədən çıxır. Məruzəsinin mühüm ideoloji hissələrindən biri ərəb-müsəlman mədəniyyətinə münasibətin yenidən formullaşdırılmasıdır. Qaraçaylılar dini baxımdan müsəlmandır, lakin mədəni baxımdan "Şərq"ə aid deyillər. O, bu ifadə ilə din və mədəniyyəti ayırır, ərəb əlifbasının dini legitimliyini neytrallaşdırır, əlifba məsələsini dini çərçivədən çıxararaq dünyəvi müstəviyə keçirir. Bu o dövr üçün olduqca cəsarətli və konseptual mövqedir. Bu yanaşma ərəb əlifbasının tarixi legitimliyini zəiflədir və onu praktiki iflasa uğramış sistem kimi təqdim edir.

Qaraçaylının səsləndirdiyi: "Yeni əlifba qəbul edəndə nə itiririk?" – sualı ritorikdir. Cavabın açıq şəkildə verilməməsi özü-özlüyündə aydın olduğunu bir daha təsdiqləmək üçündür. Bu texnika mübahisə imkanını daraldır, əks–mövqeləri zəif və müdafiəsiz göstərir, yeni əlifbanı labüd tarixi mərhələ kimi təqdim edir. Məruzənin ideoloji zirvə nöqtəsi latın əlifbasının "azadlıq əlifbası" adlandırmasıdır. Latın əlifbası burada texniki rahatlıqdan daha artıq intellektual və mədəni azadlığın simvolu, düşünən zümrənin gələcək layihəsi kimi təqdim olunur. Bu ifadə əlifba islahatını siyasi-emosional motivasiya ilə gücləndirir və onu kütləyə açıq edir. Son mərhələdə qaraçaylıların mövqeyi lokal çərçivəsindən çıxarılaraq ümumtürk miqyasına daşınır. "Bütün türk xalqları" ifadəsi əlifbanı milli yox, mədəni birlik aləti kimi təqdim edir. Bu latın əlifbasını həm də kommunikativ inteqrasiya layihəsinə çevirir.

Məruzə texniki dilçilikdən çox ideoloji-mədəni manifest xarakteri daşıyır, sovet modernləşməsi ilə səsləşsə də, milli özünüdərkin yeni, dünyəvi formasını təklif edir. Bu baxımdan, Qaraçaylı İslamın çıxışı əlifba müzakirələrinin ən konseptual və fəlsəfi mövqelərindən biri kimi dəyərləndirilə bilər.

Sabaşkin etiraf edir ki, əlifba məsələsində mübarizəyə hazır deyil, lakin müəyyən təhlil aparıb. O bildirir ki, terminologiya, türk xalqlarının mədəniyyəti və inkişaf yolu müzakirə edilməlidir – geri qalmış türk kütləsi irəliləyib və bu məsələnin praktiki həll yolları tapılmalıdır, çünki hər dəyişikliyin real əsasları olmalıdır. Azərbaycan təcrübəsini nəzərə alanda, latınla yazılan bəzi materiallar artıq tanışdır, çünki rus məktəbində oxumuşuq. İki düşərgə konkret çıxış yolunu tapmalıdır: köhnə yazıda qalmaq, yoxsa yenisinə keçmək. Neytral mövqedən çıxış edən Sabaşkinə görə, türk xalqlarının ədəbiyyatı latın texnikası tətbiq edildikdə daha zəngin olacaq.

*

Sabaşkinin çıxışı əvvəlkilərlə müqayisədə emosional və ideoloji deyil, daha çox analitik xarakter daşıyır. O, açıq şəkildə "mübarizəyə hazır olmadığını" etiraf etməklə, öz mövqeyini möhkəmləndirmir, diskussiyanı sərt qütbləşmədən çıxarmağa çalışır, özünü neytral müşahidəçi və vasitəçi kimi təqdim edir. Bu, sovet qurultay diskursunda nadir, lakin diqqətəlayiq strategiyadır. Sabaşkin əlifba məsələsini dar çərçivədə texniki problem kimi deyil, terminologiya, mədəni inkişaf və tarixi yol kontekstində görür. Bu yanaşma göstərir ki, əlifba dəyişməsi təkbaşına məqsəd deyil, daha geniş mədəni-modernləşmə mərhələsinin yalnız bir hissəsidir. "Geri qalmış türk kütləsi irəliləyib" ifadəsi klassik sovet terminologiyasını xatırlatsa da, burada inkişafın fakt kimi qəbul edilməsi vurğulanır. Məruzənin əsas intellektual dayaqlarından biri praktik realizmdir – "Hər dəyişikliyin real əsasları olmalıdır" tezisi ideoloji şüarlardan uzaq durmaq istəyi, əlifba islahatının sosial və pedaqoji nəticələrini hesablamaq tələbi kimi oxunur. Bu mövqe Sabaşkini radikal islahatçılardan fərqləndirir. Onun məruzəsində Azərbaycan nümunəsi arqument kimi istifadə olunur. Latın qrafikasında yazılmış materialların rus məktəbində oxuyanlar üçün artıq tanış olması göstərir ki, latın əlifbası tamamilə yad deyil, keçid psixoloji və texniki baxımdan mümkün görünür. Sabaşkin mövcud vəziyyəti iki alternativlə şərtləşdirir: köhnə yazıda qalmaq, yeni yazıya keçmək. Lakin bu ikiləşmə status-kvonun davamının qeyri-mümkünlüyünü, qərarın gecikdirilməsinin zərərli olacağına işarə edir.

İvanov qeyd edir ki, Çuvaş Respublikasında əlifba mövcud formada 50 il əvvəl yaradılmışdır. Onun təklifinə görə, əlifbanın iki tərəfi nəzərdən keçirilməlidir: birincisi, dilin səs aspektini nə qədər əhatə etməsi, ikincisi isə qrafikası. Bu baxımdan, əlifba mükəmməl olmasa da, pis sayılmaz. Tədris aparılan yerlərdə əlifbanın səs və qrafika baxımından müəyyən natamamlıqları barədə heç vaxt müzakirə qaldırılmayıb. Doğrudur, qrafik baxımdan bəzi çatışmazlıqlar – üst işarələr mövcuddur, amma sayı çox deyil və bu səbəbdən əlifbanı dəyişmək məsələsi gündəmə gətirilmir.

*

İvanov məruzəsində əlifba müzakirələrinin konservativ-rasional mövqe sərgiləyir. Digər natiqlərdən fərqli olaraq, o, əlifbanı nə ideoloji simvola çevirir, nə də onu mədəni xilas layihəsi kimi təqdim edir. Məruzə sabitlik və praktik davamlılıq üzərində qurulub. Əlifbanın 50 il əvvəl yaradılması faktı təsadüfi deyil, bu, onun artıq tarixi legitimliyə və təcrübə ilə sınaqdan çıxmış statusa malik olduğunu göstərmək üçündür. O, əlifbanı qiymətləndirmək üçün aydın və elmi baxımdan əsaslandırılmış iki şərt irəli sürür: 1)fonetik adekvatlıq – dilin səs sistemini nə dərəcədə əhatə etməsi; 2)qrafik uyğunluq – yazı formasının istifadəyə yararlılığı. Bu yanaşma əlifba mübahisəsini emosional və ideoloji müstəvidən, struktur-linqvistik təhlil müstəvisinə keçirir. Əlifbanın "mükəmməl olmadığını" etiraf etsə də, onu "pis" hesab etmir. Bu, optimalizm mövqeyidir. Əlifba ilə bağlı tədris mühitində problem qaldırılmaması çox əhəmiyyətlidir. Bu, göstərir ki, əlifba real istifadədə funksionaldır, onun qüsurları sistematik maneəyə çevrilməyib, dilin öyrədilməsi və ötürülməsi baxımından böhran yaratmır. Beləliklə, əlifba yalnız nəzəri cəhətdən deyil, praktik sınaqdan çıxmış mexanizm kimi təqdim olunur.

Diakritik çatışmazlıqlar sırasında "sətirüstü işarələr" qeyd edilir. Lakin onların sayının az olması, oxu-yazı prosesinə ciddi maneə yaratmaması xüsusi vurğulanır. Bu, latınlaşdırma tərəfdarlarının tez-tez irəli sürdüyü "əlifba sadə olmalıdır" fikrinə dolayı cavabdır. İvanovun çıxışında əsas məqsəd əlifbanı müdafiə etmək deyil, əlifba dəyişikliyi ehtiyacını aradan qaldırmaqdır. Məntiq belə qurulur: əlifba işləkdir, qüsurlar sistemli problem yaratmır, tədris və mədəni dövriyyə pozulmur.

Qorxmasov bildirir ki, müzakirələrə görə latın əlifbası çoxsaylı islahatların məhsuludur, ərəb əlifbası isə hələ də ilkin sadəliyindən uzaqdır. Bir neçə inqilab latın əlifbasını xalq kütlələrinə yaxınlaşdırıb, ərəb əlifbası isə hələ də yalnız azsaylı, elit təbəqəni təmsil edənlər üçün əlçatandır. Latın əlifbası Şimali Qafqaz, Azərbaycan, Yakutiya və digər ölkələrdə təcrübədən keçmişdir. Buna görə də, daha təkmil olan latın əlifbasını qəbul etməli, onu öz dilimizə uyğunlaşdırmalı və həyatımızın digər şərtləri ilə uzlaşdırmalıyıq.

Əlifba mədəniyyət və sosial həyatla sıx bağlıdır. Ərəb əlifbası tarixdə azsaylı elit təbəqə və ruhani sinfin mədəni istehsal və hakimiyyət aləti kimi yaranmış, xalq üçün əlçatmaz olmuşdur. Ərəb əlifbası yalnız burjua sinfinin təzyiqi altında islah olunmağa başlamışdır və bu sinif öz hakimiyyətini qorumağa çalışmışdır. 1905-ci il burjua-demokratik inqilabi hərəkatı ilə Türkiyə, ərəb ölkələri və digər müsəlman ölkələrində ərəb əlifbasının islahı məsələsi qaldırılmışdır. Lakin islah edilmiş əlifba da sinfi mənşəyini əks etdirir və geniş kütlələr üçün hələ də çətin əlçatandır.

Latın əlifbası inqilabın məhsuludur: bunu başa düşməli, qiymətləndirməli və ən yaxşı, ən sürətli üsulla tətbiq etməliyik. Daha gecikmək olmaz; zaman bizi gözləmir. Bu səbəbdən Tatarıstan və Qazaxıstan nümayəndələrinin arqumentlərindəki xırda iradlar açıq görünür: birincilər latın əlifbasına qarşı çıxaraq beş yüz illik mədəniyyətlərinə istinad edirlər, lakin onun klerikal xarakterini unudurlar; ikincilər isə on üç illik "mükəmməl" əlifba ilə fəxr edirlər. Belə səthi yanaşmaq olmaz: bu, tarixə qarşı getmək deməkdir. Tarixi anlamaq üçün daha həssas və dərin münasibət lazımdır; əks halda, biz, geridə qalmış xalqlar, daha da geri qalacağıq.

Bütün türkdilli və müsəlman xalqlar üçün aydın olmalıdır ki, Şərq hazırda böyük bir dönüş nöqtəsi yaşayır. Mədəni və siyasi baxımdan digər Şərq xalqlarına nümunə olmalıyıq. Bunu zorla ərəb əlifbasını saxlamaqla deyil, latın əlifbasının üstünlüklərini göstərməklə edəcəyik. Latın əlifbasını qəbul etməyimiz tarixin yeni bir dövrünü açacaq.

*

Qorxmasovun məruzəsi müzakirələr içində ən açıq ideoloji, tarixi mövqeni təmsil edir. Digər natiqlər daha çox praktik, texniki və ya kompromisli arqumentlər irəli sürdüyü halda, o, əlifba məsələsini birbaşa sinfi mübarizə və inqilabi tarix fəlsəfəsi müstəvisində təhlil edir. Burada əlifba artıq dilçilik problemi deyil, istehsal münasibətlərinin və hakimiyyət strukturunun məhsulu kimi təqdim olunur.

Qorxmasovun əsas analitik xətti əlifbaların genezisi üzərində qurulub: latın əlifbası çoxsaylı islahatların, inqilabların və sosial transformasiyaların nəticəsidir, ərəb əlifbası ilkin sadəliyindən uzaqlaşmış, dəyişməyə müqavimət göstərən, tarixən elit təbəqələrin inhisarında olmuş sistemdir. Bu qarşılaşdırma texniki yox, tarixi-funksional tipologiya yaradır. Latın əlifbası "açıq", "islaha açıq", "xəlqiləşmiş" sistem kimi təqdim edilir; ərəb əlifbası isə "qapalı", "elitar" və "tarixi ləngidən" struktur kimi xarakterizə olunur. Onun diskursunda latın əlifbasının əsas üstünlüyü onun kütlələrə yaxınlaşdırılmasıdır. "Bir neçə inqilab latın əlifbasını xalq kütlələrinə yaxınlaşdırıb" fikri burada həlledici rol oynayır. Bu tezis göstərir ki, yazı sistemləri neytral deyil, onların forması və mürəkkəbliyi sosial iştirak səviyyəsini müəyyən edir. Əlifba maarifləndirmə aləti olmaqla yanaşı, siyasi subyektivlik yaradan mexanizm kimi təqdim olunur. Məruzənin ən kəskin hissəsi ərəb əlifbasının ruhani sinfinin əlində hakimiyyət aləti kimi təsvir edilməsidir: ərəb əlifbası xalq üçün deyil, elit istehsal və idarəetmə ehtiyacları üçün formalaşıb, onun islahı yalnız burjua təzyiqi ilə mümkün olub, islah olunmuş variant belə sinfi izlərini qoruyur və kütlələr üçün əlçatan deyil. 1905-ci il burjua-demokratik hərəkatına istinad xüsusi əhəmiyyət daşıyır. Qorxmasov bununla ərəb əlifbasının islahının inqilabi yox, kompromis xarakterli olduğunu diqqətə çatdırır və qeyd edir ki, bu səbəbdən kütləvi maarifləndirmə potensialı məhdud qalıb. Məruzəsinin sonunda Qorxmasov Şərq anlayışını yenidən mənalandırır: Şərq artıq passiv, ənənəvi məkan deyil, böyük dönüş nöqtəsində olan aktiv tarixi obyektdir. Bu dönüşün simvolu isə latın əlifbasıdır. Ərəb əlifbasını "zorla saxlamaq" geriliyin davamı kimi təqdim olunur; latın əlifbasını qəbul etmək isə nümunəvi modernləşmə aktıdır.

S.Ağamalıoğlu iki məsələyə toxunur. Birincisi, kazanlı yoldaşların 500 illik ədəbiyyat tarixinə istinad etməsi, görünür, onlara yeni əlifbaya keçməyə mane olur. Lakin bu, tarixin günahı deyil. Təxminən, həmin dövrdə azərbaycanlıların da ədəbiyyatı vardı. Məsələn, Füzulini götürsək, Azərbaycan ədəbiyyatı da eyni inkişaf trayektoriyasını göstərir. Baytursun isə deyir: Kimdə ağıl varsa, ərəb əlifbasında qalsın; kimdə ağıl yox, hiss varsa, yeni əlifbaya keçsin. S.Ağamalıoğlu vurğulayır ki, insanlar bu qarmaqarışıqlara öyrəşmişdir – bu, artıq hissdir, ağıl isə həyatın tələb etdiyi, doğma olanı seçə bilir.

İkincisi, müxtəlif prinsiplər irəli sürülmüşdür, lakin təbiətdə sosial həyatın və insanın inkişaf tarixinin ali qanunu mövcuddur; bütün prinsiplər bu qanuna tabedir. Türklər və tatarlar üçün indi belə bir imkan yaranıb: bu inqilabi dövrdə yeni əlifbaya keçmək, tatar və türk xalqına əsas vermək, özlərindən əsarəti götürmək, hamı ilə bərabər olmaq, lazımsız köhnə vərdişlərə qapılmamaq və insanlıqla birlikdə irəliləmək.

*

S.Ağamalıoğlunun məruzəsi əlifba müzakirələrində sintezçi və normativ-ideoloji mövqeni təmsil edir. O, bir tərəfdən konkret polemik nöqtələrə toxunur (Kazanlı yoldaşlar, Baytursun), digər tərəfdən isə müzakirəni ümumi tarixi-fəlsəfi qanunauyğunluq müstəvisinə keçirir. Bu, onu təkcə mübahisə iştirakçısı kimi deyil, müzakirəni yekunlaşdıran ideoloq olduğunu göstərir. S.Ağamalıoğlu Kazan nümayəndələrinin əsas arqumentini – "beş yüz illik ədəbiyyat tarixi"ni emosional maneə kimi təqdim edir. Onun məntiqi belədir: uzun ədəbiyyat tarixi əlifbanın dəyişməzliyi üçün əsas deyil, tarix özü neytraldır, onu yanlış oxuyan insanlardır. Azərbaycan nümunəsinin (Füzuli) gətirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu nümunə ilə mədəni dəyərin əlifbaya bağlı olmadığı, eyni tarixi dərinliyə malik xalqların yeniliyə açıq olduğu göstərilir; tarix maneə yox, müqayisə obyektidir.

Baytursunun "ağıl–hiss" bölgüsü S.Ağamalıoğlu tərəfindən yenidən mənalandırılır. Baytursun hissi yeni əlifbaya keçid motivasiyası kimi təqdim edərkən S.Ağamalıoğlu bunun əksini iddia edir: Köhnə əlifbaya bağlılıq öyrəşmə və hissdir, yeni əlifbanı seçmək isə rasional, həyati zərurətə əsaslanan qərardır.

Məruzənin fəlsəfi nüvəsini "təbiətdə sosial həyatın və insanın inkişaf tarixinin ali qanunu" anlayışıdır. Bu anlayış tarixi determinizmlə səsləşir, lakin onu milli – əlifba məsələsinə tətbiq edir. Burada bütün fərdi prinsiplər (əlifba seçimi, ənənə, mədəni irs) ikinci dərəcəli sayılır, əsas olan insanlığın ümumi inkişaf xəttidir. S.Ağamalıoğlu üçün əlifba dəyişikliyi sadəcə texniki islahat deyil, tarixi fürsətdir. O, bu fürsəti belə əsaslandırır: yeni əlifba əsarətdən azad olmaq, bərabərlik, mədəniyyətlə irəliləyişdir. Onun fikirlərində əlifba dəyişməsi etik və siyasi məna qazanır. "İnsanlar bu qarmaqarışıqlara öyrəşmişdir" ifadəsi əlifba məsələsini kütlə psixologiyası prizmasından izah edir. Köhnə yazının müdafiəsi mədəni üstünlük yox, vərdiş kimi təqdim olunur.

Məruzə ideoloji baxımdan ardıcıl və sistemlidir, emosional arqumentləri rasional çərçivəyə salır, əlifba mübahisəsini tarixi və sosial azadlıq anlayışları ilə sintez edir. S.Ağamalıoğlunun məruzəsi əlifba məsələsini fərdi seçim yox, tarixi məsuliyyət kimi təqdim edir və müzakirələr içində yekunlaşdırıcı mövqe tutur.

*

Qurultayın qərarına uyğun olaraq, Sovet İttifaqına daxil olan digər türk respublikalarında da ərəb əlifbası latın qrafikası ilə əvəz edildi: 1929–1939-cu illər arasında bütün türk respublikalarının ərazilərində latın qrafikası istifadə olunurdu, lakin 1930-cu illərin sonlarında Sovet rəhbərliyi bu əlifbanı dəyişdirmək üçün fəaliyyətə başladı. 1939-cu ildə SSRİ-nin milli respublikalarında kiril qrafikasına keçidlə bağlı qərar qəbul edildi. Rəsmi izahda latın əlifbasından kiril əlifbasına keçidin "əməkçilərin ümumi arzusu ilə həyata keçirildiyi" bildirilirdi.

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

# Zəfər savaşının ilk gününün qəhrəmanı

## *35 yaşlı şəhid Ceyhun Həsənovun 40 yaşı tamam oldu*

**Vətən müharibəsinin şəhidlərindən danışanda, adətən, onların keçdiyi yollar – işğaldan azad edilən kəndlər, rayonlar göz önünə gəlir. İlk gündən Zəfərədək silaha sarılan, hətta Qələbədən də sonra düşmən gülləsinə tuş gələn şəhidlərimiz də var, cəmi 1 gün ərzində qəhrəmanlıq səviyyəsinə yüksələn şəhidimiz də. Tovuzun dağ vüqarlı dağlı balası Ceyhun kimi...**



Ceyhun Aydın oğlu Həsənov 1985-ci il oktyabrın 29-da Tovuz rayonunun səfalı dağ kəndlərindən olan Çeşməlidə anadan olub. Ailə Bakıda yaşadığından Ceyhun 1992–2001-ci illərdə Bakı şəhəri, Xətai rayonu Ə.Abbasov adına 257 nömrəli tam orta məktəbdə təhsil alıb. Orta məktəbi bitirəndən sonra hərbçi olmaq arzusuna çatmaq məqsədilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub.

2001–2003-cü illərdə hərbi təhsil alan Ceyhun Həsənov biliklərini daha da təkmilləşdirmək istəyib. Bu məqsədlə 2004–2008-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) "motoatıcı" ixtisası üzrə ali hərbi təhsilə yiyələnib.

Hərb sənətinin incəliklərini mükəmməl öyrənən Ceyhun Həsənov öncə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən hərbi hissəsində qulluq edib. Daha sonra isə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətə davam edib. Hər bir hərbçi kimi onun da ən böyük arzusu işğalda olan torpaqların azad edilməsində iştirak etmək olub.

Nəhayət, arzuladığı gün yetişib. Kapitan Ceyhun Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlayan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşa başlayıb. Onun Şuşaya bayraq sancmaq arzusunu döyüş yoldaşları gerçəkləşdiriblər. Çünki Ceyhun Həsənov elə müharibənin ilk günü – sentyabrın 27-də Füzulidə şəhid olub. Amma şəhidimiz 1 gün içində elə qəhrəmanlıq göstərib ki, başqa hərbçinin 44 günlük savaşına bərabər olub. Məhz o gündə göstərdiyi şücaətə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, Ceyhun Həsənov ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Qəhrəman kapitan İkinci Fəxri xiyabanda dəfn edilib. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə dövlət başçısının sərəncamlarına əsasən, Ceyhun Həsənov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə də təltif edilib.

Ceyhun Həsənov ailəli idi, 2019-cu ildə Cahid və Cavidan adlı əkiz oğlu olub. Şəhidimiz haqqında bu bioqrafik məlumatdan sonra onu da qeyd etmək yerinə düşər ki, Ceyhun ailənin tək oğul övladı idi. Vətənə qurban gedən bir oğul anasının nə çəkdiyini yalnız özü bilər. Bunu Səmayə xanımın fikirləri yaxşı anladır. **Ana oğlu haqqında danışır, çərçivədəki şəklinə baxıb ona xitabən dediyi sözlər insanın**



**içini göyüm-göyüm göynədir:**

– Oğlum, azad etdiyin torpaqlarda ruhun gəzəcək. Bir də, onu demək istəyirəm ki, sən avqustun 6-da əkiz oğul övladlarının ad gününü, ilk yaşlarını qeyd etdin, amma bir daha qeyd edə bilməyəcəksən. Böyüyəndə biləcəklər ki, onların atası kimdir. Biləcəklər ki, bu torpağı qanları ilə Vətən edənlərdən biri də onların atasıdır. Balaların səni şəkillərdə, tarixlərdə axtaracaq, kim olduğunu anlayanda səninlə fəxr edəcək məsum körpələrin. Vətənini balalarından, anasından yüksəkdə tutan komandir oğlum. Ruhun şad olsun. Xalqımızda deyərlər: "Anaların borcunu heç nə ilə qaytarmaq olmaz". İndi mən belə deyirəm ki, oğul, sənin borcunu heç nə ilə qaytara bilmərəm. Həyatda sənə nə əziyyət çəkmişəmsə halal edirəm. Sən də haqqını mənə halal elə, əbədi 35 yaşlı qalan balam! Bu ay sənin 40 yaşın tamam olur, qəhrəman oğlum.

**Ceyhunun ilk, eyni zamanda, son savaş gününün təfərrüatlarını döyüş yoldaşlarından biri, çavuş Şahin Mehdiyev belə xatırlayır:**

– Biz bir yerdə 3 aya yaxın idi ki, təlim keçirdik. Komanda çox böyük ruh yüksəkliyi ilə çalışırdı. Demək olar ki, 3 ay idi gecə-gündüz komandirə məxsus olan heyətlə daim bir yerdə olurduq. Ceyhun Həsənov Beyləqan rayonunda "N" saylı hərbi hissədə bölük komandiri vəzifəsində çalışırdı. Onun şəxsi heyətində 80-ə yaxın canlı qüvvə var idi. Həmçinin Ceyhun Həsənov BMP komandiri də olub.



Nankor düşmənlərimiz, yəni ermənilər atəşkəsi yenidən pozanda artıq bunları susdurmaq zamanı çatmışdı. Həmin anı gözləyən kapitan Ceyhun Həsənov komandirinin tapşırığı ilə 27 sentyabr 2020-ci ildə döyüşə hazırlaşdı. O, öz şəxsi heyəti və ona məxsus olan 7 BMP, 4 tank, bir neçə texnika ilə hərəkətə keçdi, şəxsi heyətini hərtərəfli təlimatlandırdı: "Biz güclü olmalıyıq, hamı bir nəfər kimi ardınca irəli".

Onu da dedi ki, ola bilər mənfur düşmən mən oturduğum BMP-ni vurar, amma mənim igidlərim, birdən dayanarsınız ki, mənə kömək göstərərsiniz. Sizə mən əmr edirəm və tapşırıram ki, dayanmadan irəli! Necə demişdi, elə də oldu.

Hücuma keçdik. Komandirin BMP-si öndə. Şiddətli döyüş gedirdi. Hər tərəfdən bizi atəşə tutmuşdular. Bir neçə texnikamız sıradan çıxdı. Şəhidlərimiz var idi. Buna baxmayaraq, Ceyhun Həsənovun bacarığı sayəsində bir neçə yüksəkliyi aldıq, 3 erməni postunu dağıtdıq. Füzulinin azadlığı uğrunda gedən şiddətli döyüşdə idik. Uğurlarımızı gördükcə sevincimizin həddi-hüdudu yox idi. Ermənilərin birinci eşalonunu darmadağın etdik.

Komandirin hər an bir sözü var idi: "İgidlərim, arxamca, irəli". Döyüş çox şiddətləndi. Mənfur düşmən hər tərəfdən hər növ silahdan istifadə edirdi. Bizi məğlub etməyə çalışırdı, amma ordumuz elə həvəslə vuruşurdu ki, belə ordunun qabağını kəsmək mümkün deyildi. Ağır artilleriyaların atılmasına məhəl qoymayan komandir koordinatları bir-bir mənə ötürürdü, mən həmin hədəfləri vururdum.

Şahinin sözlərinə görə, Ceyhun son nəfəsində soruşub: "Şahin, sonuncu mövqeni vurduq?". O da cavab verib ki, bəli, komandir, vurduq. Ceyhun elə bil bu cavabı gözləyirmiş. Gülümsəyərək silahdaşının əlini sıxıb, gözlərini yumaraq şəhidlik zirvəsinə yüksəlib. "Mən özüm də yaralanmışdım. Sonra bilmədim necə oldu... Ceyhunda o qədər qəhrəmanlıq, qorxmazlıq, mərdlik hissi var idi ki. Ona bütün qəhrəmanlıq adları azdır. Komandirim çox hünərli, cəsarətli, savadlı, həm də bacarıqlı idi. Ruhun şad olsun, komandir!".

Ceyhunun atası Aydın Həsənovun təsəllisi isə budur: "İndi o, tək bizim ailənin deyil, bütün Vətənin övladıdır".

2021-ci ildən Bakı şəhəri 48 nömrəli tam orta məktəb Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Həsənovun adını daşıyır. 2024-cü ildə məktəbin həyətində onun büstü qoyulub. Şəhidin şəxsi əşyaları ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin İkinci Qarabağ müharibəsi fonduna təhvil verilib.

# Zabit şərəfinin ucalığı

**Əfşan Hüseynov 1996-cı il martın 16-da Tovuz rayonunun axar-baxarlı, meşələr qoynunda yerləşən, hər ağacının altında bir bulaq qaynayan Əsrik Cırdaxan kəndində dünyaya göz açıb. 2002–2013-cü illərdə Əsrik Cırdaxan kənd tam orta məktəbində təhsil alıb. Yuxarı sinifdə oxuyanda "mülki müdafiə və hərbi hazırlıq" dərsində müəllimin öyrətdiklərini və silahla davranma qaydalarını dərindən mənimsəyən Əfşanda hərb sənətinə ciddi maraq oyanıb.**

Əfşan ailədə, qohum-qonşu arasında da daim Ermənistanın işğalı altında olan torpaqlarımızın azad ediləcəyi günə az qaldığı barədə eşitdiyi söhbətləri diqqətlə dinləyərdi. Kəndin Birinci Qarabağ savaşında şəhid olan igidlərini sinif yoldaşları ilə ziyarət edəndə onların məzarı başında özünə Qarabağın işğaldan azad edilməsi uğrunda gec-tez başlanacaq savaşa qoşulacağına və bu döyüşlərdə sonadək iştirak edəcəyinə söz vermişdi.

Orta məktəbi bitirdikdən sonra başqa peşə barəsində heç düşünmədən valideynlərinin razılığını və xeyir-duasını alıb sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verdi. Məktəbdə təhsil aldığı 2013–2017-ci illərdə müxtəlif tapşırıqlar və təlimlərdə iştirak edib hərb sənətinin incəliklərini öyrəndi. Əfşan Hüseynov 2017-ci ildə "leytenant" hərbi rütbəsi alaraq Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmətə başladı. Xidməti dövründə bacarığı, qabiliyyəti və nizam-intizamı ilə seçildi, çox keçmədən "baş leytenant" hərbi rütbəsinə yüksəldi.

Azərbaycan Ordusunun baş leytenantı olan Əfşan Hüseynov 2020-ci il sentyabrın



27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı döyüşə Füzulinin işğaldan azad edilməsi uğrunda gedən savaşla başladı. Rayonun özündə və kəndlərində gedən ağır və şiddətli döyüşlərdə iştirak edən Əfşan, eyni zamanda, Cəbrayılın və Hadrutun işğaldan azad olunması uğrunda gedən vuruşmalarda da mərdliklə savaşıb. Bir-birinin ardınca çətin döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gələrək qarşı tərəfin bir neçə alınmaz hesab edilən postunu və texnikasını ələ keçirib.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində rəşadət göstərən Əfşan vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə, ölkə Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib. Eyni zamanda, dövlət başçısının sərəncamlarına əsasən, Əfşan Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Əfşan Hüseynov, həmçinin xidməti dövründə "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" yubiley medalı ilə də təltif edilmişdi.

Döyüş yoldaşları danışırlar ki, Əfşan zabit şərəfini hər zaman üstün tutaraq şəxsi heyətin önündə gedirdi. Heç kəs onun



dəqiq ixtisasını bilmirdi. Çünki mükəmməl döyüş taktikaları ilə özünü və şəxsi heyətini həmişə düşdükləri vəziyyətdən çıxarırdı. O, komandir olaraq şəxsi heyəti ardınca aparmağı bacarıb. Onun sonuncu döyüşləri Füzuli rayonunun Alxanlı kəndi ərazisində olub. Əfşan bölüyü ilə birlikdə ən çətin tapşırıqları yerinə yetirib, strateji postları alıb. Cəsur zabit düşmənin bir neçə tankını, BMP-sini də qənimət olaraq ələ keçirib.

Müharibədə döyüşlər arasında nisbətən sakitlik yarananda imkan tapıb ailəsi ilə bir neçə dəfə telefon əlaqəsi saxlayıb. Anası Şəhla ilə danışanda bacısı Ayşəni, atası Əbülfəzi soruşub. Həqiqi hərbi xidmətdə olan qardaşı Elcanla əlaqə olub-olmadığı ilə maraqlanıb. Döyüşlərin birində ağır yaralanan vaxt da ailəsi ilə bir neçə dəfə danışıb. Amma onlara nə harada olduğunu, nə də yaralandığını deyib.

Onun əsas nigarançılığı qardaşından olduğuna görə anası ilə növbəti dəfə danışanda Elcan barədə məlumat aldıqdan sonra rahat olub və döyüşçülərə də hər şeyin yaxşı olacağını bildirib.

Yoldaşları ona hospitala getməli olduğunu desələr də, bölüyündəkiləri tək qoymaq istəməyib, "hamımız bir canıq"– deyərək döyüşə davam edib. Əfşan Hüseynov oktyabrın 26-da Füzuli döyüşləri zamanı Alxanlı kəndi istiqamətində şəhid olub. Tovuz rayonunun Əsrik Cırdaxan kəndində dəfn edilib.

Əfşan subay idi. Ana-atasını yandıran da onun şəhidliyindən çox, bu dünyadan nakam köçməsidir. Şəhla xanım göz yaşlarını gizlətmir, aşkar görünür ki, ürəyinin yanğısı ötən illərdə hələ də soyumayıb. "Biz onu nə arzularla böyütdük, elə bil heç yox imiş, 24 yaşında əlimizdən uçdu, getdi. Barı, evlənsəydi, bir yadigarı qalardı, ona baxıb təsəlli tapardıq. Biz ona yol göstərmədik, xeyir-dua verdik. Özü seçdi, sənətini də, şəhidliyi də", – deyir anası.

Atası isə nə qədər özünü təmkinli saxlamağa çalışsa da, səsinin titrəyişindən qəhərləndiyi aydın sezilir: "Neyləmək olar? Tək mənim balam deyil ki, şəhid olan. Qisməti belə imiş. Onun alnına taledən belə ömür yazılıbmış. Şükür Tanrının məsləhətinə. Gör, nə qədər şəhidimiz var? Oğullar Vətəni qorumayandan sonra kim qoruyacaq? Balamın itkisi qəlbimi yandırsa da, azadlıq yolunda şəhid olduğuna görə təskinlik tapıram".

Əbülfəz Hüseynov doğru deyir. Şəhid olan tək onun balası deyil. Şəhidlər bir ailənin, bir kəndin, bir rayonun yox, bütün xalqın övladıdır. Xalqımız onlarla fəxr edir, xatirələrini əziz tutur. Çünki əzəli və əbədi torpaqlarımızı işğaldan azad edib bizə əmanət edən şəhidlər canlarını torpağa, ruhlarını isə Allaha əmanət etdilər.

# Vətənin nicatı yolunda şəhid olmuş Nicat



**Ermənistanın işğalı ilə bağlı yurd-yuvalarını tərk etməyə məcbur olanlardan biri də 1989-cu il dekabrın 9-da Ağdam rayonunun İsmayılbəyli kəndində anadan olan Nicatgilin ailəsi olub. Atası Aydın Həsənquliyev bir neçə qonşu kimi ailə üzvləri ilə birlikdə İsmayıllı rayonuna sığınıb. Burada onlara göstərilən isti münasibətə görə ailə rayonu özünə ikinci doğma yurd hesab edib. Beləliklə, bələd olmadıqları rayonda onların köçkünlük həyatı başlayıb.**

Nicat İsmayıllı şəhər E.Məmmədov adına 3 saylı tam orta məktəbdə təhsil alıb. Məktəb illərində fəal, güclü idmançı kimi tanınıb. "Vətənin müdafiəsinə hazıram", "Şahin" hərbi idman oyunlarından və çoxnövçülük üzrə yarışlardan həmişə birinci yeri qazanaraq qələbə ilə dönüb. Fəxri fərmanlarla, diplomlarla mükafatlandırılıb. Ədəbiyyat dərslərində inşa yazmaq tapşırılanda həmişə onun Vətən haqqında yazdığı inşalar fərqlənib və ən gözəl yazı kimi dəyərləndirilib. Hərbi dərslərdə avtomatı elə tez söküb yığırmış ki, müəllimləri onun bu cəldliyinə məəttəl qalırmış.

Hədəfi həmişə ilk atışdan vuran Nicat həqiqi hərbi xidmətdə kəşfiyyat bölüyündə xidmət edib və kiçik çavuş rütbəsi alıb. O, manqa komandiri olub. Elə hərbiyə maraq da onu həmin sənətin dalınca aparıb. Müdafiə Nazirliyinin müddətdən artıq həqiqi hərbi xidmətə qəbul elanı ilə arzusunu həyata keçirmək imkanı əldə edib. Kurslarda iştirak edərək müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi Beyləqanda "N" saylı hərbi hissənin xüsusi əməliyyat taborunda qulluğa başlayıb.

Kiçik çavuş Nicat Həsənquliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nicat Həsənquliyev oktyabrın 25-də Füzulinin Yuxarı Əbdürrəhmanlı kəndində gedən şiddətli döyüşlər zamanı şəhid olub.

Nicat haqqında sənədlərə, mini filmlərə baxmaq kifayət edir ki, igid şəhidimiz haqqında ətraflı məlumat əldə edək. Atası Aydın Həsənquliyevin kövrək söhbətləri, anası Seyrangül xanımın dik duruşu, qardaşları Təbiyyət və Müşfiqin fəxarət dolu söhbətləri onun haqqında çox mətləblərdən xəbər verir. Öyrənirik ki, döyüşlər vaxtı Nicat imkan tapıb zəng edəndə vaxt azlığından çox danışmırmış, deyirmiş ki, məndən nigaran qalmayın, müharibə bitsin, gəlib çox hadisələr danışacağam.

Atanın üzünə, sanki, qara buludlar çökür, xəyalən həmin günlərə qayıdır: "Deyirdi ki, telefonla mümkün olmur, inşaallah, gələndə danışmağa o qədər söhbət var ki… Onun döyüş yoldaşlarından sağ qalanı da var, yaralanıb qazi olanı da, şəhid olanı da. Allah şəhidlərimizə rəhmət etsin, hələ də müalicə alanlara, reabilitasiya keçənlərə kömək olsun. Yoldaşlarının söhbətlərindən öyrənirik ki, oğlumuz çox cəsarətlə döyüşüb, həmişə fərqlənib. Şəhid valideynlərinə sözüm budur ki, onlar əyilməsinlər, həmişə başıdik gəzsinlər ki, yurdumuzu, el-obamızı mənfur erməni işğalında qalmaqdan xilas ediblər".

Anası Seyrangül xanım övladlarını necə vətənpərvər böyütdüyündən söz açır. Köçkünlüyün onlarda digər gənclərdən daha çox Vətən sevgisi yaratdığından, doğma yurdlarını azad etmək, ermənidən qisas almaq istəyi ilə müharibə başlayarsa, hamıdan öncə silaha sarılmaq istəklərini xatırlayır.

Nicatın qardaşı Təbiyyət və Müşfiq onunla qürur duyduqlarını deyirlər. Bildirirlər ki, Nicat MAHHXHQ kimi, Beyləqan rayonundakı "N" saylı hərbi hissənin xüsusi əməliyyat taborunun birinci bölüyündə xidmət edib. Müharibə başlayan gündən xüsusi tapşırıqla Füzulidə döyüşə başlayıb. Son döyüşü oktyabrın 25-də Yuxarı Əbdürrəhmanlı kəndində düşmənin mühəndis istehkam baxımından ən əlverişli mövqeyinin azad edilməsi uğrunda olub.



Burada çox ağır döyüşlər gedib. Amma necə olur-olsun həmin istehkam düşməndən azad edilməli idi və böyük itkilər verən ordumuz buna nail olub.

Şiddətli döyüşdə şəhid olanlardan biri də Nicat Həsənquliyev olub. Nicatda erməniyə nifrət daha çox idi. Buna səbəb o idi ki, əmisi Birinci Qarabağ müharibəsində şəhid olmuşdu. Xalası isə həyətində təndirdə çörək bişirərkən Xocavənd rayonunun Qarakənd kəndindən atılan qrad mərmisi nəticəsində oğlu ilə birlikdə həlak olmuşdular. Onunla əlaqə saxlayanda hərbi məxfilik baxımından heç bir məlumat vermirdi. Amma ölümündən sonra döyüş yoldaşlarından onun qəhrəmanlıqları barədə məlumat aldıq.

Döyüş yoldaşlarının söhbətlərinə görə, o, çox cəsarətlə döyüşüb. Buna səbəb həm də həqiqi hərbi xidmətdə olarkən kəşfiyyat bölüyündə xidmət etməsi olub. O, döyüş taktikasını çox yaxşı bilib. Şəhid olan yoldaşının mövqeyinə keçib döyüşə davam edib. Hər bir düşməni məhv etdikcə əmisinin, xalasının və xalası oğlunun qisasını aldığını düşünüb, daha hiddətlə döyüşə davam edib. Oktyabrın 25-də düşmənin mühəndis istehkam baxımından möhkəmləndirdiyi ən böyük ərazinin– betonluq deyilən yerin azad olunması uğrunda gedən ağır döyüşlərdə şəhid olub. Bir gün sonra, oktyabrın 26-da cənazəsi İsmayıllıya gətirilərək Şəhidlər xiyabanında dəfn olunub.

Nicat ailəli idi. O şəhid olanda 11 aylıq olan oğlu Bakir indi bilir ki, o, bir qəhrəmanın oğludur. İllər keçdikcə o, atasının Vətən uğrunda şəhid olduğunu daha yaxşı anlayacaq. Hələlik anası Aytacın atası haqqında söylədikləri, yadigar qalan şəkilləri ilə ovunur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Nicat Həsənquliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. İsmayıllıda Nicat Həsənquliyevin adını daşıyan küçə var. Həmin küçədə Nicatın xatirəsinə bulaq inşa edilib.

*Səhifəni hazırladı:*
***Zərifə BƏŞİRQIZI***
***XQ***

*Ötənlərdən, itənlərdən...*

# Aşıq Qaranı – Qul Qaranının kimliyi aydınlaşır

## *Ardahan, Bəylər, Hallavar, yoxsa Saraçlı?*

**Bir sıra ədəbiyyat və folklor araşdırmalarında, ustad aşıqların söyləmələrində XVIII yüzilin sonları, XIX yüzilin önlərində yaşadığı güman edilən Türk dünyasının böyük söz və saz ustadı Qul Qaranı – Aşıq Qaranı adı ötəri olaraq xatırlansa da, əldə olan şeirləri onun çoxbilikli ürfan və təsəvvüf şairi olduğunu göstərir. Türkiyə və Azərbaycan bilim adamları Qul Qaranının yalnız adını çəkir, kimliyi barədə müəyyən ehtimallarla kifayətlənirlər.**

**Çünki Türkiyədə və Azərbaycanda Qaranı haqqında məxəzlər çox məhduddur və əksəri də şifahi səpkilidir. Yəni ustadın adına cəmi bir neçə şeirdən və Xəstə Hasanla deyişmələrindən başqa heç yerdə ətraflı nəyəsə rast gəlinmir.**

**Bir gün Aşıq Hüseyn Saraçlının gənc tədqiqatçısı Rəşad Saraçlı Əliyev şair-aşıq Qul Qaranı ilə bağlı araşdırma apardığını, ustadın mənim ulu babam olduğunu söylədi. Bu bağlılığı böyüklərimizdən eşitmişdim, ancaq düzü, təfsilatını bilmirdim. Buna görə də Rəşadın təşəbbüsünü ürəkdən bəyəndim. Onun "Xalq qəzeti"nə təqdim etdiyimiz bu yazısında arxiv materiallarını çözmək, rəvayətlərlə müqayisələndirmək, nəsil-şəcərə düzülüşünü əlaqələndirmək və bərpa etmək bacarığını gördüm.**

***Dəyanət OSMANLI,***
***şair-publisist***

***Onun haqqında Vikimənbə bir cümləlik ümumi məlumat verir: "Qul Qaranı (XVIII əsrin 2-ci yarısı – ?) Türkiyədəki Ardahan qəsəbəsi yaxınlığındakı Dəyirman köyündəndir". Türkiyə araşdırıcılarının əksəriyyəti onu ardahanlı hesab edirlər. Amma onun haralı olması barədə dəqiq bir faktı qeyd edən yoxdur.***

Amma düz deyiblər ki, izlər mütləq hardasa özünü büruzə verməlidir. Xəstə Hasanın məşhur "Sözdə bir" divanisində Qul Qaranının adı Vaqif, Gövhəri, Qara Zülal və Aşıq Ömər kimi görkəmli sənətkarlarla birgə xatırlanır. Rəvayətlərə görə, Xəstə Hasan Qul Qaranının şəyirdi olmuş, gənc yaşlarında məşhurlaşması da Qaranının adıyla bağlıdır.

Qaranı barədə Azərbaycanda ilk dəfə filologiya elmləri doktoru Şurəddin Məmmədli məlumat vermişdir (Ş.Məmmədli. Borçalı ədəbi mühiti, Bakı, 2000).

Filologiya elmləri doktoru Əflatun Saraçlı da Türk dünyasında aşıq məktəblərinin ən şaxəlisi olan Borçalı aşıq məktəbindən bəhs edərkən qüdrətli sənətkarlar sırasında Qaranının da adını çəkmişdir. Ş.Məmmədli yazısında, yəqin ki, Türkiyə ehtimal-qaynaqlarına və Borçalıda yaşlı insanlardan eşitdiyi məlumatlara əsaslanaraq Qaranıdan "Borçalı-Ahısqa, Qars ədəbi şəbəkəsinin qüdrətli sənətkarı" deyə bəhs edir. Onun Ahısqada doğulub, Borçalıda məşhurlaşdığı, Urfanı, Küfdadi, Usta Polad, Qara Zülalla bir dövrdə yaşadığı bildirilir. Borçalı və Qarayazının Bəylər, Saraçlı, Kosalı, Qaracalar kəndlərində Qaranizadə soyadlarının olduğu vurğulanır...

Folklor araşdırmaçısı Əli Şamil də aşıq Qaranı haqqında "Sözdə birincilərdən olan aşıq Qarani" adlı məqaləsində özündən əvvəlki mülahizələrə söykənərək, sənətkarın həyat və yaradıcılığı, kimliyi barədə dəqiqləşdirmələr aparmağa çalışır, şeirləri, Xəstə Hasanla deyişmələri üzərində maraqlı təhlillər aparır. Borçalı aşıqlarının söyləmələrində isə xatırladılır ki, Qaranı Borçalıda və Türkiyədə məşhur olmuşdur. Bu məqamda aşığın Borçalıdan, Borçalı Saraçlısından, yaxud Ardahandan və s. olduğu barədə gümanlar açıq qalır.

Digər sual isə Qaranının ad, yoxsa soyad olmasıdır. Bütün dövrlərdə aşıq və ozanların təxəllüslərinin əsasən addan öncə gəldiyi fikrinə əsaslansaq, deyə bilərik ki, Qaranı aşığın adı, Qul isə təxəllüsüdür. Qaranının haralı olması isə arxiv materialları ilə el arasında gəzən rəvayətlərin kəsişməsindən bəlli olur.

2006-cı ildə Aşıq Hüseyn Saraçlının Bakı şəhərində keçirilən 90 illik yubileyində Əflatun Saraçlı belə bir fikir səsləndirmişdi: "Borçalı aşıq məktəbi üzü Qaranıdan bəri bir çox nəhəng və azman sənətkarlar yetişdirib". O zaman Aşıq Qaranı adı məndə maraq doğurdu. Çünki doğma kəndim Saraçlıda Qaranılar nəsli və o adı soyad olaraq daşıyan çoxlu insanlar vardı. Qaranı kimdir, Borçalının hansı kəndindən olub, bizim Saraçlıda yaşayan qaranılarla nə bağlılığı? Bu suallar həmişə məni düşündürüb. Hər addımda Aşıq Qaranı haqqında üzdə olan bəsit məlumatlardan əlavə ətraflı nəsə öyrənməyə çalışırdım.

Əldə olan ilk mənbələr Qaranı haqqında Ş.Məmmədlinin sözügedən məqaləsi və folklorçu-alim E.Məmmədlinin babası Məmməd Hüseynqulu oğlunun dilindən qələmə alınmış yazı və Ə.Şamilin araşdırması idi. Ş.Məmmədlinin məqaləsində və M.Hüseynqulu oğlunun verdiyi məlumatlarda Qaranının Borçalının Bəylər kəndindən olduğu bildirilir. Ə.Şamilin məqaləsində türkiyəli araşdırmacıların, o cümlədən Əjdər Aslanın verdiyi şifahi bilgilərə əsaslanaraq Qaranının 18-19-cu əsrlərdə Ardahanın Dəyirman köyündən olduğu fikrini irəli sürür.



Sonralar mən Azərbaycan Dövlət Səsyazmalar Arxivində Hüseyn Saraçlının səs yazılarını axtararkən ustadın 1986 və 1987-ci illərdə sənətşünaslıq namizədi Azad Ozan Kərimliyə verdiyi iki müsahibəyə rast gəldim. Birinci səs yazısında aşığın "anamın süd tərəfində bir şair Qaranı olub" deməsi yenidən diqqətimi çəkdi. Ustad şair-aşıq Qaranının iticəsi olduğunu bildirir:

***"Azad Ozan Kərimli: – Sizin nəsildə aşıq olub?***

***Aşıq Hüseyn Saraçlı: – Bizim nəsildə, Qaranı deyirlər, mənim süd tərəfimdə olub, ayrı bir kənddə yaşıyırmış, özü də Türkiyəyə, İrana-zada işləyirmiş vaxtilə".***

***"Azad Ozan Kərimli: –Yaxşı, neçə nəsil bundan qabaq olub o Qaranı, təxminən?***

***Aşıq Hüseyn Saraçlı: – Mən onun iticəsi oluram.***

***Azad Ozan Kərimli: – Ötücəsi?***

***Aşıq Hüseyn Saraçlı: – İticəsi. Bax, nəvədi, nəticədi, kötücədi, ötücədi, iticədi (Aşıq Qaranı-Vəli-Hacı-Fatma-Gülpəri-Yetər-Aşıq Hüseyn)".***

Hüseyn Saraçlı 1987-ci ildəki ikinci müsahibəsində yenə Qaranının kimliyi məsələsinə toxunaraq ulu babası olduğunu vurğulayır. Bu müsahibələr Qaranı ilə bağlı araşdırmaları davam etdirmək marağımı daha da artırdı. Bu arada professor Valeh Hacıların Borçalının 1821-ci il kameral təsvirini əks etdirən "Ulu baban kim olub" adlı kitabı əlimə düşdü. Kitabda saraçlılıların 1821-ci il siyahısında Qaranı ilə birlikdə onun 3 övladının (Emin, Vəli, Habil) və 4 nəvəsinin (Ocaqqulu, İbrahim, Hacı, Alı) adı göstərilir.

Hələlik son arxiv materiallarının məcmusu araşdırmaçı Nazir Əhmədlinin "Borçalı nahiyəsinin kameral təsviri (1860)" adlı Azərbaycanda Atatürk Mərkəzinin 2024-cü il nəşri olan kitabdır. Bu kameral təsvirdə Qaranının doğum və ölüm tarixlərini dəqiqləşdirmək məqsədilə saraçlılıların 1860-cı il siyahısını nəzərdən keçirərkən aşığın adının 1847-ci ildə doğulan nəticəsinə verildiyi, aşıq Qaranının atasının Abdulla olduğu dəqiqləşir.

"Borçalı nahiyəsinin kameral təsviri (1860)" kitabından gələn qənaətlərin izi ilə Qaranının nəsil-şəcərəsini ardıcıllıqla tərtib etməyə başladım. Və məlum oldu ki, Saraçlının yetirməsi olan ziyalıların, sənətkarların, bir çoxunun (və özümün də, Qaranı-Emin-Musa-Fatma-İsmayıl-Bayram-Qəzənfər-Rəşad) kökü Qaranıya gedib çıxır.

Aşıq Hüseyn Saraçlının bacısı Xoşqədəm xanım da Qaranının hansısa törəmələrindən birinin Ağbabaya köç etdiyini və vaxtilə Hüseyn Saraçlının onlarla gediş-gəlişinin olduğunu xatırlayır.

Hüseyn Saraçlının şəyirdi, Qaranının (Qaranı-Emin-Abdulla-Emin-Paşa-Sabir) ötücəsi Aşıq Sabir Saraçlı isə Qaranının vaxtilə hardansa köçüb Borçalıya gələndə bir müddət Hallavar kəndində yaşayıb aşıqlıq etdiyini, sonradan həmişəlik Saraçlı kəndində köç saldığını qeyd edir. O, Borçalının ustad aşıqlarının dilindən Aşıq Qaranının elə Qul Qaranının özü olduğu barədə eşitdiyini, onun qoşqularının iki ad altında oxunduğunu bildirir. Fikirlər və arxiv sənədləri üzərində müqayisələr də nəticə etibarilə Aşıq Qaranı ilə Qul Qaranının eyni şəxsiyyət olduğunu isbatlayır.

Türkiyəli araşdırmaçı-yazar Orhan Bahçıvan 20 mart 2020-ci il tarixli bloqunda Qul Qaranının Ardahanlı olduğunu, Güney Azərbaycan, Ahısqa və Quzeydoğu Anadoluda başda Xəstə Hasan (1760-1828) olmaqla, ustad aşıqlarla deyişdiyini, onun nəvələrinin Osmanlı-Rusiya savaşı (1877-1878) dönəmində Anadolunun içərilərinə köçdüklərini, Ardahan yan-yörəsində hər hansı bir əqrəbası qalmadığını bildirir.

Bununla belə, heç bir tədqiqatda Anadoluda Qul Qaranının törəmələrindən kiminsə yaşamış olduğu barədə bəlgəyə rast gəlinmir. Borçalının 1821, 1860-cı il kameral təsvirlərindəki saraçlıların siyahısında isə Qaranının törəmələri adbaad keçir. Beləcə, arxiv materialları Qul Qaranının hansı bölgədən olduğu barədə ehtimallar üzərinə də işıq salır.

Bu zaman onun haralı olması məsələsi mülahizə statusundan çıxır və Qul Qaranının Bəylər, Hallavar, yaxud Ardahanın Dəyirman kəndindən deyil, məhz Saraçlı kəndindən olduğu təsdiqlənir.

El yaddaşına görə, Xəstə Hasan Qul Qaranının şəyirdi olmuşdur. Deyişmələrdə Xəstə Hasan Qaranıya ustad deyə müraciət edir:

***Əylən usta, xəbər verim,***
***Ol sübhandan ol xəbər.***

Xəstə Hasanın Qul Qaranıya "Usta" deyə müraciət etməsi onun böyük bir sənətkar olduğuna ehtiram və etirafdır. Xəstə Hasanın 1799-cu ildə anadan olduğunu və "Borçalı nahiyəsinin kameral təsviri (1860)" kitabından bilindiyi kimi, Qaranının adının 1845-ci ildə anadan olan nəvəsinə yox, 1847-ci ildə doğulan nəticəsinə verilməsini və Xəstə Hasandan yaşca xeyli böyük olmasını nəzərə alsaq, onda Qul Qaranının təxminən XVIII əsrin ikinci yarısında doğulub, 1846-cı ildən gec olmayaraq vəfat etdiyi də müəyyənləşir. Qaranı bölgənin ən qocaman aşığı olduğuna görə, ehtimal ki, Faxralı Aşıq Polad Yusuf oğlu və İmirhəsənli Aşıq Şəfi Yusuf oğlu da onun şəyirdləridir.

El aşığı gəzərgi olar, deyiblər. Bu kəlamın işığı da çox mətləbləri aydınladır. Ustad Hüseyn Saraçlının söylədiklərinə və elin yaddaşındakı rəvayətlərə görə, Qaranı vaxtilə toy-düyün məclisləri aparmaq üçün Borçalıdan Ahısqaya, Türkiyəyə, həmçinin digər bölgələrə daim səfərlər etmişdir. Belə səfərlər zamanı o, müəyyən müddət o bölgələrdə qalıb, həm aşıqlıq edir, həm də şəyirdlər yetişdirirmiş.

Aşıqların söyləmələrindən məlum olur ki, ustad yaşının ahıl çağında şəyirdi Xəstə Hasanın bitkinliyini görərək aşıqlığı ona dövr etdikdən sonra ata yurdu Borçalının Saraçlı kəndinə qayıdaraq ömrünün sonunadək orada yaşamışdır.

***Rəşad ƏLİYEV- SARAÇLI***

*Ana dilimiz – mənəvi Vətənimiz*

# Doğma dilimiz qürbətdə Vətən nəğməsi oxuyur

## *Azərbaycan dilində məktəblər milli varlığımızı qoruyur, yaşadır*

**Azərbaycan dilinin qorunması və inkişafı təkcə ölkə daxilində deyil, xaricdə yaşayan milyonlarla azərbaycanlının milli-mənəvi kimliyinin yaşadılması baxımından da önəmlidir. Qloballaşmanın sürətləndiyi, assimilyasiya proseslərinin gücləndiyi müasir dövrdə vətəndən kənarda ana dilinin unudulmaması milli varlığın qorunmasının zəruri şərtlərindən biridir. Bu mənada soydaşlarımızın yığcam yaşadığı ölkələrdə Azərbaycan dilinin tədrisi və təbliği dövlətin diaspor siyasətinin diqqət mərkəzində saxlanılır.**

Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə bu məsələyə xüsusi toxunaraq vurğulayıb: "Dünyada 50 milyon azərbaycanlı yaşayır, amma əzəli, əbədi, ədəbi dili qoruyan bizik və çox istəyirəm ki, xaricdə yaşayan azərbaycanlılar da Azərbaycan dilini mükəmməl bilsinlər. Məişət səviyyəsində yox, mükəmməl bilsinlər. Buna böyük ehtiyac var. Azərbaycanlıların yaşadıqları bəzi ölkələrdə Azərbaycan məktəbləri yoxdur. Bu, böyük ədalətsizlikdir və bu ədalətsizliyə son qoyulmalıdır. Biz imkan daxilində təsir etməyə çalışırıq, amma imkanlarımız da çox geniş deyil. Bunun üçün də mənim göstərişimlə artıq onlayn məktəblər açılır və onların sayı da çoxalmalıdır, əhatə dairəsi çoxalmalıdır. Azərbaycanlıların yaşadıqları bütün yerlərdə onlayn Azərbaycan dili məktəbləri olmalıdır ki, bizim uşaqlarımız öz ana dillərini bilsinlər".

Hazırda dünyanın müxtəlif ölkələrində – Türkiyə, Rusiya, Almaniya, Fransa, Böyük Britaniya, ABŞ və s. azərbaycanlıların sıx məskunlaşdığı ölkələrdə ana dilimizin tədrisi məqsədilə müxtəlif təşəbbüslər həyata keçirilir. Diaspor təşkilatları, həftəsonu məktəbləri, mədəniyyət mərkəzləri və ictimai birliklər bu istiqamətdə fəal rol oynayır.

Xarici ölkələrdə Azərbaycan dilini tədris və təbliğ edən soydaşlarımızla həmsöhbət olduq.

**Səfayə NAİBOVA,**
**Kiyevdə Azərbaycan dili müəllimi:**

– 2009-cu ildən etibarən Azərbaycan dilinin tədrisi və təbliği ilə məşğulam. Bu illər ərzində Kiyevin 37, 135, 188, 247 və 291 nömrəli ümumtəhsil məktəblərində Azərbaycan dili siniflərində dərs demişəm, yüzlərlə azərbaycanlı və ukraynalı şagirdə ana dilimizi öyrətmişəm. Hazırda isə Kiyevdə 247 saylı orta məktəbdə Azərbaycan dili və tarixini tədris edirəm.



Azərbaycan dili ecazkar, şeirə və musiqiyə yatımlı dildir. Ukraynalılar da bunu tez-tez vurğulayır, Azərbaycan dilini "musiqi dili" adlandırırlar. Hətta azərbaycanlılarla ailə quran ukraynalılar ana dilimizi öyrənmək üçün xüsusi dərslərə qatılmaq istəyirlər. Təəssüf ki, müharibə şəraiti ilə əlaqədar məktəblərdə şagirdlərin sayı xeyli azalıb. Buna baxmayaraq, milli-mənəvi dəyərlərimizi fəal şəkildə, layiqincə təbliğ edirik.

Rəhbərlik etdiyim "Azərbaycanın mədəniyyət tarixi" dərnəyində xalqımızın tarixi, mədəniyyəti, adət-ənənələri, milli-mənəvi dəyərlərini şagirdlərə aşılayırıq. Qurban bayramı, Novruz bayramı, milli mətbəximiz, geyimlərimiz, musiqimiz və folklorumuz əsas mövzular sırasında yer alır. Dərs dediyim məktəbdə isə fəallığına görə fərqlənən 7 şagirddən 3-ü azərbaycanlıdır ki, bu da bizim uğurumuzdur.

Pandemiya və müharibə dövrünə qədər müxtəlif məktəblərdə "Azərbaycan mədəniyyəti günləri" təşkil edirdik. Tədbirlər bir həftə davam edir, həmin müddət ərzində fasilələrdə Azərbaycan musiqisi səsləndirilirdi. Məktəbin foyesində milli geyimlərimiz, kitablarımız, musiqi alətlərimizin nümayişi həm şagirdlərin, həm də müəllim və valideynlərin böyük marağına səbəb olurdu.

Xüsusilə Novruz bayramı ərəfəsində keçirilən tədbirlər yaddaqalan olurdu. Valideynlər də bu prosesə fəal şəkildə cəlb edilirdi. Hər kəs öz imkanına görə Novruz xonçası hazırlayır, biri boyanmış yumurta, digəri şəkərbura, paxlava, qoğal gətirirdi.

35 nömrəli məktəbdə Azərbaycan mədəniyyəti ilə bağlı təşkil olunan tədbirlərin birində mənə 13 dəqiqə vaxt ayrılmış və ölkəmizi təmsil etmək imkanı verilmişdi. Bu çıxışa görə üçüncü yerə layiq görülməyim mənim üçün böyük stimul oldu.

Həmin təqdimatda dünya miqyasında tanınmış görkəmli elm adamlarımız haqqında məlumat vermişdim. Üçrəngli bayrağımızın rənglərinin mənası səhnə kompozisiyası şəklində göstərilmişdi. Tədbirdə Estoniya, Latviya, Litva, Qazaxıstan və digər ölkələrdən olan şagirdlər dahi Səməd Vurğunun "Azərbaycan" şeirini səsləndirmişdilər. Eyni zamanda, səhnədə milli geyimlərimiz nümayiş etdirilmişdir.

Əsas məqsədimiz xaricdə yaşayan həmvətənlərimizin ana dili ilə bağını qorumaq, eyni zamanda, digər xalqlara Azərbaycan dilini və mədəniyyətini tanıtmaqdır. İnanıram ki, belə təşəbbüslər milli kimliyimizin yaşadılması baxımından son dərəcə vacibdir.

**Fəridə PƏNAHOVA,**
**Britaniya Azərbaycan Cəmiyyətinin rəhbəri, Londonda "Qarabağ" məktəbinin təsisçisi:**



– Vətəndən uzaqda yaşayan uşaqlar müxtəlif mədəniyyətləri öyrənirlər və bu böyük üstünlükdür. Lakin düzgün istiqamət verilməzsə, onların vətənlə bağlılığı zəifləyə bilər. Güclü milli kimlik uşaqlarda özünəinam, daxili tarazlıq yaratmaqla yanaşı, digər mədəniyyətlərə hörmət etməyi də öyrədir. Məqsədimiz Böyük Britaniya cəmiyyətinə uğurla inteqrasiya olunmuş, Azərbaycanı sevən və onun dəyərlərinə sadiq nəsil yetişdirməkdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Böyük Britaniyada təsis edilən Qarabağ məktəbi 27 sentyabr 2021-ci ildən fəaliyyət göstərir. Bu tarix torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinə ehtiram əlaməti olaraq seçilib. Qarabağ məktəbinin yaradılmasında əsas məqsədimiz xaricdə böyüyən övladlarımızın öz köklərinə bağlı qalması, ana dilimizi, tariximizi, mədəniyyətimizi, musiqimizi və hər şeydən önəmlisi milli kimliyimizi öyrənə və qoruya biləcəkləri bir mühit yaratmaqdır.

Xaricdə yaşamaq geniş imkanlar açsa da, milli kimliyimizin və dəyərlərimizin qorunması xüsusi məsuliyyət tələb edir. Valideynlər xüsusilə Vətən müharibəsindən sonra uşaqlarının Azərbaycanla daha möhkəm əlaqələrinin olmasını vacib hesab edirlər.

Həftə sonları icma məktəbi modeli ilə fəaliyyət göstəririk. Tədris yaşa uyğun qruplar üzrə, dil, musiqi, rəqs, mədəniyyət və tarix elementlərini birləşdirən inteqrativ proqramla, interaktiv, yaradıcı və uşaqlar üçün cəlbedici metodlarla aparılır.

Şagirdlərimiz Böyük Britaniyada keçirilən mədəni, maarifləndirici və ictimai tədbirlərdə fəal iştirak edirlər. Onlar ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş tədbirdə ilk dəfə olaraq böyük səhnəyə çıxaraq geniş proqramla Azərbaycan mədəniyyətini layiqincə təqdim ediblər. Xocalı faciəsinin ildönümü ərəfəsində təşkil olunan tədbirdə "King's College London"da Xocalı ilə bağlı şeirlər söyləyib, hekayə oxuyublar.

Bu yaxınlarda şagirdlərimiz Londonun Ealing bölgəsində xeyriyyə məqsədi daşıyan beynəlxalq musiqi festivalına və London meri tərəfindən Novruz şənliyinə dəvət olunublar. Bununla yanaşı, torpaqlarımızın işğaldan azad olunmasına, sülh və gələcəyə ümid mesajlarını əks etdirən videoçarxlar hazırlayıblar. Məktəbimizin məzunları ana dilində sərbəst danışan, milli kimliyinə sahib çıxan, tarixini və milli-mənəvi dəyərlərini qoruyan, gələcəkdə akademiya, mədəniyyət, media, diplomatiya və ictimai sahələrdə Azərbaycanı təmsil edə biləcək şəxslər kimi formalaşırlar.

Eyni zamanda, onlar diplomatiya və beynəlxalq münasibətlər sahəsində iki ölkə arasında etibarlı körpü rolunu oynayaraq, ictimai və qeyri-hökumət sektorunda Azərbaycan icmasının səsini beynəlxalq platformalarda layiqincə etdirəcəklər. Böyük Britaniyada təhsil almış, lakin Azərbaycanla güclü mənəvi bağlarını qoruyan bu uşaqlar həm bu gün, həm də gələcəkdə Azərbaycan üçün böyük dəyərdir, onlar dünyanın müxtəlif yerlərində ölkəmizin səsi, yaddaşı və kimliyi olacaqlar.

***Hazırladı:***
***Ləman TƏHMƏZ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 22 (30990) 5 fevral 2026-cı il, cümə axşamı

## İDMAN

### Su idmanına dəstək




**Azərbaycan Üzgüçülük Federasiyası (ASF) və Azərbaycan Triatlon Federasiyası (ATF) arasında əməkdaşlıq Haqqında Memorandum imzalanıb.**

ASF-dən verilən məlumata görə, federasiyalar ölkədə su idman növlərinin inkişafı üçün birlikdə çalışacaqlar. Əməkdaşlıq çərçivəsində birgə yarışların keçirilməsi, eləcə də üzməyə marağı olan potensiallı gənclərin üzgüçülük və triatlon idman növlərinə cəlb edilməsi nəzərdə tutulur. Eyni zamanda, üzgüçülük və triatlonla məşğul olmaq üçün əlçatan və sağlam mühitin formalaşdırılmasına dəstək göstəriləcək. İdmançıların bacarıqlarının artırılması məqsədilə yerli və beynəlxalq ekspertlərin təlim-məşq prosesinə cəlb olunması da prioritet istiqamətlərdən biri olacaq.

Memorandumu ASF-nin baş katibi Oqtay Atayev və ATF-nin baş katibi Seymur Hüseyinov imzalayıblar.

### U-19 millimiz özbək yaşıdlarını məğlub edib



**Özbəkistanda təlim-məşq toplanışında olan 19 yaşadək qadın futbolçulardan ibarət Azərbaycan millisi ilk yoxlama oyununu keçirib. Komandamız Daşkənddə özbəkistanlı həmyaşıdları ilə qarşılaşıb. Görüş 3:2 hesabı ilə millimizin xeyrinə başa çatıb.**

U-19-un heyətində qolları Ayşən Salamzadə (11, 89) və Mədinə Curuqova (30) vurublar.

Fevralın 7-də komandalar arasında ikinci yoxlama oyunu keçiriləcək.

### Yeniyetmə və gənc voleybolçu seçimi

**Azərbaycan Voleybol Federasiyası (AVF) yeniyetmə və gənc voleybolçu oğlanların seçiminə start verir.**

AVF-nin mətbuat xidmətindən verilən məlumata görə, seçimlər Bakıda və bölgələrdə fəaliyyət göstərən regional voleybol klublarında məşq edən 2012–2013-cü il təvəllüdlü oğlanlar arasında keçiriləcək.

Yeniyetmə və gənc oğlanlardan ibarət milli komandaların rəhbəri Cahangir Seyed Abbasi tərəfindən aparılacaq seçimlərdə fərqlənən voleybolçular yeniyetmə və gənc milli komandalara cəlb olunacaqlar.

Fevralın 14-də Sumqayıtda başlayan seçimlər bir gün sonra Şərqi Zəngəzurda, fevralın 21-də Bakıda, fevralın 22-də Şəkidə, fevralın 28-də Tovuzda, martın 1-də Gəncədə keçiriləcək və martın 7-də Naxçıvanda başa çatacaq.

### Sabah Qış Olimpiya Oyunları başlayır




**Sabah İtaliyada XXV Qış Olimpiya Oyunları start götürəcək. Yarışlarda Azərbaycan da təmsil olunur. Dağ xizəkçisi Anastasiya Papatoma və fiqurlu konkisürən Vladimir Litvintsev nüfuzlu yarışda qüvvələrini sınayacaqlar.**

Azərbaycan indiyədək Qış Olimpiya Oyunlarında medal qazanmayıb və müstəqil dövlət kimi ilk dəfə 1998-ci ildə Yaponiyanın Naqano şəhərində təşkil olunan olimpiadada təmsil olunub. O vaxtdan bəri ölkəmiz bütün Qış Olimpiya Oyunlarına qatılsa da, hələlik fəxri kürsüyə yüksələn idmançımız olmayıb. İndiyədək ən yüksək göstərici 2014-cü ildə Rusiyanın Soçi şəhərində keçirilən Oyunlarda qeydə alınıb. Fiqurlu konkisürmənin buzüstü rəqs növündə çıxış edən Yuliya Zlobina və Aleksey Sitnikov cütlüyü 12-ci yeri tutub.

Qeyd edək ki, "Milano–Kortina-2026" Qış Olimpiya Oyunları fevralın 6-dan 26-dək, Paralimpiya Oyunları isə martın 6-dan 15-dək Milan və Kortina d`Ampetso şəhərlərində təşkil olunacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Futbol tariximizdən*

# Qurban Qurbanov bu dəfə Nyukasla "Köhlən atlar"ın baş təlimçisi kimi gedəcək

**UEFA Çempionlar Liqası turnirində Avropa səyahətini ləyaqətlə davam etdirən və artıq səkkizdəbir finalın astanasında olan Ağdamın "Qarabağ" komandası İngiltərənin Nyukasl şəhərinin eyniadlı klubu ilə pley-off görüşləri ərəfəsindədir. Rəqiblər əvvəlcə fevralın 18-də saat 21:45-də Tofiq Bəhramov adına Respublika Stadionunda münasibətləri aydınlaşdırmağa başlayacaq, bundan bir həftə sonra, fevralın 24-dən 25-nə keçən gecə isə ingilislərin meydanında mübarizəni davam etdirəcəklər.**




Dünyanın ən nüfuzlu klub yarışında 1/8 finala vəsiqə kimə qismət olacaq, kim "oyundankənar vəziyyətdə" qalıb möhtəşəm futbol bayramını tamaşaçı kimi izləməklə kifayətlənəcək? Yaxşı ki, bütün mülahizələrə, gümanlara baxmayaraq, bu suala yalnız və yalnız cavab görüşündən sonra qəti aydınlıq gətiriləcək. Ancaq yekun nəticədən asılı olmayaraq, futbol ictimaiyyətimiz, bütün xalqımız "Qarabağ"a dərin minnətdarlıq hissini heç vaxt itirməyəcək.

Komandanın ötən ilin qızmar yayından, mülayim payızından bugünkü soyuq fevrala qədər keçdiyi şərəfli yol onun haqqında ürəkdən, gur səslə danışmağa hər cür əsas verir. Əvvəlki mövsümdə qitə klublarının əhəmiyyətinə görə ikinci mötəbər turniri Avropa Liqasının əsas mərhələsində sonuncu, 36-cı yerdən Çempionlar Liqasında 22-ci mövqeyə ucalmaq və pley-offa vəsiqə qazanmaq hər komandaya nəsib olmur. Bunun necə böyük uğur olduğunu dərk etmək üçün futbolun professoru olmaq gərək deyil.

Gecə-gündüz sevinmək, fəxarət hissi yaşamaq, "Nyukasl" ilə oyunları əvvəlkindən də xoş həyəcanla gözləmək imkanımız var. Bu imkanı yaradanlara təşəkkürlər! İndi qarşıdakı sınaqlar ərəfəsində boş oturmayıb, yaddaşımızın, əsasən də statistikanın köməyi ilə keçmişi xatırlayaq.

Mərhum həmkarım Abas Əzimovun gərgin fəaliyyətinin bəhrəsi olan "Azərbaycan milli komandası (1992–2011)" kitabında 2006-cı il dünya çempionatının seçmə yarışları çərçivəsində Azərbaycan və İngiltərə yığma komandaları arasında keçirilmiş oyunlar haqqında dərc etdirdiyi statistik göstəricilərdən məlum olur ki, 2004-cü il oktyabrın 13-də Bakıda oynanılmış görüşdə lüksemburqlu hakim Alan Hammer ingilislərin xeyrinə 1:0 hesabı qeydə almış və yeganə qolun müəllifi 22-ci dəqiqədə Maykl Ouen olmuşdur. Qurban Qurbanov həmin axşam son yarım saatda oynamış, 59-cu dəqiqədə Samir Əliyevi əvəz etmişdir.

Bu rəqiblərin Nyukasl matçı isə 2005-ci ilin baharına təsadüf etmişdir. Martın 30-da keçirilmiş görüşdə FİFA-nın portuqaliyalı hakimi Paolo Manuel Qomeşin final işarəsi meydan sahiblərinin 2:0 hesabı ilə qalib gəldiklərini bildirmişdir. Hər iki top fasilədən sonra vurulmuş, 51 və 62-ci dəqiqələrdə dünya futbolunun ulduzları Stiven Cerrard və Devid Bekhem fərqlənmişlər.

Azərbaycan millisinin ovaxtkı baş məşqçisi, braziliyalı Dünya Çempionu Karlos Alberto Torres görüşə Dmitri Kramarenko, Rafael Əmirbəyov, Aftandil Hacıyev, Rəşad Sadıqov, Zaur Həşimov, İlqar Əbdürrəhmanov, Rail Məlikov, Elmar Baxşıyev, Aslan Kərimov, Qurban Qurbanov və Nadir Nəbiyevdən ibarət heyətlə başlamış, oyunun axırına yaxın Əmirbəyovu Vüqar Quliyevlə, Qurbanovu Anatoli Ponomaryovla, Nəbiyevi Daniel Axtyamovla əvəzləmişdir.

Nyukaslda komandamızı meydana kapitan sarğısı ilə Qurbanov çıxarmışdır. İndi internetdəki videolara təkrar-təkrar baxdıqda görürük ki, Azərbaycan idman jurnalistikasında parlaq iz buraxmış Elnur Əşrəfoğlunun (Allah rəhmət eləsin) yüksək peşəkarlıqla şərh etdiyi görüşdə İngiltərə komandasının qapısı ağzında ilk real qol vəziyyətini də kapitan yaratmışdır. Artıq 7-ci dəqiqədə məhz onun güclü zərbəsindən sonra top qapı dirəyinin bir neçə santimetrliyindən keçmişdir. Statistika həmin oyunda İngiltərə millisinin isveçli məşhur mütəxəssis Sven Qoran Eriksonun başçılığı altında çıxış etdiyini də xatırladır.

Onu da yada salmaq olar ki, İngiltərənin 25 xalla qrupda birinci yeri tutduğu turnirdə digər rəqiblərimiz Polşa (24 xal), Avstriya (15), Şimali İrlandiya (9), Uels (8) kollektivləri olmuşlar. Azərbaycan komandası 3 xalla cədvəldə sonuncu, 6-cı yerdə qalmışdır. Futbolçularımız bu xallardan birini Bakıda Uels ilə oyunda (1:1) Rəşad Sadıqovun sərrast zərbəsi ilə qazanmışlar. Yenə paytaxtımızda müvafiq surətdə Avstriya və Şimali İrlandiya ilə görüşlərdə isə azarkeşlər tribunaları qol görmədən tərk etmişlər.

Bax belə, Çempionlar Liqası turnirində "Qarabağ"–"Nyukasl" pley-off görüşü ərəfəsində həmin klubların təmsil etdikləri ölkələrin milli komandalarının 21 il əvvəlki görüşlərini xatırladıq. Bu zaman bir daha əmin olduq ki, Qurban Qurbanov hələ onda liderlik keyfiyyətləri ilə fərqlənmiş, meydana kapitan sarğısı ilə çıxmışdır.

Bu gün isə Qurban müəllim dünyada məşqçilik fəaliyyəti və uğurları diqqətlə izlənilən ən hörmətli mütəxəssislərdən biridir. Baş məşqçimizin yüksək məsuliyyət hissi ilə gördüyü işin nəticələrini layiqincə qiymətləndirən Azərbaycanın idman ictimaiyyətində onun və futbolçularının yeni-yeni uğurlarına, komandanın oyundan-oyuna daha da böyüyəcəyinə yaranmış möhkəm inam hissi təsadüfi deyil.

Bu arada hər yeni gün bizi fevralın 18-nə, "Nyukasl" ilə oyuna yaxınlaşdırır. Rəqib 1892-ci ildə yaradılmış və 134 illik tarixi olan zəngin təcrübəli komandadır. Amma "Çelsi", "Benfika", "Ayntraxt", "Kopenhagen" də dünənin, yaxın keçmişin klubları deyillər. Futbol pərəstişkarları onlara qarşı görüşlərdə olduğu kimi, yenə məzmunlu və məhsuldar oyun sevinci yaşaya bilərlər.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

*Pəhriz və biz*

# Hansı əti və necə yeyək?



**Sağlam qidalanma mövzusu cəmiyyətdə hər zaman diqqət mərkəzində olub. Xüsusilə də mal ətinin insan sağlamlığına təsiri ilə bağlı fikirlər ziddiyyətlidir. Bir tərəf onu müxtəlif xəstəliklərin mənbəyi kimi təqdim edir, digər tərəf isə bu yanaşmanın elmi əsaslara tam söykənmədiyini bildirir. ABŞ-ın İllinoys Ştatının Texnologiya İnstitutunun alimləri tərəfindən aparılan yeni araşdırma bu mübahisələrə daha təmkinli və balanslı yanaşma təklif edir.**

Nüfuzlu "Current Developments in Nutrition" elmi jurnalında dərc olunan araşdırmanın nəticələrinə görə, gündəlik emal olunmamış mal əti istehlakı II tip şəkərli diabetin yaranma riskini və orqanizmdə iltihab səviyyəsini artırmır. Tədqiqatda artıq çəkisi olan və diabetöncəsi diaqnoz qoyulmuş 24 şəxs iştirak edib. İştirakçılar 2 ay ərzində növbəli şəkildə iki fərqli qidalanma rejiminə əməl ediblər. Bir mərhələdə gündəlik menyuda 170–200 qram emal olunmamış mal əti yer alıb, digər mərhələdə isə eyni miqdarda quş əti istifadə edilib. Hər bir mərhələ 28 gün davam edib və arada iştirakçıların adi qidalanmaya qayıtdığı qısa bir fasilə verilib. Bu fasilə tədqiqatın nəticələrinin daha obyektiv olmasına, əvvəlki mərhələnin təsirinin sonrakı nəticələrə qarışmamasına xidmət edib.

Aparılan ölçmələr və analizlər göstərib ki, mal əti ilə zəngin rasion insulinə həssaslığı zəiflətmir, mədəaltı vəzinin beta hüceyrələrinin fəaliyyətinə mənfi təsir göstərmir, qanda şəkərin səviyyəsini yüksəltmir və iltihab göstəricilərini artırmır. Ürək-damar və maddələr mübadiləsi ilə bağlı əsas göstəricilər quş ətinin üstünlük təşkil etdiyi qidalanma rejimi ilə müqayisədə demək olar ki, eyni səviyyədə qalıb. Başqa sözlə, orqanizm mal ətini gündəlik rasionun bir hissəsi kimi qəbul etdikdə bu, gözlənildiyi kimi təhlükəli nəticələr doğurmayıb.

Alimlər xüsusilə vurğulayırlar ki, söhbət kolbasa, sosiska və ya bekon kimi emal olunmuş məhsullardan deyil, təbii və emal edilməmiş mal ətindən gedir. Əvvəlki tədqiqatlar məhz emal olunmuş ət məhsullarının xərçəng və metabolik pozuntular riskini artırdığını sübut edib. Bu isə göstərir ki, problemin kökü təkcə ətin özündə deyil, onun hansı formada və hansı qidalanma kontekstində istehlak edilməsindədir.

Mal əti insan orqanizmi üçün vacib olan yüksəkkeyfiyyətli zülal, dəmir, sink və B12 vitamini ilə zəngindir. Bu maddələr əzələ kütləsinin qorunmasında, qan dövranında və sinir sisteminin sağlamlığında mühüm rol oynayır. Lakin alimlərin fikrincə, burada əsas məsələ miqdar və balansdır. Tərəvəz, tam taxıl məhsulları və liflə zəngin qidalarla birlikdə qurulan rasionda mal əti təhlükə mənbəyi deyil, əksinə, düzgün istifadə olunduqda faydalı ola bilər.

Tədqiqatın müəllifləri hesab edirlər ki, ümumi qidalanma vərdişlərini sağlam məcraya yönəltmək vacibdir. Çəkinin nəzarətdə saxlanılması, fiziki aktivlik, şəkərli içkilərdən və rafinə olunmuş karbohidratlardan uzaq durmaq diabet riskinin azalmasında daha həlledici rol oynayır. Bu araşdırma bir daha göstərir ki, sağlam qidalanma sərt qadağalar üzərində deyil, düşünülmüş seçimlər və tarazlıq üzərində qurulduqda daha effektiv və davamlı olur.

Odur ki, sağlam qidalanma məsələlərində qorxu yaradan çağırışlar əvəzinə, elmi sübutlara əsaslanan, ölçülü və balanslı yanaşma daha məqsədəuyğundur. Emal olunmamış mal əti düzgün porsiyalarla və sağlam həyat tərzi çərçivəsində istifadə edildikdə düşündüyümüz qədər riskli olmaya bilər. Qidalanma ilə bağlı qərarlar verərkən fərdi sağlamlıq vəziyyətini və mütəxəssis tövsiyələrini nəzərə almaq isə hər zaman ən doğru seçim olaraq qalır.

*Nurəngiz ADİLQIZI*
*XQ*

## NASA Ay missiyasını təxirə salıb




**NASA fevralın 6-da dörd astronavtın Ay ətrafında səyahətə buraxılması ilə bağlı planlarını dəyişib. Kosmik agentlik əsas uçuş öncəsi sınaq zamanı yaranan çətinliklərdən sonra missiyanın ilk mərhələsinin tarixini mart ayına keçirib.**

"Apollon" missiyalarının davamçısı olan "Artemida" proqramı amerikalıları Aya qaytarmağı və Marsa gələcək missiyalar üçün təməl qoymağı hədəfləyir. Bu, 2022-ci ildə SLS və "Orion"un ilk inteqrasiya olunmuş uçuşunu qeyd edən "Artemida I" missiyası ilə başlayıb. İkinci missiyanın isə pilotlu olacağı planlaşdırılır.

Təxminən 10 gün davam edəcək missiya Ayın cənub qütbünə dörd nəfərlik heyət göndərəcək "Artemida III"dən əvvəl nəqliyyat vasitələrinin sistemlərinin real dərin kosmik mühitdə gözlənildiyi kimi işlədiyini təsdiqləməyi hədəfləyir. Astronavtlar qiymətləndirmələr aparacaq və eniş üçün vacib hesab edilən manevrləri tətbiq edəcəklər.

*XQ*

## HAVA

### Gündüz yağmursuz, gecə və axşam yağış və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin ayın 4-dən 5-nə keçən gecə və axşam havanın bəzi yerlərdə yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 1 dərəcəyədək isti, gündüz 2-4 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 770 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək. Gecə və səhər saatlarında bəzi şəhərətrafı ərazilərdə yolların buz bağlayacağı ehtimal olunur.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Səhər yağıntılar tədricən kəsiləcək, gündüz əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.



Havanın temperaturu gecə 1-5, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 3-8, yüksək dağlıq ərazilərdə 8-13, gündüz 0-3 dərəcə şaxta olacaq. Əsasən dağlıq və dağətəyi rayonlarda yollar buz bağlayacaq.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2889
SİFARİŞ 184
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00